В клинике им. Эфендиева на кафедре «детские болезни» мы наблюдали 6 соматических больных с диагнозом: холецистит, гепатохолецистит. Дети - 3 мальчика и 3 девочки были в возрасте от 3,5 до 12 лет. Клиника была характерной для холецистита, с болями при пальпации в эпигастрии и в правом подреберье. У детей отмечалась лихорадка, диспепсические явления. Печень была незначительно увеличена и болезненна. Имелась незначительная желтушность кожных покровов и склер. На основании данных полученных диагностических титров в РНГА с кишечноиерсиниозным эритрроцитарным диагностикумом от 1/320 до 1/ 5120 всем детям был поставлен диагноз иерсиниоз.

Некоторые истории болезни, представляющие интерес мы приводим ниже:

Двое детей из одной семьи Ф.-15 лет и Э.-11 лет, из района Азербайджана, поступили в хирургическое отделение больницы №2 им. Эфендиева с острыми болями вокруг пупка и в области аппендикса. Через 2 дня, исключив хирургическое заболевание, дети были переведены в детское соматическое отделение, где у девочки, наряду с болями в животе, появились боли и небольшая припухлость в коленных суставах, а у мальчика, наряду с артралгией, развилась отчетливая картина бронхопневмонии. При лабораторном исследовании была у обоих выделена культура Yesinia enterocolitica, а в крови в РНГА выявлены антитела в диагностическом титре 1/400 и 1/800. Получив патогенетическую терапию, с выздоровлением были выписаны домой. В дальнейшем, в течение 2 лет были под наблюдением. Дети были здоровы, рецидива заболевания не было.

Мальчик 7 лет, из Сумгаита поступил с болями в животе и общим недомоганием. Со слов родителей - перенес ангину. Через несколько дней у него появились боли симметрично в коленных и голеностопных суставах, сопровожденные небольшой гиперемией и припухлостью. Больной был всесторонне обследован, в том числе и на ревматизм. Бактериологическое исследование показало наличие Y.enterocolitica. а в крови в РНГА выявлены антитела в диагностическом титре 1/200. Получив патогенетическую терапию был выписан с выздоровлением. При дальнейшем наблюдении в течение года был здоров, рецидива заболевания не было.

Мальчик 7 лет поступил с болями в животе и неустойчивым стулом. В анамнезе ангина, боли в крупных суставах, общее недомогание, субфебрильная температура, глухость тонов сердца, ЭКГ показало – миокардит. При бактериологическом исследовании изолирована культура Y.enterocolitica. а в крови в РНГА выявлены антитела в диагностическом титре 1/400 . Получив патогенетическую терапию, выписан домой с выздоровлением. Был здоров весь период наблюдения в течение года, рецидива заболевания не было.

ВЫВОДЫ: 1.Описаны случаи иерсиниоза, клинически проявляющегося в виде правостороннего шейного лимфаденита, глоточного абсцесса, остеомиелита, гематогенного остеита без предшествующей диареи и каких-либо патологических изменений со стороны кишечника и вызываемых Y.enterocolitica сероварианта «О»18 наряду с «О»3, «О»9 и «О»5. 2.Кроме общеизвестных и часто встречаемых форм иерсиниоза, возможны случаи, при которых основным клиническим проявлением бывает менингит. У больных с серозным иерсиниозным менингитом выявляются, обычно (но не всегда), общие для всех форм иерсини-озов симптомы: экзантема, полиаденопатия, артралгии, увеличение печени, иногда боли в животе и жидкий стул. 3.Сообщается о частом вторичным поражении кожи при этом заболевании, которое сочетается с другими признаками Иерсиниоза: 4.Y.enterocolitica способна вызывать

эндокардит при явно нормальных аортальном и митральном клапанах у пожилых людей с отсутствием иммунодефицитного состояния. 5.У некоторых больных при иерсиниозе могут быть поражения почек, переходящее в хронический нефрит. Обсуждается связь осложнений со стороны органов мочевыделения с Y.enterocolitica «0»3 серовара. Сделано предположение о ведущей роли иммунных комплексов в патогенезе гломерулонефрита. 6.География редких форм иерсиниозов в Азербайджане чрезвычайно широка. Иерсиниозы встречаются как в городах, так и в сельской местности. Регистрируемые клинические формы иерсиниозов самые разнообразные.

ЛИТЕРАТУРА

1.Злушко Е.И., Ценева Г.Я. Клинико-эпидемиологическая характеристика группового заболевания псевдотуберкулезном // Военно-медиц. журнал, 1984, №1, с.67.

2.Борисова М.А. Функциональное состояние сердца у больных псевдотуберкулезном // Клин. медицина, 1972, №7, с.122;

3.Байштрук М.Н., Сомов О.Г. Поражение нервной системы при эпидемии псевдотубер-кулеза / Сборника: ДСЛ, 1974

4. Кареткина Г.Н., Бродов Л.Е., Ющук Н.Д. и др. Редкие формы иерсиниозов у взрослых // Клин. медицина,1985, №2, с.110-113;

5.Иванис В.А. Значение эластазной активной крови в диагностике нарушений внешнесекреторной функции поджелудочной железы у больных иерсиниозом / Тез. Всесоюз. Н-П. конф. Иерсиниозы-микробиология, эпидемиология, клиника, патогенез, иммунология. М., 1986, с.173

6.Орлов О.В. Состояние сердечно-сосудистой системы при ДСЛ // Воен. мед жур.1969, с.65.

7.Дмитровский А.М., Довгаль Г.Д. Три случая кожной формы иерсиниоза//Клин. мед.,1983,№4,с.77-78

8.Малый В.Г. Узловатая эритема при псевдотуберкулезной инфекции // Врач. дело, 1981, №7, с.106

9.Anxolabehtre F.Faucqueur B, Proust Y. «Гнойный плеврит, вызванный Y.enterocolitica» Med. Et Malad infect. 1983, v.13, p.90-93

10.Frotter I., Dournon E., Verliac F. Необычные проявления иерсиниоза // Med.Mal.Inf.,1983, v.13, p.13-17

11.Quinsat D., Harle J.R., Fosse T. et al Эндокардит, вызванный Y.enterocolitica серовара 08. Первый случай в Европе // Presse med, 1986, v.15, c 487

12.Blinkhorn R.J., Marino J.A. Латеральный глоточный абсцесс, обусловленный Y.enterocolitica //Amer.J.Med., 1988, v.85, p.851-852

13.Watanakunakorm Ch. Острый инфекционный эндокардит, вызванный Y.enterocolitica //Amer.J.Med.,1989, v 86, p.723-725

14.Kurou A., Kansouzidou-Kanakoudi, Damelides R. et al Остеомиелит, вызванный Y.enterocolitica у ребенка с талассемией В // Acta Microb. Hellenica, 1986, v.31, p.116-12

15.Fich A., Praruck Th., Haroche G. et al Гематогенный остеит, обусловленный Y.enterocolitica // Inf. Dis..,1989, v.160, p.554

16.Leighton P.M., Macsween H.M. Иерсиниозные почечные абсцессы, связанные с длительной терапией препаратами железа // J. Amer.med.Ass., 1987, v.257, p.964

17.Ory J.P., Pevier J., Boiron I. et al Системный иерсиниоз, начавшийся с кожной формы // Press.med., 1989, v.17, p.1156-1157

18.LewisI.F., Alexander I. Абсцесс лица, вызванный Y.enterocolitica // Amer.J.clin.path. 1976, v.66, c.1016-1018

19.Beurey Y., Weber M., Thanry P., Eich D., Barhelme D. Кожные проявления при иерсиниозе // Med et Malad infect. 1983, v.13, p. 5-9

20.Shenkman L., Botton E.I Антитела к Y.enterocolitica при заболеваниях щитовидной железы // Ann.inten.Med., 1976, v.85, p.735-739

21.Forsstrom I., Viander M., Lehtonen A., Ekfors T. Инфекция, вызванная Y.enterocolitica, осложненная гломерулонефритом // Scand. I.Dis., 1977, v.33, p.253-256

22. Korpela M., Mustonen J., Pasternack A., Leinikki P. Изменения в почках и мочевыводящих путях при острой иерсиниозной инфекции //Acta.med.Scand., 1986, v.220, p. 471-476

23.Awunor-Renner C., Lawande R.V. Роль иерсиний при хронической почечной патологии в саваннах Нигерии // Brit.med. J., 1982, v.285, p. 1464

24.Thomas I.L., Mollaret H.H., Hartmann P. et al Антитела к Y.enterocolitica и заболевания щитовидной железы // Med.et malad. Infect., 1983, v.13, p. 10-11

25.Бутянов Н.Г., Дроздов В.Н. Клинико-иммунологическая характеристика иерсиниозов у детей раннего возраста // Тез Всесоюз. Н-П конф. "Иерсиниозы - микробиология, эпидемиология, клиника, патогенез, лаб.диагностика". Кемерово, 1989, с.9

26.Попова Т.Н., Погорелова Н.П., Рашевская Е.В. Изучение роли иерсиниозной инфекции в патогенезе диффузного токсического зоба» Каф. терапии №1 Астраханского мед. института и Астраханского Филиала ЦНИИ эпидемиологии Минздрава СССР.

SUMMARY

RARE FORMS OF DISEASES CAUSED BY MICROORGANISMS KIND YESINIA

R.A.Ahmedov, H.G.Huseynova, A.A.Farajev, P.M.Abdullayev, A.N.Talibzade, M.A.Rajabov

1.Cases yersinioses, clinically shown as right-hand cervical limfaadenit, a pharyngeal abscess, an osteomyelitis, hematohen osteit without previous diarrhea and any pathological changes are described on the part of intestines.

2.Y.enterocolitica it is capable to cause endocarditic at obviously normal aortale and mitrale valves in older persons with absence immunological scarce conditions.

3.Except for well-known and frequently met forms yersinioses, cases at which by the basic clinical display happens meningitis are possible. At patients with serous yersinioses a meningitis come to light, is usual (but not always), the general for all forms yersinioses symptoms: Exanthema, poliadenopatholoji, artralgic, increase in a liver, sometimes pains in a stomach and a liquid chair.

4. There is an opinion about often secondary defeat of leather {skin} at this disease which is combined with other attributes yersinioses.

5. Some patients at yersinioses can have defeats of the kidneys, passing in a chronic greenstone. Communication of complications is discussed on the part of bodies of urination with Y.enterocolitica "03 serological thipe. The assumption of the leading part of immune complexes in pathogenesis glomerulonefrit is made.

6. The geography of rare forms Yersinioses in Azerbaijan is extremely wide. Yersinioses meet both in cities and in countryside. Registered kliniks forms yersinioses the diversified.

XÜLASƏ

YESINIACINSINDƏN OLAN MIKROORQANIZLƏRIN TÖRƏTDIYI XƏSTƏLIKLƏRIN NADIR FORMALARI

R.A.Əhmədov, N.Q.Hüseynova, A.A.Fərəcov, R.M.Abdullayev, A.N.Talıbzadə, M.A.Rəcəbov

1.Yersiniozun limfadenit, udlaq absesi, osteomielit, hematoqen osteyit, öncə diareya və ya bağırsag tərəfindən hər hansı diqər patoloji dəyişikliklər olmayan şəkildə kliniki təzahürü haqqında məlumatlar dərc olunmuşdur.

2.Yaşlı adamlarda immun çatmamazlığı vəziyyətində normal aortal və mitral klapanlarin olmasına baxmayaraq Y.enterocolitica endokardıt xəstəliyinə qətirib çıxara bilir

3.Hamıya məlum olan və tez-tez rast qələn yersinioz formalarından başqa, əsas kliniki göstərici meninqit olan hallara da rast gəlmək olur. Serozlu yersinioz meninqiti olan xəstələrdə adətən (həmişə yox) yersiniozun bütün formaları üçün ümumi olan simptomlar aşkara çıxır: ekzantema, poliadenopatiya, artralgiya, qaraciyərin böyüməsi, arabir qarın ağrıları və duru ifrazat.

4.Dərinin bu xəstəlik zamanı tez-tez ikincili zədələnməsi bağırsaq yersiniozunun digər əlamətləri ilə uyğunlaşır.

5.Yesinia xəstəliyi zamanı bəzi xəstələrdə böyrəklərin zədələnməsi baş verir və bu xroniki nefritə çevrilə bilir. Sidik yollarinda kəskinləşmələrin Y.enterocolitica 03 serovarı ilə əlaqəli olması haqqında mülahizələr söylənilir. Qlomerulonefritin patogenezində immun komplekslərinin öncül rolu barədə fərziyyələr mövcuddur.

6.Yersiniozların nadir formaları coğrafi cəhətcə Azərbaycanda geniş yayılmışdır. Onlar həm şəhərlərdə, həm də kənd yerlərində təsadüf edirlər. Yersiniozların qeyd olunan kliniki formaları çox muxtəlifdir.

Daxil olub:25.03.2011

ОБРАЩАЕМОСТЬ ЗА СТОМАТОЛОГИЧЕСКОЙ ПОМОЩЬЮ ЛИЦ ПОЖИЛОГО И СТАРЧЕСКОГО ВОЗРАСТА (ПО МАТЕРИАЛАМ ОБСЛЕДОВАНИЯ В РЕСПУБЛИКЕ ДАГЕСТАН)

О.Р. Курбанов, З.О. Курбанов, М.М. Алиханов, А.Ч. Пашаев, Д.И. Исмайлов

Дагестанская Государственная Медицинская Академия; Азербайджанский Медицинский Университет, г.Баку

Увеличение средней продолжительности жизни населения и числа лиц пожилого и старческого возраста в нашей стране, естественно, привело к изменению структуры обращаемости за медицинской помощью. Так, в частности, выросло число больных пожилой и старческой возрастных групп, требующих полноценного медицинского обслуживания.

Изучение литературы показало, что эпидемиологические стоматологические исследования среди лиц пожилого и старческого возраста малочисленны и весьма разноречиво отражено неблагополучное состояние органов полости рта.

Исследования [2] свидетельствуют, что в возрасте 60 - 69 лет только 5,5% обследованных не имели стоматологических заболеваний, а в возрасте 70 - 79 лет всего 1,2%.

Утрата зубов является не только следствием старения, но и результатом заболеваний органов полости рта, главным образом кариеса и болезней пародонта. Ряд авторов [1] считает, что высокая нуждаемость в ортопедической стоматологической помощи во многом обусловлена низким качеством зубных протезов и нерациональным выбором конструкции.

Заслуживает внимания мнение [1] о том, что уровень нуждаемости в ортопедической помощи определяется социально-экономическими условиями, а главное – организацией профилактических мероприятий. По данным авторов, в среднем у каждого жителя Чеченской Республики в возрасте до 74 лет удалено 10,42±0,32 зуба, до 89 лет - 12,92±0,45, а старше 90 лет - 14,79±0,32.

ЦЕЛЬЮ нашего исследования явилось определение распространенности и интенсивности основных стоматологических заболеваний у лиц пожилого и старческого возраста г. Махачкалы.

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. Стоматологическое обследование населения в возрасте 60 – 69, 70 – 79, 80 лет и старше проведено в г.Махачкале по методу, разработанному и рекомендованному Комитетом экспертов ВОЗ. Всего обследовано 390 человек.

Обследование осуществлялось в клинических условиях в стоматологическом кресле при искусственном освещении с помощью зубоврачебного зеркала и зонда. Данные регистрировались в карте осмотра полости рта ВОЗ. Интенсивность кариеса зубов оценивали по величине индекса КПУ, а распространенность выражали в процентах. Состояние пародонта оценивали по индексу CPITN (ВОЗ. Серия техн. докл. № 671. - М., 1980), который позволяет выявить следующие клинические признаки: кровоточивость десен, наличие над- и поддесневого зубного камня, пародонтальные карманы глубиной 4– 6 мм. В дальнейшем по этим данным рассчитали показатели распространенности и интенсивности заболеваний пародонта.

В специальном (дополненном нами) разделе карты регистрировали показатели нуждаемости в ортопедическом лечении. Во-вторых, определяли наличие либо отсутствие зубных протезов. При наличии зубных протезов определяли их вид, пригодность для пользования.

Полученные результаты обрабатывали методом вариационной статистики.

РЕЗУЛЬТАТЫ ИССЛЕДОВАНИЯ И ИХ ОБСУЖДЕНИЕ. В таблице 1 представлена численность и возрастная структура лиц пожилого и преклонного возрастов. Как было установлено в ходе исследования, в составе обследованных наибольший удельный вес составили лица в возрасте 80 лет и старше (42,3%), что позволило предложить считать указанную группу своеобразным маркером для населения пожилого и старческого возраста.

Таблица 1

Численность и возрастная структура лиц пожилого и старческого возраста, а также долгожителей Республики Дагестан

№	Возраст пациента	Число опрошенных	
		абс.число	%
1	60 – 69 лет	85	21,8
2	70 – 79 лет	140	35,9
3	80 и старше	165	42,3
4	Всего	390	100,0

Анализ результатов клинического обследования органов полости рта населения пожилого (60 – 69 лет), старческого (70 - 79 лет) возраста и долгожителей (80 лет и старше) свидетельствует о высокой распространенности кариеса зубов среди данного контингента, которая составляет 100% (Таблица 2).

редняя интенсивность поражения составила 25,62±0,41% в расчете на 1 обследованного. Она неуклонно нарастает с возрастом с 22,35±0,94 в 60–69 лет до 29,1±0,51 в возрастной группе 80 лет и старше. Это свидетельствует о чрезвычайно высоком уровне пораженности кариесом зубов у лиц пожилого и старческого возраста.

Таблица 2

Показатели пораженности кариесом зубов среди лиц пожилого и старческого возраста, а также долгожителей различных климатогеографических районов Республики Дагестан

Возраст пациента	Распространенность кариеса зубов, (в %)	Интенсивность кариеса (в среднем на 1 обследованного)
60 – 69 лет	100	22,35±0,94
70 – 79 лет	100	25,34±0,72
80 и старше	100	29,1±0,51
Всего	100	25,62±0,41

Стоматологическую заболеваемость больше всего характеризуют показатель интенсивности кариеса (КПУ), отражающий число кариозных зубов, подлежащих лечению (К), число пломбированных (П) и удаленных зубов (У), приходящихся на одного обследованного. Результаты нашего исследования показали, что индекс КПУ у старческого и пожилого населения г.Махачкалы достигает 26,58±0,58 зуба (Таблица 3).

Таблица 3

Структура индекса КПУ зубов среди лиц пожилого и старческого возраста, а также долгожителей различных климатогеографических районов Республики Дагестан

	Структура КПУ				
Возраст пациента	Кариес и его осложнения	Зубы и корни, подлежащие удалению	Пломбиро-ванные зубы	Удаленные зубы	Итого
60 – 69 лет	3,01±0,07	5,41±0,16	6,84±0,15	9,43±0,24	24,69±0,68
70 – 79 лет	3,49±0,07	6,66±0,19	4,0±0,21	11,89±0,37	26,04±0,31
80 и старше	4,15±0,05	9,1±0,22	1,15±0,08	14,02±0,90	28,42±0,62
Всего	3,01±0,07	5,41±0,16	6,84±0,15	9,43±0,24	24,69±0,68

Наивысшее значение - 28,42±0,69 зуба зарегистрировано в группе 80 лет и старше, несколько ниже - 26,04±0,31 зуба в возрастной группе 70 - 79 лет и наименьшее значение - 24,69±0,68 зуба наблюдается в возрастной группе 60 - 69 лет. При сравнительном анализе значений индекса КПУ зубов среди трех возрастных групп отмечается статистически достоверное различие (t>2) между каждой из них. В структуре индекса КПУ существенное место занимают удаленные зубы, которые составляют 14,02±0,90%. Причем с возрастом их удаленный вес постоянно нарастает. Анализ других элементов показателей КПУ указывает на их невысокий удельный вес. Так, удельный вес запломбированных зубов незначителен и составляет всего 13,35±0,21%. Прослеживается четкая тенденция снижения данного показателя от 6,34±0,15 зуба у пожилых и 1,12±0,7 зуба в возрастной группе 80 лет и старше. Наши показатели ниже аналогичных, полученных другими авторами (Гадаев М.С., 2003), что объясняется военными действиями в регионе, несмотря на одинаковые климатогеографические условия.

Особую тревогу при оценке стоматологического статуса пожилых людей представляют собой разрушенные зубы и корни, подлежащие удалению, которые в структуре индекса КПУ достигают 27,95±0,31%. При сравнительном анализе значений элементов КПУ зубов среди трех возрастных групп отмечается статистически достоверное различие (t>2) между каждыми из них. Серьезного внимания заслуживают данные о числе лиц с частичной или полной адентией. В среднем у каждого человека пенсионного возраста зарегистрировано по 11,58±0,31 удаленного зуба. Протяженность дефектов зубных рядов, обусловленная утратой 1 - 3 зубов, выражена у 12,0±0,11%. Отсутствие 4–5 зубов зафиксировано у 6,03±1,02% данного контингента. Потеря 7-9 зубов зарегистрирована у 14,2±1,46% обследованных и полное отсутствие зубов - у 24,1 ±1,48% обследованных. В зависимости от возрастной группы полная утрата зубов в 40,0% случаев зарегистрирована в возрастных группах 80 лет и старше, затем у

населения возрастной группы 70 - 79 (22,1% случаев) и самый низкий показатель -12,5% выявлен в возрастной группе 60-69 лет. Как видно из представленных данных, с возрастом у населения увеличивается нарастание полной потери зубов.

При изучении пародонтального статуса распространенность воспалительных заболеваний составила 100%. Пародонт диагностируется у 57,6% населения пожилого и старческого возраста. Причем с возрастом уменьшается степень тяжести заболевания, что связано с удалением зубов, на это указывает индекс CPITN, значение которого превышало 3 во всех секстантах. Существенный интерес для характеристики качества оказанной ортопедической стоматологической помощи представляют данные о наличии и сроках пользования представителями взрослого и старческого возраста зубными протезами различных конструкций. В возрастной группе 60 - 69 лет потребность в ортопедическом лечении составила 93,1%, причем негодные протезы имеют 94,3% обследованных данного возраста и не имеют протезов 7,8%. В возрастной группе 70 - 79 лет потребность в ортопедическом лечении составила 96,5%, причем негодные протезы имеют 96,8% обследованных, не имеют протезов 9,8%. В возрасте 80 лет и старше потребность в ортопедическом лечении составила 97,1%, негодные протезы имеют 95,1%, не имеют протезов 10,1%. В ходе исследования установлено, что у населения пожилого и старческого возраста практически отсутствовали шинирующие протезы; бюгельные протезы выявлены у 42 обследованных. Анализ результатов исследования показал высокий уровень потребности в стоматологической помощи у лиц пожилого и старческого возраста, а также долгожителей Республики Дагестан.

ЛИТЕРАТУРА

1. Гадаев М.С. Определение потребности населения пожилого возраста Чеченской Республики в ортопедической стоматологической помощи: Автореф. дисс. … канд. мед. наук. М., 2003. 24 с.
2. Курбанов О.Р. Функционирование и механизм развития регионального рынка стоматологических услуг (на примере Республики Дагестан): Автореф. дисс. … докт. мед. наук. М., 2009. 54 с.
3. Луцкая И.К. Потребность в стоматологической помощи лиц старших возрастных групп // Стоматология, 1995. № 4. с.62-64

XÜLASƏ

YAŞLI VƏ QOJA NƏSLİN STOMATOLOJİ YARDIMA MÜRACİƏTİ (DAĞISTAN RESPUBLİKASINDAKI MÜAYİNƏ MATERİALLARI)

O.R.Qurbanov, Z.O.Qurbanov, M.M.Əlixanov, A.Ç.Paşayev, D.İ.İsmayılov

Məqalədə Dağıstan Respublikasının yaşlı, qoca və uzunömürlülərində stomatoloji yardıma yüksək səviyyədə tələbatın müşahidə olunması açıqlanmışdır.

SUMMARY

REQUIREMENT OF DENTAL HELP AMONG PEOPLE OF ELDERLY AND SENILE AGE (ON DENTAL EXAMINATION MATERIALS IN DAGESTAN REPUBLIC)

O.R.Kurbanov, Z.O.Kurbanov, M.M.Alikhanov, A.Ch. Pashayev, D.I. Ismailov

A high level of requirement of dental help is revealed among adults and people of senile age, and also long-livers in Dagestan Republic.

Daxil olub:22.06.2011

PERİNATAL ENSEFALOPATİYASI OLAN SÜDƏMƏR YAŞLI UŞAQLARDA QƏBİZLİK SİNDROMU ZAMANI ANTİHOMOTOKSİK TERAPİYANIN SƏMƏRƏLİLİYİ

S.Ş. Həsənov, B.A, Kazımova, A.S. Hacıyeva
K.Fərəcova adına ET. Pediatriya İnstitutu, Bakı

Hazırda südəmər yaşlı uşaqların xəstələnmə strukturunda mədə-bağırsaq traktının (MBT) funksiya pozulmaları yuksək xüsusi çəkiyə malikdir. Müəyyən edilmişdir ki, yenidoğulanlarda, xüsusi ilə vaxtından əvvəl dogulanlarda MBT funksional pozulmalarının rastgəlmə tezliyi kifayət qədər yüksəkdir [1,6].

Məlumdur ki, südəmər yaşlı uşaqlarda, xüsusi ilə, yenidoğulanlarda MBT disfunksiyaları mərkəzi sinir sisteminin (MSS) perinatal hipoksik travmatik zədələnmələri fonunda inkişaf edir; 10% halda bu disfunksiyalar MSS-nin perinatal zədələnmələrinin vegetovissiral nəticəsi kimi təzahür edir [3,7]. Vegeto-vissiral sindrom (VVS) bir şox orqan və sistemlərdə baş verən geniş spektrli morfoloji

və funksional pozulmalar olub somatonevroloji, neyrosomatik və ya neyroendokrin pozulmalar şəklində müşahidə olunur. Bunlar arasında mədə-bağırsaq, damar, tənəffüs və termorequlyasiya pozulmaları xüsusi əhəmiyyət kəsb edir [2,6].

Südəmər yaşlı uşaqlarda MSS-nin hipoksik-işemik zədələnmələri fonunda inkişaf etmiş MBT disfunksiyaları hipermotor növ diskineziya (atonik qəbizlik, bağırsaq parezi, meteorizm), kardial və pilorik sfinktorların diskoordinasiyası (pilorospazm, reflükslər) şəklində baş verir. Bu funksional pozulmalar arasında qəbizlik mühüm yer tutur. Yatrogen qəbizliyin diuretiklər, qıcolmaəleyhi preparatlar (fenobarbital və s.) və antibiotiklərin qəbulu ilə əlaqədar inkişaf edən funksional pozulmalarının rastgəlmə tezliyinin artması diqqəti cəlb edir.

Hazırda "qıcıqlanmış bağırsaq sindromu" adlandırılan funksional disfunksiyalar klinik mənzərənin müxtəlifliyinə baxmayaraq, patogenetik olaraq bağırsağın selikli qişasının reseptor aparatının requlyasiya pozğunluğu kimi qəbul edilir [4].

Bu requlyasiya pozğunluqları orqanizmin çoxsaylı, çoxfaktorlu təsirlərə (ekzo- və endotoksinlərə) qarşı requlyasiya pozğunluğu kimi formalaşır və müxtəlif dərəcəli intoksikasiya (endotoksikoz) ilə müşahidə olunur. Belə requlyasiya pozğunluqları zamanı endotoksikozun ağırlıq dərəcəsinin klinik qiymətləndirilməsi və adekvat mualicənin aparılması praktik cəhətdən əhəmiyyətlidir.

Son illər pediatriya təcrübəsində antihomotoksik preparatlardan istifadə olunması və onların səmərəliliyi haqqında məlumatlar diqqəti cəlb edir [5,6]. Antihomotoksik (AHT) preparatların südəmərlik dövründə istifadə olunması xüsusilə əhəmiyyətlidir, çünki bu qrup preparatlar təbii mənşəli olub orqanizmə toksiki təsir göstərmir və tənzimləyici xüsusiyyətə malikdir[7,8].

İşin MƏQSƏDI südəmər yaşlı uşaqlarda qəbizlik sindromu zamanı AHT terapiyanın səmərəliliyinin qiymətləndirməkdən ibarət olmuşdur.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Müayinəyə MSS-nin perinatal hipoksik zədələnməsi fonunda qəbizlik sindromu olan 66 südəmər uşaq cəlb edilmişdir. Müalicənin xarakterindən asılı olaraq bu uşaqlar 2 qrupa bölünmüşdür: 1-ci əsas qrupa AHT terapiya (Nux Vomica Homaccord, Grafites Homaccord, Mucoza compozitum) alan 36 uşaq (əsas qrup), 2-ci müqayisə qrupuna standart müalicə (allopatik terapiya) alan 30 uşaq aid edilmişdir. Nəzarət qrupuna ancaq MSS-nin perinatal hipoksik zədələnməsi olan 30 uşaq aid edilmişdir.

Qəbizlik sindromu olan uşaqların seçilməsi zamanı anada hipoqalaktiyanın olması nəticəsində ancaq ana südü ilə qidalandırılanlarda yaranmış "yalançı" qəbizlik halları istisna edilmişdir. Həmçinin uşağın "süst" əmməsi, tez-tez qaytarma və ağız boşluğu qüsurları zamanı kifayət qədər qidalanmamaq nəticəsində yaranmış qəbizlik halları nəzərə alınmışdır. Bununla yanaşı müayinə qruplarına pilerostenoz, Hirşprunq xəstəliyi, dolixosiqma, anusun fistulalı atreziyası və s. qüsurları olan uşaqlar aid edilməmişdir.

Bütün müayinə olunmuş uşaqlarda qanın, sidiyin, nəcisin ümumi analizi aparılmış bağırsaq florasının spektri təyin edilmiş, qarın boşluğu orqanlarının rentgen şəkli (lazım gəldikdə kontrast müayinə) çəkilmişdir. Uşağın vegetativ statusu ürək döyüntülərinin sayı, tənəffüsün sayı, arterial təzyiq və termorequlyasiyaya əsasən qiymətləndirilmişdir. Həmçinin serebral qan cərəyanının vəziyyəti doppleroqrafik qiymətləndirilmişdir.

Südəmər uşaqlarda qəbizlik sindromu zamanı AHT terapiyanın klinik səmərəliliyi kompleks somatik və nevroloji meyarlara əsasən aparılmışdır. Bu məqsədlə intoksikasiyanın ağırlıq dərəcəsinin qiymətləndirilməsi üçün Həsənov S.Ş və həmmüəlliflər [9] tərəfindən tərtib olunmuş şkaladan istifadə olunmuşdur.

AHT terapiyanın səmərəliliyinin orta qiyməti (AHTTSOQ) şərti vahidlərin (-1-pisləşmə, 0-dəyişiksiz,+1-yaxşılaşma,+2-kifayəy qədər yaxşılaşma) cəminin xəstəliyin müvafiq nəticələri olan uşaqların cəminə (n1,n2,n3,n4) bölünməsi şəklində aşağıdakı formulla hesablanmışdır:

$$AHTTSOQ = \frac{[(-1)xn1+(0xn2)+(1xn3)+(2xn4)]}{\Sigma n}$$

TƏDQIQATIN NƏTICƏLƏRI. Tədqiqatın başlanğıcında hər bir müayinə olunan uşaqda intoksikasiyanın ağırlıq dərəcəsi qiymətləndirilmiş, alınan nəticələr 1-ci cədvəldə verilmişdir.

Cədvəl 1-dən göründüyü kimi, intoksikasiyanın ağırlıq dərəcəsini qiymətləndirmə şkalası özündə daha informativ klinik əlamətləri (uşağın ümumi vəziyyəti, fizioloji reflekslər, emosional reaksiya, hərəki fəallıq, mikrosirkulyasiya pozğunluğu, meteorizm və s.) əks etdirir. İntoksikasiyanın

inteqral əmsalı 0-3 balla qiymətləndirilən hər bir əlamətə verilən balların cəminin öyrənilən əlamətlərin sayına bölünməsi ilə hesablanmışdır.

Əsas və müqayisə qrupunda mualicədən əvvəl intoksikasiyanın əsas klinik əlamətləri bir-birindən dürüst fərqlənməmişdir (p>0,5).

1-ci və 2-ci qrup uşaqlarda kontrol qrupla müqayisədə hərəki fəallıq, əzələ tonusu, mikrosirkulyasiya pozğunluğu, meteorizm, qusma və qaytarma.

Südəmər uşaqlarda perinatal hipoksik ensefalopatiya fonunda qəbizlik sindromu zamanı intoksikasiyanın ağırlıq dərəcəsi, həmçinin intoksikasiyanın inteqral əmsalı statistik dürüst (p<0,05) fərqlənmişdir (Cədvəl 1).

Cədvəl 1

Hər bir müayinə olunan uşaqda intoksikasiyanın ağırlıq dərəcəsi

İntoksikasiyanın əlamətləri	Klinik əlamətlərin tərəddüdləri		
	1-ci qrup (əsas)	2-ci qrup (müqayisə)	Kontrol qrup
Uşağın vəziyyəti	1,24±0,10	1,19±0,09	1,06±0,08
Fizioloji reflekslər	1,32±0,12	1,28±0,10	1,10±0,09
Emosional reaksiya	1,08±0,08	1,04±0,06	0,90±0,06
Hərəkəti fəallıq	1,16±0,10 x	1,09±0,08 x	0,84±0,05
Əzələ tonusu	1,36±0,12 x	1,31±0,11 x	0,92±0,08
Yuxu	1,10±0,09 x	0,98±0,08	0,82±0,05
Mikrosirkulyasiya pozğunluğu	1,38±0,12 x	1,32±0,10 x	0,94±0,08
Iştaha	1,06±0,08	1,02±0,07	0,88±0,07
Əmmənin xarakteri	0,92±0,06	0,90±0,05	0,82±0,05
Meteorizm	0,94±0,06 x	0,96±0,06 x	0,66±0,05
Qusma və qaytarma	0,96±0,06 x	0,92±0,05 x	0,56±0,04
Intoksikasiyanın inteqral əmsalı	1,18±0,05 x (0,88-1,48)	1,22±0,05 x (0,84-1,42)	0,81±0,06 x (0,56-1,10)

Qeyd: Kontrol qrupun göstəricisi ilə müqayisədə statistik fərq, x- p<0,05

Perinatal ensefalopatiya fonunda inkişaf etmiş qəbizlik sindromu zamanı uşağın ümumi vəziyyətində kəskin narahatlıq, qabarıq hiporefleksiya, emosional reaksiyaların ləngiməsi və süstləşmə, hərəki fəallığın hipo- və ya adinamiyası, əzələ tonusunda qabarıq hipotoniya və ya atoniya halları müşahidə edilmişdir. Həmçinin bu uşaqlarda yuxunun pozulması, dəridə mərmərlik və ya "ağ ləkə" simptomu ilə müşahidə olunan mikrosirkulyasiya pozğunluğu, iştahsızlıq, süst əmmə, qabarıq meteorizm müşahidə edilmişdir. Qeyd olunan əlamətlər hər iki qrup (əsas və müqayisə qrupu) uşaqlarda qabarıq müşahidə edilmişdir. Göstərilənlər qəbizlik sindromu zamanı endotoksikozun daha ağır gedişə malik olduğunu və qabarıq klinik əlamətlərlə təzahür etdiyini göstərir. Sonuncu 1-ci və 2-ci qrup uşaqlarda intoksikasiyanın inteqral əmsalının orta qiymətinin kontrol qrup uşaqlardan 1,4-1,5 dəfə çox olması şəklində müşahidə edilmişdir (Cədvəl 1).

Südəmər uşaqlarda perinatal ensefalopatiya fonunda inkişaf etmiş qəbizlik sindromu zamanı ANT terapiyanın səmərəliliyi intoksikasiyanın ağırlığını səciyyələndirən şkalaya əsasən qiymətləndirilmişdir; alınan nəticələr 2-ci cədvəldə verilmişdir.

2-ci qrup göstərici 2-ci cədvəldən göründüyü kimi, müalicədən sonra qəbizlik sindromu olan hər 2 qrup uşaqlarda intokskasiyanın klinik əlamətlərində müsbət dinamika qeyd edilmişdir. AHT terapiya (Nux Vomica Homaccord, Grafites Homaccord, Mucoza compozitum) alan uşaqlarda (1-ci qrup) klinik əlamətlərin normallaşması daha qabarıq baş vermişdir. Belə ki, əsas qrup uşaqlarda ümumi vəziyyət tez yaxşılaşmış, fizioloji reflekslər və emosional reaksiyalar canlanmış, hərəki fəallıq və əzələ tonusu artmış, yuxu ritmi normallaşmış, mikrosirkulyasiya pozğunluqları silinmiş, iştahı yaxşılaşmış, əmmə anı fəallaşmış, meteorizm əlamətləri tez silinmiş, qusma və qaytarma müşahidə edilməmişdir. Bu əlamətlər içərisində 2-ci qrupla müqayisədə fizioloji reflekslər və emosional reaksiya, mikrosirkulyasiya pozğunluğu və iştaha, meteorizm və qusma dürüst fərqlənmişdir (p<0,05). Qeyd olunanlar intoksikasiyanın inteqral əmsalında qabarıq müşahidə edilmişdir, bu göstərici əsas qrup uşaqlarda 0,60±0,03, müqayisə qrupunda 0,81±0,03 olmuş, müvafiq olaraq 0,32-0,78 və 0,62-0,95 hüdudunda tərəddüd etmişdir və bir- birindən dürüst fərqlənmişdir (p<0,05).

Cədvəl 2

Südəmər uşaqlarda qəbizlik sindronu zamanı AHT terapiya fonunda intoksikasiyanın qiymətləndirilməsi

İntoksikasiyanın əlamətləri	Klinik əlamətlərin tərəddüdləri, bal		
	1-ci qrup (əsas)	2-ci qrup (müqayisə)	Kontrol qrup
Uşağın vəziyyəti	0,62±0,04	0,74±0,05	0,64±0,03
Fizioloji reflekslər	0,64±0,05 xx	0,89±0,06	0,71±0,04
Emosional reaksiya	0,54±0,04 xx	0,82±0,05 x	0,56±0,03
Hərəkəti fəallıq	0,64±0,05	0,78±0,06	0,65±0,04
Əzələ tonusu	0,70±0,05	0,96±0,08 x	0,72±0,04
Yuxu	0,55±0,04	0,62±0,05	0,58±0,04
Mikrosirkulyasiya pozğunluğu	0,62±0,05 xx	0,94±0,07	0,75±0,05
Iştaha	0,54±0,04 xx	0,81±0,07 x	0,56±0,03
əmmənin xarakteri	0,48±0,04	0,72±0,06	0,51±0,03
Meteorizm	0,52±0,05 xx	0,84±0,06 x	0,52±0,04
Qusma və qaytarma	0,44±0,04 xx	0,71±0,05 x	0,46±0,03
Intoksikasiyanın inteqral əmsalı	0,60±0,03 xx (0,32-0,78)	0,81±0,03 x (0,62-0,95)	0,62±0,03 (0,31-0,80)

Qeyd: x- p<0,05; kontrol qrup göstəricisi ilə müqayisədə statistik fərq xx- p<0,05

Əsas qrup uşaqlarda intoksikasiyanın klinik əlamətləri kontrol qrupun eyniadlı göstəricilərindən dürüst fərqlənmişdir, lakin 2-ci qrup uşaqlarda bu göstəricilərdən emosional reaksiya, əzələ tonusu, iştaha, meteorizm və qusma kontrol qrupdan dürüst fərqlənmişdir (p<0,05). Bu qrup uşaqlarda həmçinin intoksikasiyanın inteqral əmsalı, kontrol qrupdan dürüst fərqlənmişdir (p<0,05).

İntoksikasiyanın qiymətləndirmə şkalasından istifadə etməklə müəyyən edilmişdir ki, AHT terapiya fonunda pisləşmə və dəyişiksiz nəticə olmamış, yaxşılaşma 3 nəfərdə, kifayət qədər yaxşılaşma 33 nəfərdə müşahidə olunmuşdur. Beləliklə, AHT terapiyanın səmərəliyliyinin orta göstəricisi 1,92-ə bərabər olmuşdur.

Allopatik müalicə alan (2-ci qrup) uşaqlarda pisləşmə 1 nəfərdə, dəyişkən nəticə 4 nəfərdə, yaxşılaşma 24 nəfərdə, kifayət qədər yaxşılaşma 1 nəfərdə qeyd edilmişdir. Allopatik müalicənin səmərəliliyinin orta qiyməti 0,83-ə bərabər olmuşdur. Göründüyü kimi, AHT terapiyanın səmərəliliyi ənənəvi (allopatik) müayinədən 2,2 dəfə coxdur.

Beləliklə, tədqiqatın nəticələri perinatal ensefalopatiyası olan südəmər yaşlı uşaqlarda qəbizlik sindromu zamanı AHT terapiyanın səmərəliliyini təsdiq edir və istifadəsinin məqsədəuyğunluğunu diktə edir.

ƏDƏBIYYAT

1.Алгор Gershon M. D. The enteric nervous system: a second brain // Hosp: Pract (Minneap), 1999, v.34(7), p.31-42

2.Wemmer U. Biologischa Medizin in der Pediatric. Auflage, 2001. p.292.

3.Keller K. The leqal status of homeopathic medicines: Quality requirements, reqistration and permit procedures // Tierarrte Prax,1998, №20, p.243-247

РЕЗЮМЕ

ЭФФЕКТИВНОСТЬ АНТИГОМОТОКСИЧЕСКОЙ ТЕРАПИИ У ГРУДНЫХ ДЕТЕЙ С ПЕРИНАТАЛЬНЫМИ ЭНЦЕФАЛОПАТИЯМИ ПРИ СИНДРОМЕ ЗАПОРА

С.Ш. Гасанов, Б.А.Кязимов, А.С.Гаджиева

Целью работы явилось оценка эффективности антигомотоксической терапии у грудных детей с перинатальными энцефалопатиями при синдроме запора. В исследование включалось 66 грудных детей с перианатльно-гипоксическим поражением центрально-нервной системы на фоне синдрома запора. В зависимости от характера лечения эти дети разделились на две группы. Первая (основная) группа получила АГТ (Nux Vomica Homaccord, Grafites Homaccord, Mucoza compozitum). В эту группу воши 30 детей. Во вторую – контрольную группу вошли 30 детей только перианатльно-гипоксическим поражением центрально-нервной системы. Таким образом, исходя из результатов исследваония, можно делать вывод о том, что использование антигомотоксической терапии у грудных детей с перинатальными энцефалопатиями при синдроме запора имеет высокую эффективность. Авторы считают целесообразно пользоваться этим методом лечения.

SUMMARY

THE EFFECTIVENESS OF ANTIHOMOTOXIC THERAPY IN INFANTS WITH PERINATAL ENCEPHALOPATHY SYNDROME CONSTIPATION

S.Sh. Hasanov, B.A.Kazimov, A.S.Gadjiyieva

The aim of study was evaluation of antihomotoxic therapy in infants with perinatal encephalopathy syndrome constipation. The study included 66 infants with hypoxic-perianatlno defeat Central nervous system on the background of the syndrome of constipation. Depending on the treatment of these children were divided into two groups. The first (main) group received AGT (Nux Vomica Homaccord, Grafites Homaccord, Mucoza compozitum). This group voshi 30 children. The second - the control group included 30 children, only perianatal-hypoxic damage the central nervous system. Thus, based on the results issledvaoniya, it can be concluded that the use of antihomotoxic therapy in infants with perinatal encephalopathy syndrome constipation is highly efficient. The authors believe it is advisable to use this method of treatment.

Daxil olub:23.05.2011

DOĞUŞDAN SONRAKI DÖVRÜN XÜSUSİYYƏTLƏRİ VƏ DOĞUŞDAN SONRAKI XİDMƏT PRİNSİPLƏRİNDƏN ASILI OLARAQ ZAHI QADINLARIN SAĞLAMLIĞININ VƏZİYYƏTİ

N.T.Məhərrəmova

Ş.Ələsgərova adına 5 saylı doğum evi, Bakı

Cəmiyyətin müəyyən inkişaf mərhələsində stasionar mamalıq yardımının təşkilinin qüvvədə olan prinsipləri nəinki cəmiyyətin qadına - anaya və onun uşağına münasibətini deyil, həm də hamilə qadınlara, zahı və doğan qadınlara, yenidoğulanlara tibbi və sosial yardım imkanının, bilik səviyyəsini əks etdirir [1,2,4].

Keçmiş Sovet İttifaqı ölkələri, o cümlədən Azərbaycanın ərazisində uzun müddət mamalıq stasionarlarının işinin təşkili ənənəvi şəkildə aparılmışdır. Analar əsas infeksiya mənbəyi hesab edildiyi üçün uşaqların onlarla birlikdə uzun müddət qalması daha təhlükəli sayılırdı. Yenidoğulanlar digər palatada (çox vaxt böyük və çoxyerli olan) tibb heyətinin himayəsi altında saxlanılırdı.

Doğuşdan sonrakı xəstəliklərlə mübarizədə yeni istiqamətlər onların bakterial təbiətinin, infeksiya mənbəyinin və yayılma yollarının təyin edilməsi ilə şərtlənmişdir [6,5,3]. Zahı qadınların, xüsusilə də yenidoğulanların yoluxmasının daimi rezervuarı və mənbəyi doğum evlərinin heyəti, mikrobların xəstəxanadaxili ştamları ilə yoluxmuş şəxsin özü və onunla təmasda olan hər şey, hətta öz ailə üzvləri hesab olunur.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Tədqiqatımızda qarşıya qoyulan məsələlərin müvəffəqiyyətlə həll edilməsi üçün 210 zahı qadında doğuşdan sonrakı dövrün gedişinin təhlili aparılmışdır ki, onlardan 150-si əsas qrupu və 60-ı kontrol qrupu təşkil etmişdir.

Əsas qrupa doğum evində yenidoğulanlarla birlikdə olan və onlara yardım təcrübəsində yeni perinatal texnologiyalar tətbiq edilən zahı qadınlar daxil olmuşdur.

Müqayisə qrupunu ənənəvi perinatal yardım təcrübəsi tətbiq edilən zahı qadınlar və onların körpələri təşkil etmişdir.

Laktasiyaönü əmizdirmənin yenidoğulanların qidalanmasının xarakterinə və xəstələnməsinə təsirini öyrənmək məqsədi ilə onların birinci ilində 2 qrup təhlil edilmişdir: 1) Ş.Ələsgərova adına 5 saylı doğum evində analardan kesar kəsiyi əməliyyatı ilə doğulmuş yenidoğulanlar – burada zahı qadınlar və yenidoğulanlara qulluq zamanı yeni perinatal texnologiyalardan istifadə edilmişdir; 2) Ş.Ələsgərova adına 5 saylı doğum evində doğulan körpələr - bu zaman kesar kəsiyi əməliyyatından sonra qadınlar öz uşaqlarından ayrılmış və uşaqlar bir neçə sutka ərzində ana südünün əvəzediciləri ilə qidalanmışlar.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ. Aparılan təhlillər göstərilən zahı qadınlar qrupunun klinik-laborator və instrumental müayinəsinin məlumatlarına əsaslanmışdır ki, onun nəticələri qadınlarda doğuşdan sonrakı dövrün gedişində baş verən əhəmiyyətli dəyişiklikləri aşkar etməyə imkan vermişdir.

Müqayisə olunan qrupların zahı qadınlarının yaş tərkibinin təhlili zamanı əhəmiyyətli dəyişikliklər aşkar edilməmişdir, optimal doğuş qabiliyyətli (fertil) yaşda olan qadınlar (19-29 yaş) daha çox doğmuşlar ki, əsas qrupda onlar 73,6±3,5%, müqayisə qrupunda - 78,6±3,3%, gənclər isə müvafiq olaraq 3,6% və 4,0%, 30 və yuxarı yaşda - 22,7±3,4% və 22,4±3,4% təşkil etmişlər.

Cədvəl 1

Əsas qrupun və müqayisə qrupunun zahı qadınların əsas kəmiyyət göstərisiləri

Ümumi məlumatlar	Əsas qrup (n=150)		Müqayisə qrupu (n=60)	
	müt.	%	müt.	%
Orta yaş (il)	26,7±0,5		24,8±0,5	
Milliyyəti:				
Azərbaycanlı	91	61,2±3,9	34	58,0+6,3
Digər	59	38,8±3,9	26	42,0+6,3
Sosial vəziyyəti:				
Evdar qadınlar	66	44,0±4,0	27	44,8±6,4
Qulluqçular	41	27,6±3,6	16	26,8±5,7
Fəhlələr	31	20,8±3,3	18	19,2±5,0
Tələbələr	12	7,6±2,1	6	9,2±3,3
Təhsili:				
Natamam	4	2,5±0,6	5	7,5±4,2
Orta	51	33,9±5,2	19	33,3±7,4
Orta-xüsusi	41	27,2±2,2	15	25,0±6,8
Natamam ali	12	8,4±2,3	4	6,2±3,8
Ali	42	28,0±2,2	17	28,0±7,0
Doğuşların təkrarlığı:				
İlk dəfə doğanlar	78	52,0±4,0	31	52,0±6,4
Təkrar doğanlar	72	48,0±4,0	29	48,0±6,4
Ağırlaşmış mamalıq anamnezi	101	67,6±3,8	38	63,2±6,2
Anamnezdə ginekoloji xəstəliklər	87	58,0±4,0	37	61,6±6,2
Doğuşların hestasiya müddətləri:				
Vaxtından qabaq	7	4,4	3	4,8
Vaxtında	137	90,4±2,3	53	88,8±4,0
Gecikmiş	6	5,2	4	6,4

Əsas qrupun zahı qadınlarının orta yaş həddi - 26,7±0,5 yaşa bərabər olmuş və kontrol qrupun zahı qadınlarının orta yaş həddindən dürüst fərqlənməmişdir – 24,8±0,5 yaş (p> 0,05).

Hər iki qrupun sosial tərkibində evdar qadınlar üstünlük təşkil etmişlər (müvafiq olaraq 44,0±4,0% və 44,8±6,4%, t=14,88; p<0,001). Əksər hallarda onların arasında müvəqqəti işləməyənlər də vardır. Qulluqçuların xüsusi çəkisi yüksək olmuşdur: əsas qrupda 27,6±3,6% və kontrol qrupda 26,8±5,7% (t=9,32; p<0,001). Əsas qrupda fəhlələr 20,8±3,3%, müqayisə qrupunda - 19,2±5,0% (t=10,38; p<0,001) təşkil etmişlər. Tələbələrin xüsusi çəkisi əsas qrupda 7,6±2,1% və kontrol qrupda 9,2±3,3% (t=0,47; p>0,05) təşkil etmişdir (Cədvəl 1).

Müqayisə olunan qruplarda ilk dəfə doğan və təkrar doğanların sayı bərabər olmuşdur. Ağırlaşmış mamalıq anamnezi olan zahı qadınların tezliyi əsas qrupda 67,6±8,8%, müqayisə qrupunda -63,2±7,6% (t=2,22; p<0,05) təşkil etmişdir. Hər iki qrupda zahı qadınların anamnezində ginekoloji xəstəliklər eyni nisbətdə olmuşdur. Belə ki, əsas qrupda bu göstərici 58,0±5,5%, kontrol qrupda - 61,6±7,6% təşkil etmişdir.

Qadınların böyük hissəsində doğuşlar vaxtında olmuşdur: əsas qrupda 90,4±3,3% və kontrol qrupda - 88,8±5,1% (t=0,42; p>0,05). Cədvəl 1-dən göründüyü kimi, əsas qrupda və kontrol qrupda sadalanmış göstəricilərin səviyyələri üzrə əhəmiyyətli fərqlər aşkar edilməmişdir (t=0,62; p>0,05).

Ekstragenital xəstəliklərin (EGX) səviyyəsi hər iki qrupda eyni olmuşdur. Belə ki, əsas qrupda 1 hamilə qadına 1,6 EGX, kontrol qrupda isə 1,5 EGX düşmüşdür. Hamiləliyin gedişi hər iki qrupda eyni tezliklə hamiləliyin pozulması təhlükəsi, kolpit, KRVİ, xronik pielonevritin kəskinləşməsi və s. ilə ağırlaşmışdır. Hər iki qrupun hamilə qadınları təbii doğuş yolları vasitəsilə doğmuşlar. Doğuşu qıcıqlandırma və doğuşu stimulyasiyanın aparılmasının tezliyində də həmçinin qruplar arasında dürüst fərqlər olmamışdır. Əsas qrupda bu göstərici 10,0±1,9%, kontrol qrupda - 12,8±2,1% (t=1,23; p>0,05) təşkil etmişdir.

Beləliklə, hamilə qadınlara tibbi yardımın inkişafını təhlil edərək qeyd etmək olar ki, mamalıq şöbələrində qadınların və yenidoğulanların cəmlənməsi onların həyatının və sağlamlığının saxlanması üçün bütün tibb arsenalının işlədilməsi imkanının genişlənməsi ilə yanaşı, qadınların və yenidoğulanların doğum evlərində dövr edən davamlı hospital mikroflorası ilə yoluxma təhlükəsini artırmışdır ki, bu da doğuşdan sonrakı xəstəxanadaxili infeksion xəstələnmənin səviyyəsinin yüksəlməsində əks olunmuşdur. Doğuşdan sonrakı infeksiya ilə mübarizə zamanı qulluq edilən qrupların yoluxma səviyyəsinə görə bölünməsi, həmçinin onların çox vaxt hospital infeksiyasının rezervuarı və infeksiya mənbəyi sayılan tibbi heyətlə təmasdan qorunmasının zərurəti yaranmışdır. Təşkilati cəhətdən bu, doğum stasionarlarında qadınlara və uşaqlara qulluq formalarının dəyişməsinə gətirib çıxarmışdır. Məsələn, əvvəllər doğuşdan sonrakı dövrdə tətbiq olunan ananın və uşağın birlikdə olması formasının yenidən bərpa edilməsi tibbi yardımın bütün həjmdə işlədilməsi ilə yanaşı, uşaq üçün daha əlverişli mikroiqlim təmin edə bilər.

ƏDƏBİYYAT

1. Алексеев В.А. Опыт работы родильных домов при условии совместного пребывания матери и ребенка // Здравоохранение Российской Федерации, 2005, № 9 , с. 33-35

2. Видстром Анн-Марие. Грудное вскармливание и взаимодействие между матерью и ребенком. // Санкт-Петербургские врачебные ведомости, 2007, №7, с. 3-38

3. Герасимович Г.И., Аристова Г.М., Лосюк К.А. Опыт работы по профилактике гнойно-септических заболеваний родильниц и новорожденных // Акушерство и гинекология , 2005, № 4, с. 34-36

4. Jones E.G., Matheny R.J. Relation ships between infant feeding and exclusion rate from child care because of illness // Journ. Amer.. Diet. Assoc. , 2007, v.93, p.809- 811

5. Sowwers M., Randolph J., Shapiro B.A. prospective study of bone of density and pregnancy after an exstendent period of lactation with bone loss // Obst. Qyn.,2006, v.85, № 2, p. 285-289

6. World Health Organization. Coverage of maternity care, a listing of available information – Geneva, Switzerland: maternal and newborn health motherhood. WHO/RHT/MSM/2007.

РЕЗЮМЕ

ОСОБЕННОСТИ ТЕЧЕНИЯ ПОСЛЕРОДОВОГО ПЕРИОДА И СОСТОЯНИЕ ЗДОРОВЬЯ РОДИЛЬНИЦ В ЗАВИСИМОСТИ ОТ ПРИНЦИПОВ ПОСЛЕРОДОВОГО ОБСЛУЖИВАНИЯ

Н.Т.Магеррамова

Для успешного решения задач нашего исследования проведен анализ течения послеродового периода у 210 родильниц, из которых 150 составили основную группу и 60– группу контроля . В основную группу вошли родильницы, находившиеся в родильном стационаре совместно и в практику их обслуживания были внедрены новые перинатальные технологии. Группу сравнения составили родильницы и их новорожденные с традиционной практикой перинатального обслуживания. Анализируя развитие родовспоможения, можно отметить, что концентрация в акушерских отделениях женщин и новорожденных, наряду с расширением возможностей использования всего арсенала медицины для сохранения их жизни и здоровья, увеличила опасность их инфицирования устойчивой госпитальной микрофлорой, циркулирующей в роддомах, что отразилось на повышении уровня внутрибольничной инфекционной послеродовой заболеваемости. В борьбе с послеродовой инфекцией возникла необходимость разделения контингентов обслуживания по уровню инфицированности, а так же ограждения их от контактов с персоналом, зачастую являющимся резервуаром и источником госпитальной инфекции. Организационно это привело к изменению форм обслуживания женщин и детей в родильных стационарах, в частности, к возрождению ранее практиковавшейся формы совместного пребывания матери и новорожденного в послеродовом периоде, которая может обеспечить для ребенка более благоприятный микроклимат, наряду с использованием всего объема медицинской помощи.

SUMMARY

FEATURES OF CURRENT OF THE POSTNATAL PERIOD AND A STATE OF HEALTH LYING-IN WOMAN DEPENDING ON PRINCIPLES OF POSTNATAL SERVICE

N.T.Maqerramova

For the successful decision of problems of our research the analysis of current of the postnatal period at 210 lying-in woman of which 150 have made the basic group and 60-group of the control is lead. In the basic group have come lying-in woman, taking place in a maternity hospital in common and in practice of their service have been introduced new prenatal technologies. Group of comparison have made lying-in woman and their newborns with traditional practice prenatal service. Analyzing development of obstetric aid, it is possible to note, that concentration in obstetrics branches of women and newborns, alongside with expansion of opportunities of use of all arsenal of medicine for preservation of their life and health, has increased their danger infected the steady hospital micro flora circulating in maternity homes that was reflected in increase of a level of intrahospital infectious postnatal disease. In struggle against a postnatal infection there was a necessity of division of contingents of service on a level infected, and as their protections from contacts to the personnel frequently being the tank and a source of a hospital infection. Organizational it has led to change of forms of

service of women and children in maternity hospitals, in particular, to revival before the practicing form of joint stay of mother and newborn in the postnatal period which can provide more favorable microclimate for the child, alongside with use of all volume of medical aid.

Daxil olub:24.06.2011

QANZ OSTEOTOMIYASINDAN ƏVVƏL VƏ SONRA APARILAN RENTGENOLOJI MÜAYINƏLƏRIN XÜSUSIYYƏTLƏRI HAQQINDA

A.Q.Qəhrəmanov
Elmi-Tədqiqat Travmatologiya və Ortopediya institutu, Bakı

Bud-canaq oynağının displaziyası sirkə kasasının morfologiyasının və onun mövqeyinin pozulması və bunun nəticəsi olaraq budun başının örtülməsinin defisiti ilə səciyyələndirilir. Bu zaman cox vaxt bud-canaq oynağı mərkəzi bayıra yerdəyişmış vəziyyətdə olur. Sirkə kasasının yük daşıyan hissəsinin azalması və bud-canaq oynağı mərkəzinin xaricə yerdəyişməsi nəticəsində oynağa düşən yük artır və bu da öz növbəsində artroza gətirib cıxardır [8,9].

Bud-canaq oynağının displaziyalarının müalicəsi ücün bir cox əməliyyatlar təklif edilmişdir [1,11,12,16]. Bu gün displastik asetabulumun reoriyentasiyası ücün ən populyar əməliyyat Qanz periasetabulyar osteotomiyasıdır [3]. Bu əməliyyatın digər təklif edilmiş əməliyyatlardan bir cox üstünlükləri vardır. 1. Bir kəsikdən bir necə osteotomiya imkanı. 2. Arxa divarın sınmamış qalması nəticəsində xəstələrin əməliyyatdan 1-2 gün sonra ayaga hissəvi yük verərək gəzməsi və hec bir əlavə external fiksasiyaya ehtiyacın qalmaması. 3.Çanağın həqiqi formasının qorunması nəticəsində qadın xəstələrdə vaginal uşaq doğmasının əngəllənməməsi. 4. İnferior gluteal arteriyanın zədələnməməsi nəticəsində asetabulyar fragmentin qan dövranının pozulmaması. 5. Sümük osteotomiyaları proksimaldan aparıldığı ücün əldə olunmuş asetabulyar fraqmentin mobilliyi bud başının ön və xaricə örtülməsini və oynaq mərkəzinin medializasiyasını əldə etməyə imkan verir.

Displastik oynağın cərrahi müalicəsinin müvəffəqiyyəti ücün əməliyyatdan əvvəl dəqiq diaqnozun qoyulması vacib şərtdir. Diaqnozun qoyulmasında rentgenoloji müayinə zamanı hesablanan parametrlər xəstəliyin təyin edilməsinə, təsnifatına və cərrahi əməliyyat növünün seçilməsinə kömək edir. Rentgenoloji müayinə adətən standart ön-arxa, yan və sirkə kasasının arxa və ön hissələrinin örtülməsini ön planda təyin etməyə imkan verən Lequesne və de Seze tərəfindən (1961) təklif edilən "falş profile" deyilən metodla aparılır. Bu vaxt xəstə ayaq üstə dayanır, xəstə tərəf irəlidə və canaq 65 dərəcə fırlanmış vəziyyətdə olarkən rentgen aparatının tubusu qarşı tərəfdə olur.

Cədvəldən də göründüyü kimi SDX olan 172 kişi xəstəsi üzrə 16-30 (57 xəstə-33,14%) (p<0,000) və 41-50 (42 xəstə-24,42%) (p<0,037) yaş qruplarında xəstə sayları daha çox müşahidə edilmişdir. SDX olan 60 qadın xəstəsi üzrə də 16-30 (19 xəstə-31,67%) (p<0,000) və 41-50 (25 xəstə-41,67%) (p<0,004) yaş qruplarında xəstə sayları daha çox olmuşdur. Eyni zamanda alınan bu göstəricilər ümumi xəstə sayında da təkrar olunmuşdur. Belə ki, SDX olan ümumi 232 xəstə üzrə 16-30 (32,76%) (p<0,000) və 41-50 (67 xəstə-28,88%) (p<0,003) yaş tiplərində daha yüksək sayda xəstə qeydə alınmışdır. Alınan bütün bu statistik dürüstlük nəticələri müsbət olaraq dəyərləndirilmişdir.

Digər bir mühüm məqam olaraq xəstələrin yaş səviyyələrinin qruplar üzrə orta ədəd (M) və nisbi xətalarının (m) hesablanmasdır və bu aşağıdakı cədvəldə təsvir olunmuşdur.


Cədvəl 3

Xəstələrin yaş səviyyələrinin orta rəqəm və nisbi xəta üzrə bölgüsü

Tədqiqat tipləri	Xəstələrin yaş qrupları						
	<15	16-30	31-40	41-50	51-60	61-70	>71
	M±m	M±m	M±m	M±m	M±m	M±m	M±m
Kişi	8±1,41	22,42±4,64	36,7±2,64	45,76±3,89	55±2,97	67±3,16	75,6±4,3
Qadın	-	24,05±3,04	35,87±2,7	45,32±2,44	54,5±3,27	-	0
Ümumi	10±3,6	22,83±4,4	36,5±2,64	45,6±3,41	54,9±2,98	67,1±3,0	75,6±4,3

Tədqiqat işimizdə xəstələrin qan qrupunun SDX-nin formalaşmasındakı risk ehtimalının tədqiqi həyata keçirilmiş və bu təhlil bir neçə diaqramda şərh edilmişdir.


İlk olaraq aşağıdakı diaqramda SDX olan xəstələrdə qan qrupunun tiplərinə görə paylanma səviyyəsi təsvir edilmişdir. Eyni zamanda aparılan bu bölgü əsasında insanın qan qrupunun SDX-nin formalaşmasında risk ehtimalı haqda da müəyyən fikirlər ortaya çıxmışdır.



Şək. 1. Bütün xəstələr üzrə qan qrupunun ümumi bölgüsü

Tədqiqat qrupuna daxil SDX olan 232 xəstəyə nəzərən, I qan qrupu olan xəstələr digər qan qrupları ilə müqayisədə say etibari ilə daha çoxdur-109 xəstə (46,98%). İkinci sırada II qan qrupu olan xəstələr yer almaqdadır-83 xəstə (35,77%) (p<0,018). III və IV qan qrupu olan xəstələr isə əvvəlki qan qrupları ilə müqayisədə az hallarda qeydə alınmışdır (p>0,27 və p>0,706). Buradan da belə bir fikir ortaya çıxır ki, SDX xüsusilə I qan qrupu olan insanlarda daha yüksək risk təşkil edir. Alınan bu nəticə statistik olaraq öz təsdiqini tapmışdır (p<0,004).


Digər bir bölgü əsasında SDX olan xəstələrdə hər bir qan qrupunun rezus faktorları da daxi olmaqla təhlili həyata keçirilmişdir.



Şək. 2. Bütün xəstələr üzrə rezus faktoru ilə birlikdə qan qrupunun ümumi bölgüsü

Araşdırmadan da göründüyü kimi tədqiqat qrupuna daxil SDX olan 232 xəstəyə nəzərən, I Rh^+ qan qrupu olan xəstələr digər qruplarla müqayisədə say etibari ilə daha çoxdur-105 xəstə (45,26%). İkinci sırada II Rh^+ qan qrupu olan xəstələr yer almaqdadır-77 xəstə (33,19%) ($p<0,018$). III (Rh^+ və Rh^-) və IV (Rh^+ və Rh^-) qan qrupu olan xəstələr isə əvvəlki qan qrupları ilə müqayisədə az hallarda müşahidə olunmuşdur ($p>0,27$ və $p>0,706$). Beləliklə, SDX xüsusilə I Rh^+ qan qrupu olan insanlarda təsadüflük ehtimalına görə daha yüksək risk təşkil edir. Alınan bu nəticə statistik olaraq öz təsdiqini tapmışdır ($p<0,004$).


SDX olan xəstələrin qan qruplarının bölgüsü eyni zamanda cinslərə görə də aparılmışdır. Belə ki, kişi xəstələri arasında SDX-nin yayılma tendensiyasının qan qrupu ilə əlaqəliliyi aşağıdakı diaqramda təsvir olunmuşdur.



Şək. 3. Kişi xəstələrində rezus faktoru ilə birlikdə qan qrupunun bölgüsü

Tədqiqat işimizdən də göründüyü kimi tədqiqat qrupuna daxil SDX olan 172 kişi xəstəsinə nəzərən, I Rh^+ qan qrupu olan xəstələr digər qruplarla müqayisədə say etibari ilə daha çoxdur-74 xəstə (43,02%). İkinci sırada II Rh^+ qan qrupu olan xəstələr yer almaqdadır-61 xəstə (35,46%) ($p<0,018$). III (Rh^+ və Rh^-) və IV (Rh^+ və Rh^-) qan qrupu olan xəstələr isə əvvəlki qan qrupları ilə müqayisədə az sayda müşahidə edilmişdir ($p>0,27$ və $p>0,706$). Beləliklə, SDX xüsusilə I Rh^+ qan qrupu olan insanlarda təsadüflük ehtimalına görə daha yüksək risk təşkil edir. Alınan bu nəticə statistik olaraq öz təsdiqini tapmışdır ($p<0,004$).

Qadın xəstələri arasında SDX-nin yayılma səviyyəsinin qan qrupu ilə əlaqəliliyi aşağıdakı diaqramda təsvir olunmuşdur.



Şək. 4. Qadın xəstələrində rezus faktoru ilə birlikdə qan qrupunun bölgüsü

Araşdırmadan da göründüyü kimi tədqiqat qrupuna daxil SDX olan 60 qadın xəstəyə nəzərən, I Rh^+ qan qrupu olan xəstələr digər qruplarla müqayisədə say etibari ilə daha çoxdur-31 xəstə (51,67%). İkinci sırada II Rh^+ qan qrupu olan xəstələr yer almaqdadır-16 xəstə (26,67%) ($p<0,018$). III (Rh^+ və Rh^-) və IV (Rh^+ və Rh^-) qan qrupu olan xəstələr isə əvvəlki qan qrupları ilə müqayisədə az hallarda müşahidə olunmuşdur ($p>0,27$ və $p>0,706$). Beləliklə, SDX xüsusilə I Rh^+ qan qrupu olan insanlarda təsadüflük ehtimalına görə daha yüksək risk təşkil edir. Alınan bu nəticə statistik olaraq öz təsdiqini tapmışdır ($p<0,004$).

NƏTİCƏLƏR. 1.Kişi qadın nisbəti 2,87:1. 2.SDX ümumi və cinslər üzrə 16-30 və 41-50 yaş qruplarında hiss olunacaq dərəcədə çox müşahidə edilmişdir. 3.Xəstələrə ümumi və cinslər üzrə baxdıqda (ümumi 232 (172 kişi, 60 qadın)) xüsusilə I Rh^+ qan qrupu olan insanlarda təsadüflük

ehtimalına görə SDX daha yüksək risk təşkil etmişdir. Alınan bu nəticə statstik olaraq öz təsdiqini tapmışdır (p<0,004).

ƏDƏBİYYAT

1. Pearle M.S. Prevention of nephrolithiasis // Curr Opin Nephrol Hypertens, 2001, v.10, p.203-9.
2. Wilkinson H. Clinical investigation and management of patients with renal stones // Ann Clin Biochem., 2001, v.38, p.180-7.
3. Sakuno M.L.D., Akimoto L.S., Mereles E.A.L. et al Contribution of the laboratory for clinical analysis for the metabolic diagnosis of renal lithiasis // Ver Bras Anal Clin. In Portuguese, 1994, v.26, p.77-80.
4. Menon M., Resnick M.I. Urinary lithiasi: etiology, diagnosis and medical management / Campbell MF, Walsh PC, Retik AB (8th). Campbell^s Urology. Philadelphia: Saunders, 2002, p. 3229-3305.
5. Vesely K.T. Relationship between ABO and Rh (D) blood groups and urolithiasi //J. Urol.Nefrol, 1970, v.13, p.28
6. Charzewski T., Musierowicz A., Wieteska A. Differences in ABO blood group distribution in patients with certain urinary tract diseases (in Polish) // Pol. Tyg. Lek., 1972, v.20, p.741
7. Niemirowicz J. The analysis of cases for some age groups in patients being under treatment of Depertment of Urology of Medical Academy in Gdansk (in Polish) // Urol. Polska, 1978,.v.31, p.17
8. Lenko J., Wochna Z., Bartniczak Z. et al ABO blood group distribution in patients with malignant renal tumour (in Polish) // Biul. WAM, 1977, v.3, p.314
9. Rozanski W., Miekos E., Monita W., Pietraszun R. Distribution of blood groups of the ABO system in patients with urolithiasis // International Urology and Nephrology, 1983, v.15 (4), p. 303-307
10. Caudarella R., Malavolta N., Rizzoli E. et al Idiopathic calcium urolithiasis: genetic aspects // Ann Med Interne (Paris), 1986, v.137(3), p.200-202.
11. Gazymov M.M. ABO blood group and the rhesus classification of urolithiasis patients. Urol Nefrol (Mosk). 1985
12. Aleksandrov V.P., Kuznetsova V.A., Serova L.D. Incidence of ABO and rhesus system antigens in patients with urolithiasis // Sov Med., 1986, v.9, p. 24-28.
13. Steve M.. Population data. Is the RH negative blood type more prevalent in certain ethnic groups?. MadSci Network, 2001
14. WWW.bloodbook.com/world-abo.html. Racial and ethnic distribution of ABO blood types

РЕЗЮМЕ

ЭПИДЕМИОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ: РОЛЬ ГРУППА КРОВИ В ОБРАЗОВАНИИ МОЧЕКАМЕННЫХ ЗАБОЛЕВАНИЙ У НАСЕЛЕНИЯ ШЕКИНСКОГО РАЙОНА

Р.Т.Гусейн-заде

Во ряде эпидемиологических исследованиях была отмечена роль группа крови в образовании МКБ. Но данное заключение не нашло своего подтверждения с точки зрения науки. В наши исследования была включена часть населения Шекинского района, которым с диагнозом МКБ была назначено обследование и лечение в стационарном режиме за 2007-2010 (до месяца мая) годах. Число больных 232, из них 172 (74,14% мужчины), 60 (25,86% женщины). Соотношение между мужчинами и женщинами 2,87:1 и общий средний возраст был 39,68 + 18,83. С точки зрения статистики среди больных мужчинами и женщинами выявлены различия по возрастным особенностям. Самый высокий уровень заболеваемости МКБ у больных приходится на возрастные группы 16-30 и 41-50 лет. По Шекинскому району среди больных МКБ превалировали лица со О (I) группной крови.

SUMMARY

EPIDEMIOLOGICAL RESEARCH: THE ROLE OF BLOOD GROUP IN URINARY STONE DISEASE IN SHAKI POPULATION

R.T.Huseyzade

Previous epidemiological works have reported that blood group is a risk factor for urinary stone disease. However, the effect of increasing degrees blood group on stone formation has yet to be defined. We evaluated claims from a 4 year period 2007 to 2010 (until the month of may) in Shaki population to identify subjects diagnosed with or treated for urinary stone disease. Our study groups consist of 232 patients, 172 (74.14%) males and 60 (25.86%) females. The male to female ratio was 2.87:1. The mean age at onset of urolithiasis was 39.68±18,83 years. There was statistically significant difference in age at onset of urolithiasis among male and female. In the age presentation peak incidence was between 16-30 and 41-50 years in male and female. An O (I) blood group is associated with an increased risk of urinary stone disease-in shaki population.

Daxil olub:18.03.2011

AZƏRBAYCANDA YAYILAN QANSORAN AGCAQANADLARIN FAUNASI (1771-1992)

Ə.H.Bağırov, M.İ.Əliyev
Akademik V.Axundov ad. Milli ET Tibbi Profilaktika İnstitutu, Bakı

1902-1992-ci illərdə Respublikamızın Lənkaran, Kür-Araz, Böyük və Kicik Qafqaz dağları ərazisində yayılan ağcaqanadların faunası ətraflı öyrənilmişdir. Bu müddət də qan soran ağcaqanadların yumurta qoyub çoxaldıqları yerlərdən (göl və gölməcələrdən, ağacların koğuşlarından) sürfələr və qanadlı ağcaqanadlar sığınacaqlardan (təbiətdə bitgi örtüyünün arasından, yuvalardan, binalardan və s. yerlərdən) yığılaraq laboratoriyada mikroskop altında növləri və yarımnövləri təyin edilmişdir. Eyni zamanda ağcaqanadların növlərinin və yarm növlərinin təyinində onların yumurtalarından da, istifadə edilmişdir.

1771-1976-cı illərdə Azərbaycanda yeni tapılan qansoran ağcaqanadlar barədə monaqrafiyalar və çoxlu miqdarda məqalələr dərc olunmuşdur [1,2,4,5]. 1771-ci ildə P.S.Pallas Respublikamızda iki növ qansoran ağcaqanadların olması barədə məlumat vermişdir. Belə ki, o tapdığı ağcaqanadların birini *Hyrkan* aqcaqanadı, digərini isə *Culex caspius* adlandırmışdır [1]. Sonra bu ağcaqanadlar *Anopheles hyrcanus* və *Aedes caspius* növləri kimi təsnifata daxil edilmişdir.

1902-ci ildən sonra Azərbaycanda malyariya xəstəliyi və bu xəstəliyi yayan ağcaqanadlar barədə geniş elmi-tədqiqat işləri aparılmışdır. Belə ki, Rusiyada təşkil olunmuş Piraqov cəmiyyətinin bir qrup görkəmli tədqiqatcı həkimlər P.H. Saxarovin rəhbərliyi ilə Respublikamızın rayonlarında malyariya xəstəliyini və bu xəstəliyin keciricilərini öyrənmək məqsədi ilə elmi-tədqiqat işləri aparmışlar. V.V.Favrı Yevlax rayonunda tədqiqat işləri aparan zaman ilk olaraq *Anopheles sacharovi* ağcaqanad növünü aşkar etmişdir [7]. Sonrakı illərdə Azərbaycanda yayılan ağcaqanadların faunası barədə Q.T.Lintrop, İ.Ə.Axundov, S.Y.Veysiq, Q.K.Trofimov və b. məlumat vermislər. Aparılan tədqiqatların nəticəsi olaraq İ.Ə.Axundov 1932-ci ildə Azərbaycanda 4 cinsə mənsub olan 15 növ ağcaqanadların faunası barədə məlumat vermişdir. Bunlar aşağıda göstərilir: *Anopheles* cinsi – *Anopheles maculipennis, An.hyrcanus, Anopheles claviger, Anopheles plumbeus*; *Culex* cinsi – *Culex pipiens, Culex hortensis, Culex theileri, Culex mimeticus*; *Culizeta* cinsi – *Culizeta annulata, Culizeta lonqiareolata*; *Aedes* cinsi – *Aedes dorsalis, Aedes vexsans*.

İ.Ə.Axundov 1940-cı ildə dərc etdirdiyi "Малярия и *Culicidae* в Азербайджане" monoqrafiyasında 6 cinsə mənsub olan 26 növ qansoran ağcaqanadın Azərbaycanda yayılmasını göstərmişdir. Ancaq nədənsə 1934 cü ildə O.Ə.Veysiq tərəfindən Lənkaran rayonunun ərazisində aşkar etdiyi *Orthopodomia pulxripalpis* ağcaqanadı barədə məlumat verilməmişdir.

H.Ə.Bağırov Balakən, Zakatala və Qax rayonlarının ərazisində yığdığı ağcaqanad sürfələrini və qanadlı ağcaqanadların növlərini təyin edən zaman 6 cinsə mənsub olan 17 növ ağcaqanad aşkar etmişdir [3]. H.Ə.Bağırov ilk dəfə olaraq Böyük Qafqazda Qusar rayonu ərazisində 1600 metir hündürlükdə olan su durğunluğundan Aedes cataphylla ağcaqanadının sürfələrinin olmasını müəyyən etmişdir [2].

V.N.Danilov, Y.S.Kupriyanova və A.S.Aksiyonovanın Lənkaran rayonun ərazisindən yığdıqları ağcaqanad sürfələri arasından ilk dəfə olaraq *Aedes versicolor* ağcaqanadının sürfələrini aşkar etmişdir [4].

1960-1992-ci illərdə H.Ə.Bağırov, Ə.Y.Qiyasov və M.İ.Əliyev Zərdab,Ucar və Sabirabad rayonları ərazisində olan su durğunluqlarında, təbiətdə olan sığınacaqlarda və binalarda aparılan müayinə zamanı *An.pulcherrimus* ağcaqanadı tapılmamışdır. Ancaq N.C.Namazovun məlumatına görə guya o bu ağcaqanadı tapmışdır [6]. Bu məlumat həqiqətə uğun deyil. N.C.Namazov Respublikamızın ərazisində tutduğu ağcaqanadların ilk dəfə aşkar edən müəlliflər haqqında məlumat verir. Onun yığdığı 25 növ və 2 yarım növü ilk dəfə Respubilikamızda aşkar edən 18 müəllifi səhv göstərmişdir [6].

Cədvəl

Azərbaycan Respublikasının ərazisindən qansoran ağcaqanadları (Diptera, Culisidae) ilk dəfə aşkar edən müəlliflər və ağcaqanadların təbii bölgələrdə yayılması (1771-1992)

Sıra sayı	Ağcaqanadların cinsləri və növləri	İlk olaraq kimin tərəfindən aşkar olunub və il	Təbii bölgələr			
			Böyük Qafqaz	Kiçik Qafqaz	Kür-Araz	Lənkəran
	I. Anopheles cinsi					
1	An.maculipennis Meis	Lintrop, 1923	+	+	-	+
2	An.sacharovi Favr	Favr, 1903	+	+	+	+
3	An.subalpinus Grass	Lintrop, 1926	-	-	-	+
4	An.superpictus Grass	Lintrop, 1926	+	+	+	+
5	An.hircanis Pall.	Pallas, 1771	+	+	+	+
6	An.plumbeus Stef.	Lintrop, 1925	+	+	-	+
7	An.claviger Linn	Vişnevski, 1925	+	+	+	+
	II. Aedes cinsi					
8	Ae.caspius Pall.	Axundov, 1935	+	+	+	+
9	Ae.vexans Mg.	Axundov, 1929	+	+	+	+
10	Ae.geniculatus Ol.	Trofimov, 1937	+	+	-	+
11	Ae.pulchritarsis Ron.	Qutseviç, Qurov,1931	+	+	-	+
12	Ae.cataphylla Duc.	Bağırov, 1963	+	-	-	-
13	Ae.dersalis Mg.	Axundov, 1929	-	-	-	-
14	Ae.versicolor Dob.	Danilov, 1976	-	-	-	+
	III. Culex cinsi					
15	Cx.modestus F.	Qutseviç, Qurov, 1931	+	+	+	+
16	Cx.mimeticus N.	Trofimov, 1931	+	+	+	+
17	Cx.pipiens Hin	Axundov, 1936	+	+	+	+
18	Cx.theileri Th.	Axundov, 1936	+	+	+	+
19	Cx.tritaeniorhynchus G.	Trofimov, 1934	+	-	+	+
20	Cx.hortensis F.	Axundov, 1929	+	+	+	+
21	Cx.territans W.	Axundov, 1930	+	+	+	+
	IV. Culiseta cinsi					
22	Cs.annulata S.	Budulin, 1926	+	+	+	+
23	Cs.longieorolata	Axundov, 1929	+	+	+	+
24	Cs.morsitan T.	Veysiq, 1934	-	-	-	+
25	Cs.fumipennis S.	Axundov, 1929	-	-	-	+
	V. Uranotaenia cinsi					
26	Ur.unguiculata Ed.	Trofimov, 1935	+	+	+	+
	VI. Mansonia cinsi					
27	Mn.richirardii F.	Qutseviç, Qurov, 1931	+	+	+	+
	VII. Orthopodomyia					
28	O.pulchripalpis R.	Bağırov, 1963	+	-	-	-

Azərbaycanda agcaqanadların növlərini və yarım növlərini ilk dəfə aşkar edən və Respublikamızın bölgələri üzrə yayılması aşağıdakı cədvəldə göstərilir.

Cədvəldən aydın olur ki, Respublikamızın ərazisində 28 növ qan soran ağcaqanad aşkar edilmişdir. Bunlardan 23 növü Böyük Qafqaz dağları, 20 növü Kicik Qafqaz dağları, 17 növü Kür-Araz düzənliyi və 25 növü isə Lənkaran bölgəsi ərazilərdə yayilmışdır. Aşkar olunan 28 növ qan soran ağcaqanadlar 7 cinsə aitdir.Bunlardan *Anopheles* cinsinə 7 növ, *Aedes* cinsinə 7 növ, *Culex* cinsinə 7 növ, *Culiseta* cinsinə 4 növ, *Uranotaenia, Mansonia* və *Orthopodomyia* cinslərinin hər birinə bir növ aiddir.

ƏDƏBİYYAT

1. Ахундов И.А. Малярия и Culicidae в Азербайджане. Баку, 1940, с.3-165.

2. Багиров Г.А. О новом для фауны Закафказья виде комара в Азербайджане (*Ae.catophylla Dyar*) / Труды Азербайджанского НИИ Медицинской Паразитологии и Тропический Медицины им. С.М.Кирова. т.6, Баку, 1969, с.153-155.

3. Багиров Г.А. Обзор кровососущих комаров Алазань-Агричайской долины южного склона Большого Кавказа // Труды Азербайджанского НИИ МП и ТМ им. С.М.Кирова. т.7, Баку, 1969, с.115-123.

4. Данилов В.Н. Первая находка в СССР комара *Aedes* (*Finlaya*) versicolor Barraud (*Diptera, Culicidae*), описание его самки и личинки стадии // Мед.паразитология и тропическая медицина, М., 1976, № 5,с.82-85.

5. Киясов А.Я. Малярийные комары Азербайджана и их географическое распространение / Материалы первой Республиканской конференции по медицинской географии. Баку, 1970с.62-64.

6. Намазов Н.Дж. Изучение эффективности некоторых экологических безопасных препаратов против массовых видов комаров семейства *Culicidae* в условиях Азербайджана. Автореф. дисс. ... к.б.н. Баку, 1991, с.3-23.

7. Фавр В.В. О работе Евлахской экспедиции по изучению малярии и меры борьбы с нею / Тр. по климатологии, 1903.

РЕЗЮМЕ

ФАУНА КРОВОСОСУЩИХ КОМАРОВ, РАСПРОСТРАНЕННЫХ В АЗЕРБАЙДЖАНЕ (1771-1992)

Г.Г.Багиров, М.И.Алиев

Авторы представили в статье впервые имена открывателей обнаруженных в Азербайджанской Республике видов и подвидов кровососущих комаров и представили информацию о 28 видах, относящихся к 7 родам комаров, распространенных в 1771-1992 годы на территории Республики. Наряду с этим дана информация о кровососущих комарах, распространенных в зонах гор Большого и Малого Кавказа, Кюр-Араксинской низменности и Ленкоранской области.

SUMMARY

THE FAUNA OF BLOOD-SUCKING MOSQUITO SPREADED IN AZERBAIJAN (1771-1992)

G.G.Bagirov, M.I.Aliyev

The authors presented a papers about the names of species and subspecies of blood-sucking mosquitoes spreaded for the first time found in the Republic of Azerbaijan and provided information about 28 species belonging to 7 general types of mosquitoes, common in 1771-1992 on the territory of the Republic. At the same time was giving the information about blood-sucking mosquitoes, common in areas of mountains of the Greater and Lesser Caucasus, the Kura-Araks lowland and Lankaran region.

Daxil olub:06.05.2011

LOKOMOTIV DEPOSUNDA ÇALIŞANLARIN SAĞLAMLIĞININ MÜASIR SƏCIYYƏLƏRI

H.Ş.Həsənov

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı

Dəmiryolçuların sağlamlığının mühafizəsi ilk növbədə onların xəstəliklərinin adekvat müalicəsi və profilaktikasının təşkili kimi prioritet sahəni əhatə edir [2,4,7]. Ən çox diqqəti cəlb edən dəmiryolçu peşələrindən biri lokomotiv maşinist peşəsidir. Bu peşə fəaliyyəti üçün xüsusi sağlamlıq meyarlarına cavab verən şəxslər yararlı hesab edilir və onların sağlamlığına mütəmadi nəzarət sistemi mövcuddur [2,3]. Azərbaycan dəmir yolu sistemində də lokomotiv deposu işçilərinin, xüsusən maşinist və maşinist köməkçilərinin sağlamlığının monitorinqi ciddi, tibbi-təşkilati məsələ hesab edilir və mütəmadi aparılır. Buna baxmayaraq lokomotiv deposunda işləyənlərin sağlamlığının müasir səciyyələri və xüsusiyyətləri barədə sistemləşdirilmiş elmi məlumatlar yoxdur. Tədqiqatımızın MƏQSƏDI qeyd edilən aspektdə reprezentativ nəticələrin əsaslandırılması olmuşdur.

TƏDQIQATIN MATERIALLARI VƏ METODLARI. Tədqiqat işində müşahidə vahidi kimi Biləcəri lokomotiv deposunun işçisi qəbul edilmiş, ucdantutma metodla bütün əməkdaşların ambulator kartları (1450) təhlil edilərək dəqiqləşdirilmiş (son) diaqnozlara əsasən müraciət zamanı qeydə alınmış ilkin və ümumi xəstəliklər barədə məlumatlar toplanmışıdr. İşçilərin kompleks profilaktik müayinəsini təşkil edib onlarda olan xroniki xəstəliklər aşkar edilmişdir. Bütün nozoloji formalar Xəstəliklərin Beynəlxalq Təsnifatların (10-cu baxılış) sinifləri üzrə qruplaşdırılmış və tezliyi müəyyən edilmişdir.

Alınmış nəticələrin statistik işlənməsində keyfiyyət əlamətlərinin təhlili metodları tətbiq olunmuşdur [5].

ALINMIŞ NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. İlkin ümumi xəstələnmə göstəriciləri 1-ci cədvəldə əks olunmuşdur. Göründüyü kimi ilkin xəstələnmənin səviyyəsi 611,1±12,8‰ təşkil edtmişdir. Bu göstəricinin səviyyəsi neftçi kontingentinin müvafiq göstəricisindən (393,9±1,5‰) xeyli yüksəkdir [1]. İlkin xəstələnmə səviyyəsi tənəffüz orqanları (157,2± 9,6‰), həzm orqanları (79,3±7,1‰), sümük-əzələ sistemi (76,6±7,0‰), qan dövranı sistemi (77,2±7,0‰), sidik-cinsiyyət sis-

temi (61,4±6,3‰), sinir sistemi (47,6±5,6‰), dəri və dərialtı toxumanın patologiyaları (44,1±5,4‰) ilə bağlı nisbətən böyükdür. Digər patologiyaların ilkin xəstələnmədə rolu xeyli kiçikdir.

Lokomotiv deposu işçilərinin ümumi xəstələnmə göstəricisi (1175,9 ±28,5‰) neftçilərin müvafiq göstəricisindən (985,7±0,5‰) statistik dürüst çox olmuşdur, amma onların neftçilərlə müqayisədə xəstələnməsinin nisbi riski (1,6 dəfə), ümumi xəstələnməsinin nisbi riskindən (1,2 dəfə) kəskin fərqlənir. Ümumi və ilkin xəstələnmə bir-biri ilə bağlı olan sağlamlıq meyarlarıdır, onların nisbəti xəstəliklərin xroniki fazaya keçməsini dolayı da olsa əks etdirir. Bu baxımdan lokomotiv deposu işçiləri üçün ümumi xəstələnmə göstəricisinin formalaşmasında əsasən kəskin xəstəliklərin rol oynadığı nəzərə çarpır. Ümumi və ilkin xəstələnmənin səviyyələrinin nisbəti 1,9 təşkil edərək, neftçilərin müvafiq göstəricisindən (2,5) xeyli kiçikdir. Qeyd edək ki, rus alimləri də [6,7] lokomotiv maşinistlərinin (1030‰) və onların köməkçilərinin (722‰) ümumi xəstələnməsi – göstəricisinin yüksək olduğunu müşahidə etmişlər.

Lokomotiv deposu işçilərində ümumi xəstələnmə səviyyəsi əsasən qan dövranı (251,0±11,4‰) sistemi, tənəffüz orqanları (202,8±10,6‰), həzm orqanları (200,0±10,5‰) və sümük-əzələ sistemi (147,6±9,3‰) xəstəliklərinin hesabına formalaşmışdır. Rusiyada lokomotiv maşinistlərinin ümumi xəstələnməsində travmaların rolu çox yüksək olduğu halda (116‰) ölkəmizdə bu göstərici çox aşağı səviyyədədir (3,5‰).

Cədvəl 1

Lokomotiv deposu işçilərinin ilkin və ümumi xəstələnmə səviyyəsi (1000 orta illik işçiyə görə)

Xəstəliklərin Beynəlxalq Təsnifatının sinifləri	İlkin xəstələnmə		Ümumi xəstələnmə	
	sayı	1000 nəfərə görə	sayı	1000 nəfərə görə
Bir sıra infeksion və parazitar xəstəliklər	6	4,1±1,7	6	4,1±1,7
Yenitörəmələr	2	1,4±1,0	4	2,8±1,4
Endokrin sistemi xəstəlikləri, qidalanma və maddələr mübadiləsi pozğunluqları	5	3,5±1,6	15	10,3±2,7
Qan və qanyaradıcı orqanların xəstəlikləri	2	1,4±1,0	6	4,1±1,7
Ruhi pozğunluqlar və davranış dəyişiklikləri	18	12,4±2,9	34	23,5±4,0
Sinir sistemi xəstəlikləri	69	47,6±5,6	138	95,2±7,7
Göz və onun əlavə apratının xəstəlikləri	28	19,3±3,6	36	24,8±4,1
Qulaq və məməvari çıxıntının xəstəlikləri	22	22,1±3,9	59	40,7±5,2
Qan dövranı sistemi xəstəlikləri	112	77,2±7,0	364	251,0±11,4
Tənəffüz orqanları xəstəlikləri	228	157,2±9,6	294	202,8±10,6
Həzm orqanları xəstəlikləri	115	79,3±7,1	290	200,0±10,5
Sidik cinsiyyət sistemi xəstəlikləri	89	61,4±6,3	164	113,1±8,3
Dəri və dərialtı toxumanın xəstəlikləri	64	44,1±5,4	76	52,4±5,9
Sümük-əzələ sisteminin xəstəlikləri	111	76,6±7,0	214	147,6±9,3
Travma və zəhərlənmələr	5	3,5±1,6	5	3,5±1,6
Cəmi	886	611,1±12,8	1705	1175,9±28,5

Beləliklə, lokomotiv deposu işçilərinin ilkin və ümumi xəstələnmə səviyəsinin və onları formalaşdıran nozoloji səbəblərin payı fərqli səciyyələrə malikdir. Bunun işçilərin sağlamlığı ilə bağlılığı şübhəsizdir, amma müraciət motivi olan xəstəliklər sağlamlıq barədə tam təsəvvür yaratmır. Ona görə də kompleks profilaktik müayinələrin nəticələri nəzərə alınmalıdır.

Apardığımız kompleks profilaktik müayinə əsasında müəyyən olunmuşdur ki, lokomotiv deposu işçilərinin az qismi sağlam (2,6%) və praktik sağlam (13,7%) qruplarına aid edilə bilər. Xroniki xəstəliyi olub peşə fəaliyyətinə tam yararlı hesab edilmiş şəxslərin xüsusi çəkisi 82,6% təşkil etmişdir. Həkim komissiyalarının qərarına əsasən bu qrup pasiyentlər dərman müalicəsi də daxil edilməklə bərpa müalicəsinə cəlb olunmalıdır. Müayinə olunanların çox az qismində (1,1%) peşə fəaliyyəti üçün yararsızlığa səbəb olan xroniki xəstəliklər aşkar edilmiş və onların həm tibbi, həm də sosial reabilitasiyası tövsiyə olunmuşdur. Diqqəti cəlb edən odur ki, lokomotiv deposu işçilərinin sağlamlığa görə qruplaşdırılması onların yaşından asılı olmuş, 40 yaşa qədər, 40-49, 50 və yüksək yaşlarda xroniki xəstəliyi olanların xüsusi çəkiləri (müvafiq olaraq: 74,7; 83,2 və 95,3%) bir-birindən fərqlənmişdir.

Lokomotiv deposu işçilərinin kompleks profilaktik müayinəsi zamanı aşkar edilmiş xəstəliklərin tezliyi 2-ci cədvəldə verilmişdir. Göründüyü kimi, göstəricinin ümumi səviyyəsi 3561,2‰-dir və işçilərin yaşından asılı geniş intervalda (2400-6033%) dəyişir. Aşkar edilmiş xroniki xəstəliklərin böyük qismi dişlərin və ağız boşluğu selikli qişasının patologiyalarının daxil edildiyi həzm orqanları xəstəlikləri sinfi ilə bağlı olmuşdur (ümumi toplumda 1171,7‰, 40 yaşa qədər, 40-49, 50 və yüksək yaşlarda isə müvafiq olaraq 1071,7; 1153,2 və 1386,7‰). Lokomotiv deposu işçilərinin aşkar edilmiş xəstəlikləri arasında ikinci yeri qan dövranı sistemi (müvafiq olaraq: 430,3‰ ümumi toplumda, 200,0; 467,7 və 760,0‰ yaş qruplarında), üçüncü yeri sinir sistemi (391,7; 222,6; 361,3 və 753,3‰), dördüncü yeri sümük-əzələ sistemi (337,2; 190,6; 271,0 və 733,3‰) tuturlar. Bu patologiyaların əksəriyyəti lokomotiv deposu işçilərinin peşə fəaliyyəti ilə bağlı ola bilər. Xüsusən sümük-əzələ və sinir sistemləri, göz xəsətliklərinin izafi riski maşinist və maşinist köməkçilərinin üstünlük təşkil etdiyi lokomotiv deposu işçiləri üçün səciyyəvidir.

Cədvəl 2

Lokomotiv deposu işçilərinin kompleks profilaktik müayinəsi zamanı aşkar edilmiş xəstəliklərinin tezliyi (1000 nəfərə görə)

Xəstəliklərin Beynəlxalq Təsnifatının sinifləri	sayı	‰	Yaş qrupları üzrə					
			<40		40-49		50 və çox	
			say	‰	say	‰	say	‰
Yenitörəmələr	14	9,7	—		4	6,5	10	33,3
Endokrin sistemi xəstəlikləri, qidalanma və maddələr mübadiləsi pozğunluqları	298	205,5	82	154,7	104	167,7	112	373,3
Qan və qanyaradıcı orqanların xəstəlikləri	112	77,2	20	37,7	60	96,8	32	106,7
Ruhi pozğunluqlar və davranış dəyişiklikləri	78	53,8	15	28,3	32	51,6	31	103,3
Sinir sistemi xəstəlikləri	568	391,7	118	222,6	224	361,3	226	753,3
Göz və onun əlavə apratının xəstəlikləri	472	325,5	109	205,7	199	321,0	164	546,7
Qulaq və məməvari çıxıntının xəstəlikləri	374	257,9	841	158,5	128	206,5	162	540,0
Qan dövranı sistemi xəstəlikləri	624	430,3	106	200,0	290	467,7	228	760,0
Tənəffüz orqanları xəstəlikləri	124	85,5	18	34,0	44	71,0	62	206,7
Həzm orqanları xəstəlikləri	1599	1171,7	568	1071,7	715	1153,2	416	1386,7
Sidik cinsiyyət sistemi xəstəlikləri	168	115,9	32	60,4	68	109,7	68	226,7
Dəri və dərialtı toxumanın xəstəlikləri	144	99,3	19	35,8	46	74,2	79	263,3
Sümük-əzələ sisteminin xəstəlikləri	489	337,2	101	190,6	168	271,0	220	733,3
Cəmi	5164	3561,2	1272	2400,0	2082	3358,2	1810	6033,3

Beləliklə, kompleks profilaktik müayinə məqsədyönlü təşkil olunduqda işçilər arasında çoxlu sayda xroniki xəstəlik aşkar edilir, onların əksəriyyəti müraciət üçün motivasiya yaratmadığına görə diqqətdən yayınır və vaxtında müalicə olunmurlar. Odur ki, işçilərin vaxtında reabilitasiyası üçün ilk növbədə onların adekvat profilaktik müayinəsi təşkil olunmalıdır. Ədəbiyyatda dəmir yolu işçilərinin reabilitasiyası üçün nümunəvi profilaktika proqramları barədə məlumatlar mövcuddur [2,7]. Hesab edirik ki, lokomotiv deposu işçilərinin profilaktik nümunəsinin yekun sənədlərində həmin proqramların tövsiyəsi əhəmiyyətli ola bilər və müəssisənin vəsaiti hesabına maliyyələşdirilməsi mümkündür.

Beləliklə, Biləcəri lokomotiv deposu nümunəsində içşilərin sağlamlığı barədə aldığımız məlumatlar aşağıdakı nəticələri əsaslandırmağa imkan verir:

– işçilərdə xroniki xəstəliklərin aşkarlanma ehtimalı yüksəkdir və işçilərin sağlamlığının möhkəmləndirilməsi üçün profilaktik tədbirlər həmin xəstəliklərə yönəldilmişdir;

– işçilərin tibb müəssisəsinə müraciət materialları onların sağlamlığı barədə dolğun məlumat bazası yaratmağı kifayət deyildir, mütləq kompleks profilaktik müayinələr aparmaqla xəstəlikləri vaxtında aşkar etmək mümkündür;

– lokomotiv deposu işçilərinin sağlamlığının əsas səciyyəsi on-larda həzm orqanları, qan dövranı, sinir, sümük-əzələ sistemləri və göz patologiyalarının izafi riski ilə bağlıdır.

ƏDƏBIYYAT

1. Джавадов Ф.Г. Организация и пути совершенствования системы медико-санитарного обеспечения нефтяников Азербайджана. Баку, 2006, 2004 с.
2. Леонова Е.С., Азаров А.В. Проблемы профилактики зрительной астении у машинистов локомотивов на железнодорожном транспорте // Здравоохранения Российской Федерации, 2011, №1,с. 48 -52
3. Копейкин Н.Ф., Миляев И.А., Бомблевская К.З. условия труда и заболеваемость работников локомотивных бригад // Здравоохранения Российской Федерации, 2011, №4. с. 63 -64
4. Караевой С.А., Кузнецов Э.С., Мишина Е.С. Анализ медико-профилактических мероприятий по обеспечению безопасности движения поездов // Здравоохранения Российской Федерации, 2011, №4, с. 64 - 65
5. Стентон Г. Медико-биологическая статистика. М., 1999, 459 с.
6. Шеметова Г.Н., Трифонова Е.В. Болезни костно-мышечной системы у железнодорожников // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2006, №4, с. 20 - 22
7. Ульянова А.С., Шеметова Г.Н., Касимов О.В., Коблов В.М. Комплексная профилактика болезней органов дыхания у работников железнодорожного транспорта // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2008, №1, с. 11 - 13

РЕЗЮМЕ

СОВРЕМЕННАЯ ХАРАКТЕРИСТИКА СОСТОЯНИЯ ЗДОРОВЬЯ РАБОТНИКОВ ЛОКОМОТИВНОГО ДЕПО

Г.Ш. Гасанов

Целью работы явилось обобщения материалов заболеваемости по обращаемости комплексных профилактических осмотров работников локомотивного депо. Наблюдение проводилось на базе железнодорожной поликлиники. Установлено, что фактическая частота заболеваемости по обращаемости работников локомотивного депо относительно высока и в ее составе преобладают болезни органов дыхания, системы кровообращения, костно-мышечной системы. При профилактических осмотрах выявлены патологии связанные с профессиональной деятельностью железнодорожников. Считается, что реабилитационные меры следует планировать с учетом материалов о заболеваемости выявленных при профилактических осмотрах.

SUMMARY

THE MODERN CURRENT CHARACTERISTICS OF THE HEALTH OF WORKERS OF THE LOCOMOTIVE DEPOT

Hasanov H.Sh.

The aim of the work was a generalization of materials of complex diseases by uptake of preventive examinations of workers of the locomotive depot. Surveillance was conducted on the basis of the railway clinic. It was is established that the actual incidence of appeal ability locomotive depot workers is relatively high and its composition is dominated by respiratory diseases, circulatory system, musculoskeletal was dominated by respiratory diseases, circulatory system, musculoskeletal system. When preventive examinations revealed pathology associated with professional activities of railway- men. It was believed that rehabilitation measures should be planned taking into account the materials of the diseases identified in preventive examinations.

Daxil olub:20.05.2011

QARACİYƏR EXİNOKOKKOZUNUN AĞIRLAŞMIŞ FORMALARININ KOMPLEKS MÜALİCƏSİNDƏ İNTRAKORPORAL MAQNİT-İNFRAQIRIMIZI LAZER TERAPİYASININ EFFEKTİVLİYİNİN QİYMƏTƏNDİRİLMƏSİ

B.A. Ağayev, M.M.Məmmədov, N.M.Həsənov

A.M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Bakı

Son zamanlar exinokkokozun müalicəsində əhəmiyyətli nailiyyətlərin əldə edilməsinə baxmayaraq, ümumilikdə problem aktual olaraq qalmaqdadır. Dünyanın bir çox ölkələrində, xüsusilə endemik zonalarda exinokokkoz ilə xəstələnmə halları getdikcə artmaqda davam edir. Exinokokkoz əhalinin istənilən yaşda əhalisi arasında, xüsusən də 20-60 yaş arasında olan şəxlərdə rast gəlinir ki, bu da problemin tibbi, sosial və iqtisadi cəhətdən mühüm əhəmiyyətə malik olduğunu göstərir [1,2,5,7.11].

Bir çox müəlliflərin fikrincə, exinokokk sistinin irinləməsi ən tez rast gəlinən ağırlaşma olaraq, bütün fəsadların 10-51%-ni təşkil edir. Exinokokk sistlərinin irinləməsi səbəbləri hələ də tam tədqiq olunmamışdır [1,2,5,7,11].

Ultrasəs müayinəsi və kompüter tomoqrafiyası kimi yüksək informativliyə malik müayinə üsullarının istifədəsi sonra exinokokkozun fəsadlaşmış formalarının rastgəlmə tezliyinin artmasına səbəb olmuşdur ki, bu da problemə daha ciddi diqqət yetirilməsi tələbatından xəbər verir. Əgər əvvəllər nəşr edilmiş ədəbiyyat nümunələrində qaraciyərin ocaqlı zədələnmələri halları olan xəstədən danışılırdısa, hazırda kliniki materiallar yüzlərlə xəstəni əhatə edir [1,5,10,11,12]. Qaraciyərin ocaqlı törəmələrinin diaqnostikası və müalicəsində müəyyən nailiyyətlərə baxmayaraq, klinisistlər tərəfindən bu mövzuya olan maraq azalmır.

Qaraciyərin ocaqlı törəmələrinin cərrahi müalicəsində problemlərin olması, mürəkkəb və travmatik əməliyyatlardan uzaqlaşmağa imkan verən, yeni azinvaziv üsulların axtarışını təkidlə tələb edir.

Son illər geniş profilli stasionarların azinvaziv lazer texnologiyaları ilə müasir təminatı cərrahi taktikanı dəyişdirməyə imkan vermişdir və exinokokkozun ağırlaşmış formalarının müalicəsində yeni imkanlar yaranmışdır.

Yuxarıda qeyd edilənlər qaraciyərin ağırlaşmış formaları olan xəstələrin ənənəvi və maqnit-lazer terapiyasının tətbiqi ilə aparılan müalicəsində olan fərqi aşkar etməyə imkan verə biləcək klinik elmi-tədqiqat işinin aparılmasına səbəb olmuşdur.

Tədqiqatın MƏQSƏDI infraqırmızı lazer şüalanması və dəyişən elektromaqnit sahəsinin birlikdə istifadəsi ilə qaraciyər exinokokkozunun ağırlaşmış formaları olan xəstələrin müalicəsinin nəticələrini yaxşılaşdırmaq olmuşdur.


TƏDQIQATIN MATERIAL VƏ METODLAR. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin qaraciyər, öd yolları və mədəaltı vəzi cərrahiyyəsi şöbəsində qaraciyərin irinləmiş exinokok sisti diaqnozu ilə müalicə alan 32 xəstə müşahidəmiz altında olmuşdur.

Xəstələr aşağıdakı qruplara bölünmüşlər:

1.Nəzarət qrupu - 20 xəstədə ənənəvi üsullarla müalicə aparılmışdır.

2.Əsas qrup – qaraciyərin ağırlaşmış forması ilə əməliyyat olunmuş 12 xəstəyə erkən əməliyyatdansonraakı dövrdə, sist boşluğuna qoyulmuş drenaj içərisində yerləşdirilmiş inuktor vasitəsilə MİL terapiyası aparılmışdır.

İntrakorporal maqnit-infraqirimizi lazer (MİL) terapiya üçün lazım olan qurğu və induktor əməliyyat zamanı yerləşdirilir. İçərisində maqnit induktor və işıq ötürücüsü olan silikon boru əməliyyatın əsas mərhələsi bitdikdən sonra qalıq boşluğa yerləşdirilir. Silikon borunun effektor ucu qalıq boşluğunda saxlanılır, əks ucu konnektor vasitəsilə ABA və MİLTA aparatlarına qoşulması üçün sağ qabırğanın altında dəridən xaricə çıxarılaraq, fiksə edilir.



Şək. 1. ABA aparatı və maqnit induktoru olan silikon boru

Lazer şüalanması MİLTA aparatından gələn işıq ötürücüsü, elektromaqnit dalğaları isə ABA aparatı vasitəsilə boşluq daxilinə ötürülür. İntrakorporal MİL terapiyanın parametrləri:

Dəyişən maqnit sahəsinin parametrləri:


- Tezlik – 50 hers
- Induksiya – 40 mTl
- Çıxış gücü – 3 Vatt

Lazer şüalanması:


- Şüalanmanın dalğa uzunluğu – 0,85 mkm
- Rejim – impuls, 1500 Hs
- Cıxışda gücü – 6 Vatt
- Tezlik – 600 Hs

MİL terapiyanın ekspozisiyası – 10-14 dəqiqə. İntrakorporal MİL terapiya seansları, əməliyyatdan sonra birinci gündən başlayaraq 8-14 sutka ərzində aparılır. İntrakorporal MİL terapiyanın seansları qurtardıqdan sonra, silikon boru dreanajlarının çıxarılmasının ümumi prinsiplərinə əsasən həyata keçirilir.

TƏDQIQATIN NƏTICƏLƏRI. İndukltorun çıxarılmasından əvvəl qalıq boşluğun ölçülərinin kiçilməsi və ya obliterasiyana əmin olmaq məqsədi ilə kontrol USM olunur. Zondların çıxarılmasına əsas göstərişlər, intoksikasiya əlamətlərinin olmaması, qalıq boşluğun ən azı 3-4 sm kiçilməsi olmuşdur.



Şək. 2. Qaraciyərin sağ payının exinokok sisti



Şək. 3. Qalıq boşluğun fistuloqrafiyası

Bütün xəstələrə boşluğunun həcmini və drenaj boru ətrafında hermetikliyi dəqiqləşdirmək məqsədilə fistuloqrafiya aparılır. Qalıq boşluqdan alınmış irinli möhtəviyyatın antibiotiklərə həssaslığın təyin etmək üçün bakterioloji müayinəyə göndərilmişdir.

MİL terapiya zamanı əməliyyatdan sonrakı dövrün xoş gedişatı müşahidə edilmişdir ki, bu da xəstələrin ümumi halının yaxşılaşması, temperaturun normallaşması, qalıq boşluqdan ifrazatınnn azalması və qranulyasiyanın erkən başlaması və başqa kliniki təzahürlər ilə özünü biruzə vermişdir.

Xəstələrə 1 ay sonra aparılan kontrol USM zamanı, qalıq boşluğun tam obliterasiya edilməsi aşkar çıxmışdır.

Beləliklə, intrakorporal MİL terapiya metodu effektli, təhlükəsiz, iqtisadi cəhətdən səmərəli olub kapitonajın aparılmasını tələb etmir, qalıq boşluğun maqnit-infraqırmızı şüalanması isə sağalma proseslərini sürətləndirir, boşluğun obliterasiyasını tezləşdirir və xəstələrin stasionarda qalma zamanını qısaldır. Erkən əməliyyatdansonrakı dövrdə MİL terapiya, qalıq boşluğun irinləməsi, öd sızması hallarının azalmasına səbəb olur və yaxşı nəticələr verir.

MİL terapiyanın tətbiqi zəruriyyəti onun patogen mikroflora ilə mübarizədə əhəmiyyətli antiseptik olub, qalıq boşluğun irinləməsinin qarşısının alınması və qapanmasının tezləşməsi, regenerativ və reperativ prosesləri sürətləndirməsi kimi xüsusiyyətlərindən irəli gəlir.

ƏDƏBIYYAT

1.Агаев Б.А., Гадиев С.И., Мусаев Б.А. Диагностика и лечение эхинококкоза печени // Аз.мед.журнал, 1990, №5, с.52-55

2. Агаев Б.А.,Мамедов А.А., Мамедов М.М. Интраоперационная переменная магнито-лазерная терапия в коррекции перекисного окисления липидов у больных с механической желтухой. Материалы международного конгресса Актуальные проблемы гепатологии. Алматы., 2006, с. 84-85

3. Agaev B.A.Cərrahi xastaliklar. Baki, 2000, s.369-384

4. Агаев Р.М. Хирургическое лечение эхинококкоза печени и его осложнений//Хирургия,2001,№ 2, с. 76.

5. Агаев Б.А., Мамедов А.А., Мамедов М.М. Аппарат для магнитолазерной терапии Патент Республики Азербайджан. I.2007. 0109. Опубл.17.05.2007

6. Агаев Б.А., Мамедов А.А., Мамедов М.М Интракорпоральный магнито-лазерный индуктор Патент Республики Азербайджан. I.2007. 0108. Опубл.17.05.2007.

7. Агаев Б.А., Агаев Р.М., Курбанов Ф.С. Хирургическое лечение эхинококкоза печени // Хирургия, 1997, №2, с.89-90

8. Алиев Р.М. Диагностика и хирургическое лечение очаговых заболеваний печени: Автореф. дис... докт. мед. Наук. Омск, 1994, 30 с.

9. Алиев И.М. Магнито-лазерная терапия в комплексном лечении и профилактики печеночной недостаточности при механической желтухе: Автореф. дисс.... канд.мед.наук. М., 1989, 26 с.

10. Алиев М.А., Мамедов М.М., Сейсембаев М.А., Джафаров Х.З. Использование эндовидеоскопической техники при непаразитарных кистах печени / Материалы VI междунар. конгр. хирургов и гастроэнтерологов Евразия. Баку, 2003, с. 48-49.

11. Агаев Р.М. Хирургическое лечение эхинококкоза печени и его осложнений // Хирургия, 2001, №2, с. 76.

12. Бондаревский И.Я. Способ лазерно-пластического лечения паразитарных и непаразитарных кист и гемангиом печени: Автореф. дис. ... канд. мед. Наук. Челябинск, 2000, 24 с.

РЕЗЮМЕ

ОЦЕНКА ЭФФЕКТИВНОСТИ ИНТРАКОРПОРАЛЬНОЙ МАГНИТНО- ИНФРАКРАСНОЙ И ЛАЗЕРНОЙ ТЕРАПИИ В КОМПЛЕКСНОМ ЛЕЧЕНИИ ОСЛОЖНЕННЫХ ФОРМ ЭХИНОКОККОЗА ПЕЧЕНИ

Б.А.Агаев, М.М.Мамедов, Н.М.Гасанов

Цель исследования явилось, улучшении результатов лечения осложненных форм ЭХИНОКОККОЗА печени наряду с использованием инфракрасного лазерного излучения и электромагнитных полей. В отделении печени, желчных путей и поджелудочной железы Научного центра хирургии им. М.А.топчибашева 32 пациентов с диагнозом нагноения печени лечеилсь и были под нашим наблюдением.

SUMMARY

ASSESSMENT OF MAGNETIC INTRAKORPORALNOY-IR AND LASER THERAPY IN COMPLEX TREATMENT OF COMPLICATED FORMS OF LIVER ECHINOCOCUS

B.A.Agaev, M.M.Mamedov, N.M.Gasanov

The aim of the study was, to improve the results of treatment of complicated forms ECHINOCocus liver along with the use of infrared laser radiation and electromagnetic fields. The Department of the liver, biliary tract and pancreas, Scientific Center of Surgery named. M.A. Topchibasheva 32 patients with a diagnosis of liver abscesses, and treatment have been under our supervision.

Daxil olub:20.05.2011

ПЕРСПЕКТИВЫ ДЕТСКОЙ АМБУЛАТОРНОЙ ХИРУРГИИ И АНЕСТЕЗИОЛОГИИ

Ч.Б.Кулиев, Э.М.Насибова

Азербайджанский Медицинский Университет, г.Баку

Реформирование системы оказания медицинской помощи населению, предполагает дальнейшее совершенствование роли так называемых, «стационаров одного дня» в деле амбулаторной хирургии [1,2]. По мнению многих исследователей в скором будущем в амбулаторных условиях будет выполняться более 60% всех хирургических вмешательств. Во всем мире неуклонно растет интерес к амбулаторной хирургии и подобное отношение к данному направлению обусловлено его целесообразностью, социальной значимостью и экономической выгодой. Безусловно, помимо социальных преимуществ, дальнейшему развитию однодневной хирургии способствует освоение новых хирургических и анестезиологических методик.

Опыт западных стран и США в организации амбулаторных хирургических центров огромен. В США первый амбулаторный хирургический центр был открыт в 1969 году. Теперь их более 1250, объем амбулаторной хирургии возрос на 77%. Годовая экономия денежных средств за счет амбулаторной хирургии составляет 400 млн. долларов. По Азербайджану аналогичных цифр нет.

Основные условия организации центров амбулаторной хирургии следующие:

- высокий профессиональный уровень специалистов;
- целенаправленный отбор больных для хирургического лечения;
- преемственность на всех этапах лечебно-диагностического процесса;
-проверенная тактика хирургического вмешательства и анестезиологического пособия;
- полноценное оснащение центров амбулаторной хирургии;
- четкая организация работы.

В настоящее время количество операций, выполняемых в так называемых стационарах одного дня, быстро увеличивается. При выполнении операций в амбулаторных условиях необходимо соблюдать особые требования, предъявляемые к анестезиологическому обеспечению.

Предпосылками развития анестезиологического пособия при амбулаторной хирургии послужили несколько основных факторов:

1. Финансово-экономический.
2. Высокая безопасность анестезии.
3. Прогресс хирургических технологий в сторону менее травматичных, малоинвазивных хирургических вмешательств.

Финансово-экономический фактор в амбулаторной хирургии складывается из прямой и косвенной экономии финансовых средств.

При прямой экономии наблюдается: 1) повышается оборот койки дневного стационара (в среднем на койке дневного стационара в день получают лечение два-три пациента, а не один, как в круглосуточном стационаре); 2) значительно сокращаются расходы на коммунальные услуги и эксплуатацию инфраструктуры клинических отделений – работа центров амбулаторной хирургии длится 8-10 часов в сутки вместо 24 часов как в стационарах; 3) отсутствует работа в ночное время суток и, следовательно, нет необходимости повышать оплату труда за ночные дежурства.

Помимо этого прямая экономическая эффективность определяется предотвращенным экономическим ущербом, т.е. разностью в расходах государства при лечении в стационаре госпитального типа и в дневном стационаре [3,4,5].

Косвенная экономия определяется следующими: 1) дорогостоящие койки госпитальных стационаров высвобождаются для лечения более тяжелых больных; 2) сокращается очередность на выполнение плановых операций; 3) в дневных стационарах оказывается помощь на более ранних стадиях заболевания и это предотвращает развитие более тяжелых форм заболеваний и их осложнений; 4) общие затраты в расчете на одного больного, при выполнении хирургического вмешательства в амбулаторных условиях по данным некоторых исследователей снижаются до 50-60%.

Традиционно, в амбулаторной хирургии, как и в «хирургии большой», основной задачей анестезиолога является обеспечение максимальной безопасности пациента. Необходимо отметить, что анестезиологическое обеспечение хирургических вмешательств в амбулаторных условиях на всех этапах должно быть направлено на быструю посленаркозную реабилитацию пациента. При отборе больных для амбулаторной хирургии необходимо учитывать наличие у пациента хороших социально-бытовых условий и возможность организации ухода за ним в домашних условиях после операции [6].

Применяемые в хирургии одного дня различные методы анестезии, должны обеспечивать своевременную посленаркозную адаптацию и реабилитацию пациента. Некоторые зарубежные исследователи предполагают возможность ускоренного перевода больного непосредственно из операционной в палату хирургического отделения (fast track) [7]. Более ранняя активизация и выписка из клиники, его возвращение к привычному образу жизни, помимо экономической выгоды, практически исключает психологическую нагрузку, связанную с госпитализацией и вынужденной изоляцией от семьи, особенно у детского контингента больных.

ЦЕЛЬЮ данной работы явилось определение перспектив детской амбулаторной хирургии и анестезиологии.

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. В период с 1946 года по 2008 год клиника кафедры детской хирургии располагалась на базе БСМП г. Баку. В этот период оперативное лечение детей со следующими заболеваниями: грыжи передней брюшной стенки, водянки и кисты оболочек яичка и семенного канатика, фимоз, крипторхизм, мягкотканые доброкачественные образования небольших размеров проводились лишь в стационарных условиях. Длительное пребывание пациентов в стационаре приводило к значительным экономическим затратам, а также способствовало развитию психологической травме ребенка связанное отлучкой от семьи.

С 2008 года на базе Клинического Медицинского Центра г. Баку по инициативе кафедры детской хирургии АМУ был организован хирургический стационар одного дня. Хирургический стационар одного дня подразумевает госпитализацию, операцию, полное пробуждение от наркоза и выписка в один и тот же день. За год в стационаре одного дня выполняется более 500 оперативных вмешательств вышеуказанными хирургическими заболеваниями.

РЕЗУЛЬТАТЫ И ИХ ОБСУЖДЕНИЕ. Вопрос о выборе метода анестезиологического пособия при амбулаторных непродолжительных, малотравматичных вмешательствах, несмотря на уже проведенные исследования остается открытым.

Анестезия, проводимая по общепринятым правилам с искусственной вентиляцией легких (ИВЛ) и приводящая к длительной постнаркозной депрессии, диспепсическим расстройствам, эмоционально-психологическому дискомфорту и другим побочным эффектам при нахождении детей в клинике амбулаторной хирургии не желательна. Поэтому необходимо усовершенствовать анестезиологическое обеспечение детской амбулаторной хирургии.

Специфичность амбулаторной хирургии позволила искать адекватные составляющие оптимального анестезиологического обеспечения выполняемого в «стационаре одного дня» и удовлетворяющего как хирурга и анестезиолога, так и пациентов. Анестезия с самостоятельным дыханием является более щадящим видом анестезии и во многом лишена побочных эффектов в посленаркозном периоде.

Реализация этого вопроса стала весьма актуальна. Его первоначальное решение зависит от совершенствования деятельности анестезиолога, от психосоматического и лабораторного статуса пациента в предоперационном периоде, от выбора безопасной анестезии влияющей как на продолжительность его пребывания в стационаре, так и на состояние в ближайшие дни после операции.

Общей тенденцией выбора оптимального метода анестезиологического пособия в амбулаторной хирургии является стремление использовать препараты короткого действия, обеспечивающие быстрое и спокойное засыпание, а также пробуждение больного, адекватную защиту от боли, хорошую управляемость. Не менее важным требованием является быстрое восстановление сознания и психического статуса пациента, что определяет безопасный перевод больного в палату.

В последние десятилетия для анестезиологического обеспечения операций выполняемых в рамках так называемой однодневной хирургии, все чаще стали применять препарат пропофол, который согласно многочисленным литературным данным, отвечает практически всем требованиям, предъявляемым к оптимальному препарату для анестезии. Он обладает выраженным седативным эффектом, незначительно влияет на дыхание кровообращение, обеспечивает хорошую управляемость анестезией (быстрое начало и короткое продолжительность действия, минимальный кумулятивный эффект). Пропофол широко применяется является альтернативным препаратом в детской амбулаторной анестезиологии [8,9].

По мнению Coates (1989), появление пропофола произвело революцию в амбулаторной практике. Это произошло благодаря большому количеству клинических данных, быстрому накоплению положительного клинического опыта использования и высокой эффективности препарата (быстрое пробуждение и восстановление функций организма после операций, низкая частота развития побочных реакций).


13. Сметник В.П., Тумилович Л.Г. Неоперативная гинекология. М.: МИА, 2005, с.516-626

14. Тихомиров А.Л., Сарсания СИ. Современные принципы профилактики и лечения воспалительных заболеваний женских половых органов в оперативной и неоперативной гинекологии. Методические рекомендации. М.2005

15. Eckert L.O., Hawes S.E. Endometritis: The clinical-pathologic syndrome / Am J Obstet Gynecol., 2002, v.186, N 4, p.690-695

16. Savelli L., Pilu G., Valei B. Transvaginal sonographic appearance of anaerobic endometritis // Ultrasound Obstet Gynecol., 2003, v.21(6), p.624-5

17. Simms I., Eastick K., Mallinson T.R. et al. Association between Mycoplasma genitalium, Chlamidia trachomatis and pelvic inflammatory disease // J Clin Pathol., 2003. v.56(8), p.616-618.

XÜLASƏ

QADIN CİNSİYYƏT ORQANLARININ İLTİHABİ XƏSTƏLİKLƏRİ ZAMANI FİZİOTERAPIYANIN MÜASİR İMKANLARI

N.M., Kamilova, E.A.İslamova

Milli reprodukiv sağlamlaığın qorunması və bərpa olunması səhiyyənin ən vacib məsələlərindən biridir. Qadın cinsiyyət orqanlarının xronik xəstəlikəri reproduktiv yaş dövründə ginekoloji patologiya strukturunda aparıcı yer tuta və onun tezliyi 60-65% təşkil edir. Bu tədqiqat işinin məqsədi əlavə fizioterapevtik təsirlər olmadan "ALMAQ 01H"- ın kiçik çanaq orqanlarının xronik iltihabi xəstəliyinin müalicəsində kilinik effektivliyini təyin etməkdən ibarətdir. "ALMAQ 01-H"- ın tətbiqi xronik endometrit və xronik salpinhooforit kimi xəstəliklər zamanı müasir elektroterapiyanın imkanlarını günişləndirir və artırır. Kiçik çanaq üzvlarının xronik iltihabi xəstəlikləri zamanı maqnit terapiyasının yüksək effektivliyi bu xəstəliklərin kompleks müalicəsində onun tətbiqini tövsiyə etməyə imkan verir. Bu zaman onun iltihabəleyhinə, defibrozəedici və immun korreksiyaedici imkanlarından geniş istifadə etmək mümkündür.

SUMMARY

MODERN POSSIBILITIES OF PHYSICAL THERAPY IN INFLAMMATORY DISEASES OF THE FEMALE GENITAL ORGANS.

N.M. Kamilov, E.A. Islamova

Saving and restoring reproductive health home is one of the most important health problems. Chronic inflammatory diseases of the female genital organs occupy a leading position in the structure of gynecological pathology in the reproductive age with up to 60-65%. The aim of this study was to evaluate the clinical efficacy of treatment with chronic inflammatory disease of the pelvic organs "ALMAG 01-N" with no additional effects of physiotherapy. The use of "ALMAG 01-H" successfully complements and extends the capabilities of modern electrotherapy of chronic endometritis and chronic salpingoophoritis. The high efficiency of magnetic therapy for chronic inflammatory diseases of the pelvic organs can recommend its use to use in the treatment of this disease to enhance the anti-inflammatory and immunn correction action.

Daxil olub:25.03.2011

BAKTERİOLİZİS- BRUSELLOZ ZAMANI SPESIFIK ANTICISMLƏRIN DİAQNOSTİK TİTR GÖSTƏRİCİLƏRİNİN MÖVCUDLUĞU KİMİ

Ə.Ə. Alıyev
Azərbaycan Elmi - Tədqiqat Baytarlıq İnstitutu, Bakı

Bruselloz 1 əsrdən çox tarixə malik zooantroponoz xəstəlikdir. Hər il statistik məlumatlara görə təxminən 350 nəfərə qədər insan mövcud spesifik anticismlərin axtarılmasına əsaslanan seroloji üsullarla bruselloz diaqnozu qoyularaq müalicəyə cəlb olunur. 2000- dən çox iri və xırda buynuzlu heyvanlarlar səmərəli müalicə üsulu olmadığından həmin üsullarla bruselloz diaqnozu ilə məcburi kəsimə verilir. Xəstəlikdən hər il məcburi kəsimdən hər heyvanın faktiki dəyərinin 50% - dən çox heyvan sahiblərinə ziyan dəyir. Bruselloza seroloji (Çəhrayı benqal sınağı (ÇBS), Aqqlütinasiya reaksiyası (AR), Komplimentin birləşmə reaksiyası KBR, İmmun ferment analiz (İFA) və.s) reaksiyalarla müsbət göstərən heyvanlar normal bala verir, həmin heyvanlarda xəstəliyin klinikası olmur, bakterioloji və bioloji müayinələrin nəticələri çox zaman mənfi olur. Lakin brusellozdan balasalmış heyvanlarda, bakterioloji və bioloji müayinənin nəticələri müsbət, seroloji reaksiyalar isə mənfi olur. Bu isə nəticədə təbii immunizasiya, yəni qazanılmış steril immuniteti olan və vaksinasiya olunmuş heyvanların qarışıqda bruselloz adı ilə məcburi kəsimə verilməsinə, brusellaları ifrazatları ilə yayan heyvanların isə mövcud seroloji üsullarla xəstəliyin kəskin dövründə aşkar edilə bilmədiyindən sağlam adı ilə təsərrüfatlarda qalaraq, məhsulları və ifrazatları ilə heyvan və insanlar arasında xəstəliyin yayılmasına səbəb olur. Hər bir müayinə olunan seruma nəzarətdə pozitiv və neqativ serumdan istifadə olunur. Müayinə olunan serumun nəticələri nəzarət serumları ilə müqayisə edilərək qiymətləndirilir. Müayinə olunan serumun nəticəsi pozitiv serumla eyni olarsa, bu zaman heyvan və insan xəstə, əgər neqativ seruma müvafiq olarsa, sağlam hesab edilir. Nəzarətdə istifadə olunan pozitiv bruselloz serumu inaktivasiya olunmuş brusellanın ada dovşanı və qoça hiperimmunizasiyası ilə əldə olunur, lakin həmin təcrübə heyvanları xəstə deyil, xəstəliyə davamlı hesab olunur. Həmin pozitiv serum vahid bruselloz antigeninə nəzarət məqsədilə qoyulur və nəticələr müayinə edilən serumun nəticələri ilə müqayisə edilərək diaqnostik qiymətləndirilir. Nəticə eyni olarsa, heyvan və insan xəstə hesab edilir.[9, 10] Spesifik anticismlərin əmələ gəlməsinə səbəb brusellanın somatik antigenidir. Həmin antigen sünii qida mühitində boy vermir, orqanizmdə heç bir patomorfoloji dəyişikliklər yaratmır və həmin heyvanda bruselloza xas olan əlamətlərə təsadüf olunmur. Belə ki, antigen üzərində alınmış nəticələrlə patogen brusellalarla alınmış nəticələrdə ziddiyyətlilik mövcuddur. Brusella ona invazivlik verən hiolironidaza fermentindən və somatik antigendən ibarətdir. Patogen brusella orqanizmə daxil olduqda xəstəliyin əlamətləri müşahidə edilir. Diaqnostik və yuxarı titr göstəricilərinə malik heyvanlarda belə hal müşahidə olunmur. Məhz bu baxımdan diaqnostik titrdə insandan – insana brusellozun keçməsi təsadüf olunmamış və bioloji dalan adlandırılmışdır [1,2,11,12].

KBR 1901 - ci ildə ilk dəfə Borde və Janqu, 1909 - cu ildə isə ilk dəfə Qolt brusellozun diaqnostikası məqsədilə təklif etmiş, bu gün də ən dəqiq üsul kimi tətbiq edilməkdədir. Bu üsul antigen – anticism kompleksinin sərbəst komplementi təsbit (fiksasiya) etmə prinsipinə əsaslanır. Bu reaksiya bakterioliz və hemoliz kimi 2 - fenomen reaksiyanın əsasını təşkil edir. Bakterioliz hadisəsini alman tədqiqatçısı Rixard Pfeyfer və Rus mikrobioloqu V. İ. İsayev hind donuzlarını zəiflədilmiş vəba vibrionu ilə peyvənd edərkən heyvanların qan zərdabında spesifik anticismlər - bakteriolizinləri müşahidə etmişlər. Əldə edilmiş immun qan zərdabına in vitro diri vəba vibrionları əlavə olunarkən komplementin iştirakı ilə lizisə uğramış, və ona görədə bakteriolizis adlandırılmışdır. Hemoliz fenomeni isə Borde, F. Çistoviç 1898 - ci ildə qoç eritrositlərini ada dovşanına 3 - dəfə artan dozada hiperimmunizasiya etmiş, əmələ gələn spesifik anticismlər komplementin iştirakı ilə in vitro qoç eritrositini lizis etmiş, bu hadisəni rəngin qızarması ilə müşahidə etmişlər. Bu hadisəni hemolizis reaksiyası adlandırmışlar. Bruselloz antigeni orqanizm üçün iri molekullu genetik yad cism olub, orqanizmə daxil olduqda spesifik anticismlərin əmələ gəlməsinə səbəb olmaqla in vitro (mixbərdə) müvafiq antigeni elektrolitik mühitdə əridərək çöküntü halında özünü göstərir. Bakterioliz, hemoliz reaksiyalarına və antigenə verilən tərifə nəzər salsaq, məlum olur ki, orqanizmin infeksion - brusellladan və qeyri infeksion - qoç eritrositindən mühafizə edilməsi immunitetdir [1,5,9,11]. Bakterioliz və hemoliz reaksiyalarından belə demək olar

antigenlərə qarşı əmələ gələn spesifik anticismlərin funksyası brusella antigenini və ya qoç eritrositini lizis etməkdir. Bu hadisə immun cavab adlanır. KBR - də isə hemoliz reaksiyası bakterioliz reaksiyasına indiqator (nəzarət) rolunu oynayır. Əgər komplement bakteriolitik sistemdə birləşirsə, hemolitik sistemdə hemoliz olmur, ancaq reaksiya müsbət, nəticəsi isə xəstə hesab edilir. Əksinə kompliment hemolitik sistemdə birləşirsə qoç eritrositi lizisə uğrayır mixbər qızarır, reaksiyanın nəticəsi isə mənfi olmaqla, heyvan sağlam hesab edilir. Bu prosesdə spesifik anticismlərin funksiyası hər iki halda yalnız müvafiq antigeni lizis etməkdir. Yəni orqanizmdə brusellalara qarşı anticismlər əmələ gəlirsə və həm orqanizmdə və ya mixbərdə müvafiq antigeni əridirsə bu nəticə xəstəlik deyil, xəstəlikdən təbii sağalmadır və ya qoç eritrositinə qarşı əmələ gələn hemolizin komplimentin iştirakı ilə eritrositi lizisə uğradırsa bu hadisə də immun cavabdır və bu nəticəni də xəstə heyvan serumuna indiqator kimi götürüb eyniləşdirmək düzgün deyildir. Xəstəliyin kəskin təhlükəli dövründə spesifik anticismlər serumda olmadığı üçün seroloji üsullar mənfi göstərir, çünki mikrobun virulentliyi artdıqca ona qarşı anticismlərin əmələ gəlmə müddəti uzanır, bu da nəticədə virulentli brusellaları yayan heyvanların bu üsullarla sağlam hesab edilməsinə və məhsulları ilə insan və heyvanların yoluxmasına səbəb olur. Brusellalar zəiflədikdə isə əksinə 4 - cü gündən başlayaraq serumda spesifik anticismlər müəyyən olunur ki, onda isə heyvan infeksiya mənbəyi sayılmır, əksinə xəstə hesab edilir və heyvanların məcburi kəsilməsinə səbəb olur. Süddə, dölətrafı mayedə brusella ayrılan zaman, lakin seroloji reaksiyalar mənfi göstərir, süddə seroloji reaksiya müsbət olanda kultura ayrılmır, bioloji sınaq mənfi olur. Heyvan orqanizmləri müxtəlif immun vəziyyətdə olduğundan, xəstəliyin müxtəlif dövrlərində seroloji üsullarla ona diaqnoz qoymaq çətinlik törədir. Spesifik anticismlərin axtarılmasına əsaslanan seroloji üsullar brusellaları yayan orqanizmləri tam aşkar etmir, brusellanın axtarılmasına əsaslanan kütləvi müayinə üçün daha səmərəli üsulların axtarılmasını tələb edir [1,2,3,4,5,6,7,8]. Dünya alimlərinin bu məsələ barədə məlumatsızlığı xəstəliyin diaqnostikası və müalicəsində problemlərə səbəb olmuşdur. Alınmış nəticələrin müvafiq sahələrdə tətbiqi iqdisadi inkişafa təkan verəcək, qida təhlükəsizliyini təmin etməklə, xəstəliyin ləğvi üçün böyük əhəmiyyət kəsb edir. Respublikada ilk dəfə bu problemin həlinə müraciət edilməsi məhz bu baxımdan vacib hesab edilmişdir.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Tədqiqat işləri Azərbaycan Elmi - Tədqiqat Baytarlıq İnstitutunda 2009 - cu ilə qədər Brusellozu və Vərəmi öyrənən laboratoriyasında, sonralar isə heyvanların infeksion xəstəliklər laboratoriyasında son diaqnostik və profilaktik təlimatlara müvafiq olaraq aparılmışdır.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. Hər bir seroloji reaksiya nəzarətlə paralel qoyulur. Nəzarətdə pozitiv və neqativ serumdan istifadə olunur. Müayinə olunan serumun nəticələri nəzarət serumları ilə müqayisə edilərək qiymətləndirilir. Müayinə olunan serumun nəticəsi pozitiv serumun nəticəsinə uyğun olarsa, reaksiya müsbət, heyvan və insan xəstə, neqativ serumun nəticəsinə müvafiq olarsa, sağlam hesab edilir [9,10]. Pozitiv serum inaktivasiya olunmuş brusellanın ada dovşanı və qoça hiperimmunizasiyası ilə əldə olunur. Lakin pozitiv serum hazırlanan təcrübə heyvanları xəstə deyil, xəstəliyə davamlıdır [6,7,8]. Aqqlütinasiya reaksiyası kütləvi müayinə zamanı qoyun keçilərdə 1:25, 1:50, qaramalda 1:50, 1:100 nisbətlərdə qoyulyr. İlkin durultmada müayinə üçün 0,1 ml müayinə olunan serum götürülür üzərinə 1:10 fizioloji məhlulla durultmuş vahid bruselloz antigeni 0,5 həcmdə əlavə edilir. 1 - ml vahid bruselloz antigenində 10 milyard brusella cismciyi var. 1 - ml 1: 10 durultma hazırladıqda 1ml - də 1 - milyard mikrob cismciyi qalır, ondan 0,5 ml serumun üzərinə əlavə edildikdə hər mixbərdə 500 min bruselloz cisimciyi olur. Qaramalda 1:100, qoyun keçidə 1:50 ən azı 2++ aqqlütinasiya müşahidə olunarsa, reaksiya müsbət heyvan isə bruselloz hesab edilir [9,10].

Əgər müayinə olunan 0,1 serumu 1:50, 1:100 durultmalarda in vitro (mixbərdə) 500 min bruselloz cismciyini elektrolitik mühitdə çökdürərsə, bu isə o deməkdir ki, 20 l qanı olan heyvanın ən azı 4 5% - ni serum təşkil edir ki, bu da təxminən 9 l- dək serum deməkdir. Əgər 0,1 müayinə olunan serumun 1: 100 durultması 500 min bruselloz cismciyini in vitro elektrolitik mühitdə çokdürürsə, onda 9 l serumda olan anticismlərin in vivo nə qədər brusellaları neytrallaşdırmaq qabiliyyətinə malik olduğunu riyazi hesablamaqla daha aydın görmək olar.

Bundan başqa 45 baş ada dovşanları vahid bruselloz antigeni ilə 1 - ci gün 1ml, 6 - cı gün 2 ml, 14 - cü gün 2,5 ml bud nahiyyəsindən əzələ daxilinə immunizasiya edilmiş, 21- ci gün serumun titri AR - lə yoxlanılmış, ən aşağı olan titr 1:160 və 1:1280 titrlər olmuşdur. Sonra hər iki titrlərin

mixbərlərinin çöküntüsü 1:5 - dən 1:1280 - ə qədər müxtəlif ada dovşanlara immunizasiya edilmiş, 7 - gündən sonra nəticələri aşagıdakı kimi olmuşdur:

Son həddtitri AR- lə 1:160 olan serumun 1:5, 1:10, 1:20 - ə qədər duruldulmuş 18 – 24 saat sonrakı çöküntüsündən ada dovşanlarına immunizasiya zamanı spesifik anticismlər əmələ gəlməmiş, lakin yuxarı titrlərin 1: 40 - dan 1: 320- dək çöküntülərinə qarşı spesifik anticismlər əmələ gəlmişdir.

Növbəti təcrübə məqsədilə 10- dovşan 1973 - cü ilin istehsalı olan 19 ştamla hərəsinə 1ml hesabilə qarınaltı nahiyyədən subdermal, intraperitonal immunizasiya edilmişdir. Eyni zamanda 1989 - cu ilin istehsalı olan vahid bruselloz antigeni ilə 10 ada dovşanlarına eyni qayda ilə 1ml həcmdə immunizasiya edilmişdir. Nəzarətdə isə yararlılıq müddəti keçməyən Rev -1, şt - 82 və vahid bruselloz antigeni götürülmüşdür. 7 - gün fasilə ilə 3 dəfə təkrar artan doza ilə immunizasiya edilmişdir. Hər immunizasiyadan sonra ada dovşanlarının qulaq venasından 2 ml qan alınaraq serumu ayrılmışdır. Nəticələr ÇBS - ilə müsbət olmuşdur. Paralel ada dovşanları qansızlaşdırılaraq daxili orqanlarından 1:10 suspenziya hazırlanmış, hər nümunədən 2 - baş ada dovşanına bud əzələsinə 1ml inyeksiya edilmiş, 5 - gündən sonra qulaq venasından qan alınaraq serumu ÇBS – lə mənfi olmuşdur. Digər təcrübədə 59 baş cins qaramaldan 10 qramlıq birdəfəlik steril şprislə qan nümunəsi sterillik gözlənilməklə götürülmüş, yerindəcə 1 ml hesabı ilə yeni (Ə. Ə. Alıyev, F. R. Gülalıyeva tərəfindən şərti adlandırılmışdır) AF2 və mövcud ət peptonlu qaraciyərli qlükozalı qlesirinli (ƏPQQQ) bulyon və aqar qida mühitlərinə əkilmişdir. Qalan qan nümunələri seroloji müayinə üçün götürülərək laboratoriyada kompleks mövcud və yeni müayinə üsulları ilə [8,9,10] müqayisəvi yoxlanılmış, nəticədə 8 - baş ÇBS, AR - lə müsbət, 2 baş ÇBS ilə 2 müsbət olmuşdur. Bakterioloji müayinənin nəticələri bütün nümunələrdə mənfi olmuşdur. Həmçinin, müsbət olan 8 serumların AR - lə 20 saatdan sonrakı 1:50, 1:100 çöküntülərini 40 - baş ada dovşanına bioloji sınaq zamanı diaqnostik titrdə mənfi olmuş, yuxarı titrlərdə müsbət olmuşdur. ÇBS ilə 3 2 baş müsbət olanlar AR lə 1: 40 titrdə olmuşdur. 20 saatdan sonrakı çöküntülərin 1:50, 1:100 titrlərdə hərəsini 2 - baş ada dovşanının bud əzələsinə 1 ml hesabı ilə inyeksiya edildi. Nəticə isə müsbət oldu. Nəzarətdə hiperimmun bruselloz serumunun standart vahid bruselloz antigeninin 18 saatdan sonrakı 1:50, 1:100 çöküntüləri hərəsini 2 - baş ada dovşanına immunizasiya eyni qayda ilə bud əzələsinə inyeksiya edilmiş nəticələri 5 - ci gün diaqnostik titrlərdə spesifik anticismlərin təsirindən standart antigen in vitro (mixbərdə) lizis olduğundan spesifik anticismlər əmələ gəlməmişdir. Müsbət serumlar vahid bruselloz antigeni ilə Həlqə Presipitasiya Reaksiyası ilə nəticələri eyni olmamış, ləngimə müşahidə edilmiş, (çarpaz aqqlütinasiya) nəzarətdə isə reaksiya 16 cı dəqiqədə müsbət olmuşdur. 3 – cü təcrübədə vahid bruselloz antigeni 6 mixbərdə hərəsində 4 - ml olmaq şərtilə götürülmüş 30, 60, 90, 120, 150, 180 dəqiqə intervallarda suda qaynadılmış, hər nümunədən 2 - ədəd ada dovşanlara enteral, subdermal, intraperitonal olaraq yeridilmişdir. 4 -5 gündən sonra nəticələr CBS - ilə yoxlanılmış nəticə müsbət olmuşdur. Antigen qaynama temperaturunda 3- saat saxlanıldıqdan sonra da spesifik anticism əmələ gətirmə qabiliyyətini saxlamışdır. Spesifik anticismlərin əmələ gəlməsi 4-5 gün ərzində olduğu halda, enteral immunizasiyada 3 – 5 gün sonra spesifik anticismlərin əmələ gəlməsi komissyon təsdiq edilmişdir. Növbəti təcrübədə biz vahid bruselloz antigeni 7 ada dovşanına və ya 3 baş qoçun bud əzələsinə 1,5 ml, 7 gün fasilə ilə artan dozada 7 - ci gün 2 ml, 14 - cü gün 2,5 ml, inyeksiya edilmiş, hər 10 gündən bir qanın serumu seroloji müayinəyə cəlb edilmişdir. Hər seroloji müayinə zamanı ada dovşanlardan 1 – i qansızlaşdırılmış, serumu ayrılmış, daxili orqanlarından və sümük iliyindən steril şəraitdə 1: 10 nisbətdə fizioloji məhlulda suspenziya hazırlanmış və 70 dərəcə C də 1 saat su hamamında saxlanılm16 saat soyuducuda saxlandıqdan sonra hazırlanmış suspenziyaları standart pozitiv bruselloz serumu ilə Həlqə Presipitasiya (HPR) və Presipitasiya reaksiyası (PR) ilə yoxlanılmışdır. Nəzarətdə isə vahid bruselloz antigeni pozitiv, neqativ və müayinə olunan heyvanın serumu götürülmüş, nəticələr müqayisə edilərək, diaqnostik qiymətləndirilmişdir. Həlqə Presipitasiya reaksiyası (HPR) sınaq təcrübəsində 0,3 ml 1: 10 hazırlanmış suspenziya, 0,3 üzərinə standart pozitiv serum, nəzarətdə isə eyni qayda ilə standart vahid bruselloz antigeni pozitiv, neqativ və müayinə olunan serumla 55 dərəcə su hamamında 4 dəqiqə saxlanıldı, sonra 4 dəqiqə soyuq suya mixbərlər keçirildi. Proses 4 dəqiqə fasilə ilə isti soyuq rejimdə saxlanıldı. Reaksiyanın nəticəsi nəzarətdə pozitiv serumla reaksiya gedəndə dayandırıldı və nəticələr müqayisə edilərək diaqnostik qiymətləndirildi. Məlum oldu ki, serumun titri ardıqca HPR nın nəticəsi tez oxunur, azaldıqca ləngiyir. Təcrübələr 10, 20, 30- cu günlərdə də təkrar edilmişdir. Antigen üzərində alınan nəticələrə

görə ada dovşanlarının qanında 4- 5 – ci gündən başlayaraq spesifik anticismlər əmələ gəlir. Orqanlardan hazırlanmış suspenziya (HPR ilə müsbət verənlərlə) diri çəkisi 2 kq olan ada dovşanına və ya 1 aylıq broyler cücəsinə hər nümunə 2 - başın bud və ya döş əzələsinə 1 ml hesabı ilə inyeksiya edildi. HPR - ilə müsbət nəticə bioloji sınaqla 5 ci gün serumun ÇBS və HPR – ilə nəticəsi mənfi olmuş, nəzarətdə isə vahid bruselloz antigeni olduğundan nəticə hər iki reaksiya ilə müsbət olmuşdur. Orqanlardan hazırlanmış suspenziyalardan yalnız qaraciyər suspenziyası HPR ilə müsbət olmuş, lakin bioloji sınağın nəticəsi mənfi olmuşdur. Bu təcrübələr eyni qayda ilə Ştamm – 82, Rev - 1, Ştamm – 19 la paralel aparılmış, 7 - 14 gündən başlayaraq ÇBS, AR, KBR və HPR ilə müayinə edilmiş serumun nəticələri müsbət olmuş, Lakin HPR - ilə reaksiya 1 - saata qədər ləngimişdir. Orqanlardan hazırlanmış suspenziyaların nəticələri standart vahid bruselloz antigeninin nəticələri ilə eyni olmuşdur. [1,2,3,4,5,6, 7]

Ədəbiyyat məlumatlarının və aparılan təcrübələrin təhlili bizim aşağıdakı nəticələrə gəlməyimizə əsas verir.

NƏTICƏ. 1. Təbii immunizasiya və vaksinasiyadan sonra immunoloji reaksiyalar müxtəlif dərəcədə müsbət ola bilər, xəstəliyin kliniki əlamətləri olmadan, bruselloza görə reaksiyaların müsbət olması, bruselloza diaqnoz qoyulmasına əsas vermir. Hemokulturanın alınması, bioloji sınağın müsbət olması diaqnozu təsdiq edir. 2. Bruselloza diaqnoz o zaman düzgün qoyulmuş hesab edilir ki, brusella təmiz kultura kimi ayrılsın, təcrübə mixbərlərində özünü standart bruselloz antigeni kimi aparmış olsun. Yəni hər iki sınaq və nəzarət mixbərlərində eyni müddətdə neqativ serumla aydın nəzərə çarpan mənfi nəticə, monospesifik pozitiv (hiperimmun) serumla isə aydın, gözlə görünən həlqə əmələ gəlsin (presipitasiya) və mixbərin dibinə çöksün. Həmin suspenziyanın bioloji sınaqla nəticəsi 5 - ci gün ÇBS və HPR ilə serumu müsbət olsun (Ə.Ə.Alıyev, N. G. Quliyev və F. R. Gülalıyeva şərti adı "ABNUREL" Triada reaksiyası).

ƏDƏBIYYAT

1.Alıyev Ə.Ə., Quliyev N.G. Həsənov E.H. Gülalıyeva F.R. Kənd təsərrüfatı heyvanlarının brusellozunun diaqnostikasının təkmilləşdirilməsinə dair // Elmi iş, 2010, №28, s.35 -40

2. Alıyev Ə.Ə., Quliyev N.G., Gülalıyeva F.R. Brusellozlu və immitetli orqanizmlərin təfriqi // Aqrar elmi, 2011, №3, s.122

3.Alıyev Ə.Ə., Gülalıyeva F.R. Brusellaların süni qida mühitlərində spesifik boy vermə müddətinin öyrənilməsi // Aqrar elmi, 2011, №3, s.125.

4. Alıyev Ə.Ə., Quliyev N.G., Gülalıyeva F.R. ƏBNUREL" triada reaksiyasının Brusellozun diaqnostikasında tətbiqinə dair // "ELM" qəzeti, 2011, 1007 - 1008 sayı, s.9.

5.Alıyev Ə.Ə., Quliyev N.G., İsgəndərov H.M., Atakişiyev N.F. Bruselloz antigeni ilə patogen brusellalar arasında ziddiyyətlilik mövcuddur // Azərbaycan aqrar elmi, 2007, № 8 -9, s.75

6.Alıyev Ə.Ə., Quliyev N.G., Həsənov E.H., Qarayeva M.A. Bruselloz zamanı spesifik anticismlərin mövcudluğu xəstəlikdən sağalma göstəricisidir //Azərbaycan beynəlxalq elmi nəzəri jurnal, 2005, N 8-9, s.34- 38

7.Alıyev Ə.Ə., Quliyev N.G., Həsənov E.H. Qarayeva M.A. Bruselloza qarşı orqanizmin spesifik cavab reaksiyası immun raaksiyadır // Azərbaycan beynəlxalq elmi nəzəri jurnal, 2005, N 6-7, s.24-30

8. Alıyev Ə.Ə., Quliyev E.H., Həsənov E.H. Brusellozun diaqnostikasının təkmilləşdirilməsinə dair Milli Elmlər // "ELM" qəzeti, 2004, 21 iyun, s.14.

9. Brusellozun diaqnostik təlimatı. B., 2003.

10. Əliyev E. Kənd təsərrüfatı heyvanlarının bruselyozu. Bakı, 2002

11. Колычев Н.М., Госманов Р.Г. Ветеринарная микробиология и иммунология. М.: Колосс, 2006,

12. Бессарабов Б.Ф. и др. Инфекционные болезни животных / Под ред. И.И. Сидорчука. М.,2007, с.29

РЕЗЮМЕ

БАКТЕРИОЛИЗИС- КАК ПОКАЗАТЕЛЬ ДИАГНОСТИЧЕСКОГО ТИТРА СПЕЦИФИЧЕСКИХ АНТИТЕЛ ПРИ БРУЦЕЛЛЕЗЕ

А.А. Алиев

В настоящее время при диагностике бруцеллеза нами предлагается использовать триаду «АБНУРЕЛ», основанную на поиске бруцелл, а не специфических антител. Во время проведенных исследований было отмечено, что единый бруцеллезный антиген даже при кипячении в течение 3 - х часов не теряет свойств образовывать антитела. С возрастанием вирулентности бруцелл увеличивается время образования антител. Антиген, при поступлении в организм вместе с мясом и молоком, способствует выработке специфических антител, а это приводит к тому, что людей лечат против бруцеллеза, а животных подвергают вынужденному убою. Реакция между антигеном и антителом называется бактериолизом, эта реакция не может быть использована в качестве контроля при диагностических реакциях, как показатель заболеваемости, В этой реакции функция антител заключается в лизисе антигена. Это показатель иммунитета, а не показатель восприимчивости.

Отсутствие антител в сыворотке крови кроликов на введение осадочного материала, образованного через 20 ч в результате РА в диагностическом титре, служит этому подтверждением. Диагноз на бруцеллез считают установленным с момента выделения чистой культуры бруцелл, в контролных и опытных пробирках выделенная культура идентична стандартному бруцеллезному антигену. То есть в обоих контрольных пробирках с негативной сывороткой происходит ясный отрицательный результат, положительной (гипериммунной) сывыроткой получается видимое кольцо (преципитация), осадок выпадает на дно пробирки и результат условно называемой реакции «АБНУРЭЛЬ» бывает положительным.

SUMMARY

BACTERIOLISYS-AS AN INDICATION OF SPECIFIC ANTIBODIES DIAGNOSTIC FOR BRUCELLOSIS

A.A. Aliyev

At present, the diagnosis of brucellosis, we propose to use the triad "ABNUREL" based on a search for Brucella, but not specific antibodies. During the studies, it was noted that a single brucellosis antigen even when boiled for 3 - hours do not lose the properties to form antibodies. With an increase in the virulence of Brucella increases during the formation of antibodies. The antigen, when the body along with the meat and milk, promotes the development of specific antibodies, and this leads to the fact that people are treated against brucellosis, and animals subjected to the forced slaughter. The reaction between an antigen and an antibody called bacteriolysis, this reaction can not be used as a control in diagnostic reactions, as an indicator of morbidity in this reaction is a function of antibodies in the lysis of the antigen. It is a measure of immunity, and not an indicator of susceptibility. The absence of antibodies in the serum of rabbits to the introduction of sediment formed after 20 h by RA in diagnostic titre, this is a confirmation. The diagnosis of brucellosis is considered established after isolation of pure cultures of Brucella, the limit control and experimental tubes isolated culture is identical to the standard brucellosis antigen. That is, in both test tubes with negative serum is a clear negative, positive (hyperimmune) syvyrotkoy turns visible ring (precipitation), sediment falls to the bottom of the tube and the result is conventionally called the reaction "ABNUREL" is positive.

Daxil olub:11.04.2011

UŞAQLIĞIN ÜZƏRİNDƏ ÇAPIĞI OLAN HAMİLƏLƏRİN APARILMA TAKTİKASI

Z.M. Topçubaşova, N.M. Kamilova, T.F. Cəfərova, S.S. Səfərova, S.A. Mürsəlova, A.N.Abdinova

Azərbaycan Tibb Universiteti, Bakı

Keysəriyyə kəsiyi (KK) son illər mamalıqda ən geniş yayılmış əməliyyatdır [6,11,13]. KK tezliyi azalma tendensiyasına uğramır və müxtəlif müəlliflərin göstəricilərinə görə 11%-dən 29%-ə qədər təşkil edir, mamalıq patologiyalarının kollektoru olan doğuşa yardım müəssisələrində 40%-ə və daha artıq göstəricilərə çatır [1,3,12].

Son illərdə dünya üzrə doğuşların təbii yolla aparılması tendensiyası yüksəlir, bu da KK aparılan qadınlarda bütün göstərişlərin və hərtərəfli müayinələrin yerinə yetirilməsindən sonra məqsədəuyğun hesab olunur. Uşaqlığın üzərində çapığı olan qadınlarda doğuşun təbii yollarla aparılması məsələsini həll edərkən aşağıdakı göstərişləri nəzərə almaq lazımdır:

-əvvəlki əməliyyatın göstəriciləri (xəstəlik tarixindən çıxarış

-dinamikada uşaqlığın üzərində çapığın tədqiqinin nəticələri (hamiləliyə qədər və hamilələlik zamanı)

-əməliyyatdan sonra və hal-hazırki hamilələlik arasında baş verən hamiləliklərin sayı (onların nəticələri və mümkün ağırlaşmalar nəzərə alınır)

-hal-hazırki hamiləliyin gedişi (ağırlaşmalar) [2,4,5,14,15]

Təbii yolla doğuşu uşaqlığın üzərində çapığı olan qadınlarda aşağıdakı hallarda aparmaq olar:

- vaxtı bitmiş hamilələlik

-uşaqlığın aşağı seqmentində aparılan, əməliyyatdan sonrakı dövrü ağırlaşmamış olan yeganə kesar kəsiyi

-dölün çox böyük olmayan çəkisi (3500 q artıq olmayan)

-dölün baş gəlişi

-ciftin çapıqdan kənar lokalizə olması

-çapığın əlatlərlə sübüt olunmuş tamlığı

-təkrar əməliyyatın aparılmasına başqa göstərişlərin olmaması [3,7,10,16]

Toxumaların yaxşı regenerasiyası və çapığın tam aradan qaldırılması üçün əsas meyarlar optimal qan təchizatının təmin olunmasıdır ki, bu da tikiş nahiyəsində işemiyanın və hipoksiyanın, minimal iltihabi reaksiyanın inkişaf ehtimalını azaldır [7,10,12].

Hal-hazırda çapığın tamlığının qiymətləndirilməsi üçün hamiləlik zamanı kliniki-anamnestik göstəricilərdn geniş istifadə olunur. Rentgenoloji və endoskopik müayinələrin hamiləlik zamanı aparılmasına əks göstərişlərin olduğu üçün USM indiki vaxtda uşaqlığın aşağı seqmentinin qiymətləndirilməsində yeganə əlverişli üsuludur.

Uşaqlığın üzərində çapığı olan hamilələrdə əməliyyata uğramamış uşaqlıqla müqayisədə operativ müdaxiləyə məruz qalmış aşağı seqmentin orta hissəsində yalnız miometrium nazikləşmişdir. Hamilələrdə KK sonra uşaqlığın üzərində çapığın vəziyyəti bu zonada olan reparativ proseslərin təsiri altında formalaşır, bunlar da angeogenezin intensivliyindən bilavasitə asılıdırlar. Elmi tədqiqatlarda təyin olunmuşdur ki, çapıq zonasında kollagen liflərin üstünlük təşkil etməsi miometriumun radial arteriyalarının qan axarında yüksək təziqin əmələ gəlməsinə zəmin yaradır. Əksinə belə lifləri az olan çapıqlarda fibroblastlar və fibrositlər daha çox nəzə çarpır [3,5,8].

Krasnopolskiy V.İ. və Loqutova L.S. (2005) verdikləri göstəricilərə görə, orta hesabla 100% qadınlar abdominal doğuşdan sonra gələcəkdə yenə uşaq əldə etmək planlaşdırırlar. Uşaqlığın üzərində çapığı olan qadınlarda gələcək hamiləliyə hazırlıq mərhələsi qadın məsləhətxanasında keçməlidir. KK sonra ilk bir il ərzində ağırlaşmaların və ginekoloji xəstəliklərin yüksək tezliyini nəzərə alaraq (30,6%) biz tərəfdən qadın məsləhətxanası şəraitində abdominal doğuşdan sonra 64 pasiyentin kompleks kliniki laborator müayinəsi və nəzərəti aparılmışdır.

Bütün pasiyentlər doğum evindən çıxarılandan sonra 10 gün ərzində qadın məsləhətxanasında dispanser nəzarətə götürülmüşlər və 2 il bu nəzarətdə saxlanılmışlar. İlk 2 ay ərzində müayinə 10-14 gündən bir dəfə keçirilirdi. Bu da həmin dövrdə qanaxma, irinli septiki ağırlaşmalar, uşaqlığın üzərində tikişlərin natamamlığı kimi ağırlaşmaların yüksək tezliyi ilə əsaslanır. Sonradan pasiyentlər ehtiyac əmələ gəldikdə və planlı sürətdə qadın məsləhətxanasına 3 ayda 1 dəfə 1 il ərzində gəlirdilər.

Planlı qospitalizasiya belə hamilələrdə 37-38 həftələrdə aparılırdı. Doğuş üsulunun seçimi həkim konsiliumunda təyin olunurdu. Təbii yolla doğuşa 64 pasiyent planlaşdırılmışdır, lakin sərbəst doğuş 53 qadında baş verdi, bu da 81,9% təşkil etdi, vaxtında doğuş 44 pasiyentdə baş verdi, vaxtından əvvəl – 9, qalan 11(18,1%) qadında ekstren surətdə abdominal doğuş mamalıq göstərişlərinə uyğun olaraq aparılmışdır. Təbii yolla doğuş zamanı müddət 12 saatdan 14 saat 10 dəq təşkil etdi, susuz dövür 5 saatdan 9 saata qədər təşkil etdi. Bütün hallarda əməliyyatdan sonrakı və doğuşdan sonrakı dövrlər normal keçmişdir. 64 sağ uşaq doğuldu, 52 kafi vəziyyətdə, Apqar şkalası ilə ağır asfiksiyada - 3(4,6%). 4 uşaqda 32-34 həftəlik hestasion dövrlərdə reanimasion tədbirlər görüldü.

Ağırlaşmış zahılıq dövrü olan qadınları çapıqlarının morfoloji tədqiqatı zamanı sklerozun formalaşması fonunda xroniki iltihabi proses qeyd olunurdu. Birləşdirici toxumanın artıq dərəcədə əmələ gəlməsi təyin olundu. Beləliklə, uşaqlıqdaxili müdaxilələr, genital üzvlərin iltihabi xəstəlikləri, intra-və əməliyyatdan sonrakı ağırlaşmalar 1,5 dəfə uşaqlıq üzərində natamam çapığın formalaşma riskinin artırır, bu da uşaqlığın üzərində çapığı olan qadınlarda anamnezin daha dəqiq yığılmasını və doğuş üsulunun seçiminin analizini hərtərəfli aparmağı tələb edir.

Exoskopiyanın nəticələri morfoloji göstəricilərlə 82,5% hallarda üst-üstə düşdü. Aparılan tədqiqatlar göstərdi ki, bugünki gündə çapığın tamlığını təyin edən ən informativ kriterilər aşağıdakılardır: miometriumun strukturu, yüksək akustik sıxlığı olan sahələr, uşaqlıq seqmentini vaskulyarizasiyası. Səhfmüsbət nəticələr (qeyri-kafi exoqrafik parametrlərdə uşaqlığın üzərində çapıq morfoloji olaraq tamdır) 6,2% hallarda aşkar olunmuşdur.

Səhfmənfi nəticələrdə isə natamam çapıq uşaqlıq üzərində USM vasitəsi ilə 11,3% hallarda təyin olundu.

ƏDƏBİYYAT

1. Болвачева Е.В. Особенности течения беременности и родов у женщин с рубцом на матке: Автореф. дис… канд. мед. наук. М., 2007,19с.

2. Воронин К.В., Потапов В.О., Черненко Д.В. Прогноз родоразрешения у беременных с рубцом на матке после кесарева сечения //Медицинские перспективы, 2003, №2, с.80-84.

3. Габидулина Р.К. Рубец на матке после кесарева сечения: хирургические и диагностические аспекты: Автореф. дис… канд. мед. наук. Казань, 2004, 258с.

4. Горбачева А.В., Комиссарова Л.М., Васильченко О.Н. Влияет ли количество кесаревых сечений в анамнезе на течение последующей беременности, операции и послеоперационного периода? / 1 межрегион, форум «Мать и дитя»: тез. докл. Казань, 2007, с. 35-36.

5. Густоварова Т.А., Самедова Н.С., Щербакова О.Л. Консервативое родоразрешение беременных с оперированной маткой / 6 Российский научный форум «Мать и дитя»: тез.докл. М., 2004, с.64.

6. Стрижаков А.Н., Баев О.Р., Тимохина Т.Ф. и др.Динамика показаний и частота операции кесарева сечения в современном акушерстве / 1 межрегиональный форум «Мать и дитя»: тез. докл. Казань, 2007, с.147-148

7. Иванова О.Г., Шалина Р.И., Курцер М.А. и др. Кесарево сечение в анамнезе. Выбор метода родоразрешения // Акуш. и гин., 2003, №2, с.29-32.

8. Крамарский В.А. Целесообразность индивидуального выбора методики кесарева сечения при различных видах акушерской ситуации: Автореф. дис… д-ра. мед. наук. Челябинск, 2003, 38с.

9. Макаров И.О. Особенности беременности и родов при наличии рубца на матке, 2007, http://www.art-med.rll/al1;icles/list/artl66.asp.

10. Ландеховский Ю.Д., Комисарова Л.М.,. Фролова О.Г и др Национальный стандарт. Протокол ведения больных «Кесарево сечение» / 1 межрегиональный форум «Мать и дитя»: тез. докл. Казань, 2007, с. 9091.

11. Савельева Г.М. Кесарево сечение в современном акушерстве. Снижение материнской и перинатальной смертности и заболеваемости / 9 Российский научный форум «Мать и дитя»: тез. докл. М., 2007, с.217-218.

12. Стрижаков А.Н., Кузьмина Т.Е. Беременность после кесарева сечения: течение, осложнения, исходы / Вопросы гинекологии, акушерства и перинатологии, 2002, №2, с.40-46.

13. Чернуха Е.А. Какова оптимальная частота кесарева сечения в современном акушерстве? // Акуш. и гин., 2005, №5, с.8-12.

14. Lieberman E. Risk faktors for uterine rupture during a trial of labor after cesarean // Clin. Obstet. Gynecol., 2001, v.44 N 3, p. 609-621.

15. Smith W.J., Blackmore C.C. Economic analyses in obstetrics and gynaecology: a methodological evaluation of the literature // Obstet. Gynecol., 1998, N91, p. 472-478.

16. Zelop C.M., Shipp T.D., Repke J.T. et al. Outcomes of trial of labor following previous cesarean delivery among women with fetuses weighing >4000 g. //Am. J. Obstet. Gynecol., 2001, v.186(5), p. 1104-5

РЕЗЮМЕ

ТАКТИКА ВЕДЕНИЯ БЕРЕМЕННЫХ С РУБЦАМИ НА МАТКЕ

З.М.Топчибашева, Н.М.Камилова, Т.Ф.Джафарова, С.С.Сафарова, С.А.Мурсалова, А.Н.Абдинова

Последние года не отмечается тенденция уменьшения количественных показателей кесарева сечения. Частота этих операций колеблется от 11% до 29%. Проведенные исследования показали, что на сегодняшний день информативными критериями рубцов на матке после кесарево сечения являются следующие: структура миометрии, участки с высокими акустическими плотностями, васкуляризация сегмента матки.

SUMMARY

TACTICS FOR PREGNANT WOMEN WITH A UTERINE SCAR

Z.M.Topchibasheva, N.M.Kamilova, T.F.Jafarova, S.S.Safarova, S.A.Mursalova, A.N.Abdinova

Last year did not reduce the tendency of quantitative indicators of cesarean section. The frequency of these operations varies from 11% to 29%. Studies have shown that to date, informative criteria of scarring of the uterus after cesarean section are the following: the structure of the myometrium, areas with high densities of acoustic, vascularization of a segment of the uterus.

Daxil olub:11.04.2011

QAMMALON ALMAMIŞ VƏ ALMIŞ HEYVANLAR TOTAL YUXU DEPRİVASİYASINA MƏRUZ QALDIQDA BAŞ BEYNİN NEYRON VƏ SİNAPSLARININ ULTRAQURULUŞUNDA VƏ DABRANIŞ REAKSİYALARINDA DƏYİŞİKLİKLƏR

B.M.Abuşov

Azərbaycan MEA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutu, Bakı

Yuxu orqanizmin enerji balansını, toxuma və hüceyrələrin strukturunun bərpasını təmin etməklə hemostazın sabit saxlanmasına xeyli köməklik göstərir, bütövlükdə fəal qoruyucu-uyğunlaşma funksiyası daşıyan həyati əhəmiyyətli, təbii-fizioloji mürəkkəb prosesdir [1,7,8]. Yuxu pozulan zaman mərkəzi sinir sistemində (MSS-də) əmələ gələn morfofunksional dəyişikliklərin öyrənilməsi və bu dəyişikliklərin qarşısının alınma yollarının aranması müasir neyrobiologiya və tibb elminin ən aktual problemlərindəndir. Yuxu pozulan zaman MSS-də baş verən dəyişikliklərin üyrənilməsi üçün yuxu deprivasiyası olduqca əlverişli üsul hesab olunur [6].

Qeyd olunanları nəzərə alaraq, hazırkı tədqiqatımızı qammalon preparatı almamış və almış heyvanlar 96 saat total yuxu deprivasiyasına (TYD-yə) məruz qaldıqda hipokampın CA_1 sahəsinin neyron və sinapslarının ultrastrukturunda və onların davranış reaksiyalarında (rearinq və qruminq aktlarının miqdarında) baş verən dəyişikliklərin araşdırılmasına həsr etmişik.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Tədqiqatlar Vistar xəttindən olan cinsi yetkinlik dövrünə çatmış erkək, 220-230 q ilkin kütləyə malik siçovullar üzərində aparılmışdır. Heyvanlar 2 qrupa, hər qrup hərəsində 10 siçovul olmaqla 2 yarımqrupa ayrılmışlar. Hər qrupun birinci yarımqrupu normal yuxu rejimində saxlanmış və kontrol kimi öyrənilmişlər. Birinci qrupun ikinci yarımqrupu qammalon almadan, ikinci qrupun ikinci yarımqrupu isə 14 sutka 24 mq /100q dozada qammalon aldıqdan sonra 96 saat TYD-yə məruz qoyulmuşlar. TYD-yə vaxtaşırı heyvanların burun nahiyəsinə yumşaq fırça ilə ehmalca toxunmaqla və yerləşdirildikləri qəfəsi yungülcə silkələməklə nail olunmuşdur. Həm kontrol, həm də təcrübə qruplarda TYD-nin 95-96-cı saatlarında (2 saat ərzində) rearinq və qruminq aktlarının miqdarı qeydə alınmışdır. Təcrübələr başa çatdıqdan sonra heyvanlar qlütaraldehid və paraformaldehidin fosfat buferində məhlulu ilə perfuziya olunmuş və beyinləri OsO_4-lə fiksə edilmişlər. Nümunələr hipokampın CA_1 sahəsindən götürülmüş, elektron mikroskopik tədqiqatlar ümumi qayda üzrə aparılmışdır. Tədqiqat obyekti olan strukturun 0,01mm^2 toxumasında normal ultraquruluşunu saxlamış və submikroskopik dəyişikliklərə uğramış neyronların miqdarı müəyyənləşdirilmiş. Statistik analiz Excel 2003 proqramı paketindən istifadə olunmaqla variasiya statistikası qaydası ilə aparılmışdır. Qruplararası fərqin etibarlılığı Styudentin t-kriteriyasından [3] istifadə olunmaqla hesablanmışdır.

ALINMIŞ FAKTLAR VƏ ONLARIN MÜZAKİRƏSİ. Qammalon almamış, lakin 96 saat TYD şəraitində saxlanmış heyvanlarda təcrübələrin 95-96-cı saatlarında kontrol siçovullarla müqayisədə ümumi halsızşıq nəzərə çarpır, rearinq və qruminq aktları qeydə alınmır. Bu heyvanların hipokampının CA_1 sahəsində normal ultrastrukturunu saxlamış neyron və sinapslarla bərabər, həm də submikroskopik dəyişikliklərə uğramış hüceyrələrə və sinaptik əlaqələrə rast gəlinin. Qeyd etmək lazımdır ki, submikroskopik dəyişikliklər bəzi neyron və sinapslarda reparativ, digərlərində isə distrofik xarakter daşıyır.



Şək.1. 14 sutka qammalon aldıqdan sonra 96 saat TYD- yə məruz qalmış siçovulun hipokampının CA1 sahəsində reparativ regenerasiyaya uğramış orta diametrli piramidaşəkilli neyron. 8000 dəfə böyüdülmüş



Şək.2. 14 sutka qammalon aldıqdan sonra 96 saat TYD-yə məruz qalmış siçovulun hipokampının CA_1 sahəsində distrofik dəyişikliklərə uğramış orta diametrli piramidaşəkilli neyrondan bir fraqment. 26 000 dəfə böyüdülmüşdür.

Reparativ dəyişikliklər neyron və sinapslarda, bir qayda olaraq, sitoplazmatik orqanellərin hiperplaziyası şəklində meydana çıxır. Reparativ dəyişikliklərə uğramış neyronlarda nüvə aparatının fəallaşması (nüvə və nüvəciyin ektopiyası, kariolemma əyilmələrinin sayının və karioplazmada xromatin maddəsinin miqdarının artması və s.) mitoxondrilərin, danəli endoplazmatik şəbəkə kanalcıqlarının, ribosomların, Holci aparatının və s. orqanellərin sayının artması ilə müşayiət olunur

(Şək.1). Reparativ dəyişikliklərə uğramış sinapslar arasında həm aksodendritik, həm də aksosomatik sinapslara rast gəlinir. Bəzi presinaptik aksonlarda sinaps qovuqcuqlarının sayının artması ilə bərabər, bir qrup qovuqcuğun həcmi qismən böyüyür. Həcmi böyümüş sinaps qovuqcuqları, bir qayda olaraq, "şəffaf" orqanellərdir. Reparativ dəyişikliklərə uğramış sinapslarda sinaptik membranın fəal sahəsi böyüyür, osmiofilliyi yüksəlir, postsinaptik membran qismən qalınlaşır, sinaps yarığı bir qədər daralır (Şək. 2).



Şək. 3. 14 sutka qammalon aldıqdan sonra 96 saat TYD-yə məruz qalmış siçovulun hipokampının CA_1 sahəsində distrofik dəyişikliklərə uğramış orta diametrli piramidaşəkilli neyrondan bir fraqment15 000 dəfə böyüdülmüşdür.



Şək.4. 14 sutka qammalon aldıqdan sonra 96 saat TYD-yə məruz qalmış siçovulun hipokampının CA_1 sahəsində distrofik dəyişikliklərə uğramış aksodendritik sinaps. 35 000 dəfə böyüdülmüşdür.

Qammalon almış və sonra 96 saat TYD-yə məruz qalmış heyvanlarda rearinq və qruminq aktlarının miqdarı kontrol siçovullarla müqayisədə xeyli azalır [kontrol heyvanlarda qruminq və rearina aktlarının miqdarı 4,0±0,2 və 4,9±0,2 təşkil edir ($p<0,001$), təcrübə heyvanlarında bu göstəricilər uyğun olaraq 2,1±0,2 və 2,3±0,2-yə bərabərdir ($p<0,001$)]. Bu heyvanlarda da reparativ və distrofik dəyişikliklərə uğramış neyronlar nəzərə çarpır (cədvəl). Lakin cədvəldən göründüyü kimi, qammalon almamışlarla müqayisədə bu preparatı almış heyvanların hipokampının CA_1 sahəsində reparativ proseslər xeyli neyronu əhatə edir və distrofik dəyişiklikərə uğramış neyronların miqdarı 3 dəfə az olur. Normal ultraquruluşunu saxlamış neyronların da miqdarı qammalon almış heyvanlarda daha çoxdur (cədvəl). Qammalon almamış heyvanlarla müqayisədə bu preparatı almış heyvanlarda distrofik dəyişikliklərə uğramış sinapsların miqdarı xeyli çoxdur. Distrofik dəyişikliklərə uğramış sinapsların pre- və postsinaptik qütblərində sitoplazmatik orqanellərin sayı kontrol heyvanlarla müqayisədə xeyli azalır. Bundan əlavə, pre- və postsinaptik hissələrdə müxtəlif həcmli vakuollar görünür. Lakin qeyd etmək lazımdır ki, qammalon almamışlarla müqayisədə bu preparatı almış heyvanların sinapslarında vakuolizasiya prosesi xeyli zəifdir. Distrofik dəyişikliklərə uğramış sinapslar arasında həm aksodendritik, həm də aksosomatik əlaqələrə rast gəlinir, lakin ultrastrukturu pozulmuş aksodendritik sinapsların sayı dəfələrlə çoxdur. Bəzi aksodendritik sinapsların presinaptik aksonlarında sinaps qovuqcuqlarının sayı azalır, postsinaptik dendritlərdə mitoxondrilərin bir qismi hipertrofiyaya uğrayır. Belə mitoxondrilərin bir neçə kristi genişlənərək vakuola çevrilir (Şək. 4).

Qammalon almamış və almış heyvanlarda distrofik dəyişikliklərə uğramış aksodendritik sinapsların postsinaptik dendritləri, adətən, orta diametrli (II-III dərəcəli) dendrit şaxələri, aksosomatik sinapsların postsinaptik komponentləri isə orta ölçülü (20-30 mkm diametrə malik) neyronların cisimidir.

Beləliklə, 14 sutka 24 mq/100g dozada qammalon aldıqdan sonra 96 saat TYD-yə məruz qalmış siçovulların hipokampının CA_1 sahəsinin neyron və sinapslarında reparativ proseslərin xeyli intensiv, distrofik proseslərin isə zəif olduğu və davranış reaksiyalarının zəifləsə də qammalon almamış heyvanlarda olduğu kimi tam pozulmaması diqqəti cəlb edir. Neyron və sinapslarda reparativ

proseslərin yüksək intensivliyi, görünür, qammalonun sinir toxumasında mübadilə proseslərinə sürətləndirici təsir göstərməsi ilə əlaqədardır. Reparativ proseslərin intensivləşməsi distrofik proseslərin üzə çıxmasının qarşısını xeyli almaqla, hipokampın CA_1 sahəsində distrofik dəyişikliklərə uğramış neyron və sinapsların miqdarının az olmasına səbəb olur. Bizim morfofunksional tədqiqatlarımızın nəticələri digər tədqiqatşıların [2,4,5] biokimyəvi araşdırmalarının nəticələri ilə üst-üstə düşür.

Cədvəl

Qammalon almamış və bu preparatı almış (14 sutka, 24 mq /100 q dozada) heyvanların 96 saat total yuxu deprivasiyasına məruz qaldığı şəraitdə hipokampının CA_1 sahəsinin 0,01 mm^2 toxumasında normal ultraqurtuluşunu saxlamış və submikroskopik dəyişikliklərə uğramış neyronmarın miqdarı

Stat. göstə ricilər	Qammalon almamış, lakin 96 saat total yuxu deprivasiyasına məruz qalmış heyvanlar						Qammalon almış və 96 saat total yuxu deprivasiyasına məruz qalmış heyvanlar					
	Normal neyronlar		Reparativ dəyişikliklərə uğramış neyron lar		Distrofik dəyişikliklərə uğramış neyronlar		Normal neyronlar		Reparativ dəyişikliklərə uğramış neyronlar		Distrofik dəyişik liklərə uğramış neyronlar	
n M±m p	Kont.	Təcrübə	Kont	Təcr.	Kont	Təcrüb.	Kon t	Təcrüb	Kon	Təcrüb.	Kon	Təcrüb
	10 54,1± 0,4	10 28±0,2 < 0,001	100	100	100	10 36±0,2 < 0,001	10 53,8 ±04	10 32±0,3 <0,001	100	10 10±0,2 < 0,001	100	10 12±0,2 < 0,001

YEKUN. Əvvəlcədən 14 sutka qammalon almış heyvanlar 96 saat davam edən TYD-yə məruz qaldıqda baş beynin neyron və sinapslarında reparativ proseslərin intensivləşməsi sayəsində distrofik dəyişikliklərə uğramış heyronların miqdarının 66,7% az olması TYD zamanı bu preparatın yüksək kompensator effektə malık olmasına dəlalət edir. Gammalon TYD şəraitində MSS-də "qoruyucu" ləngimə yaratmaqla sinir hüceyrələrini və sinapsları mühafizə edir və nəticədə beynin, bütövlükdə orqanizmin mühitə kompensator-uyğunlaşma reaksiyalarında iştirak edir.

Beləliklə, qammalon TYD şəraitində MSS-də əmələ gələn distrofik dəyişikliklərin qarşısını almaq məqsədilə yüksək effektə malik preparat kimi tətbiq oluna bilər.

ƏDƏBİYYAT

1. Вейн А.М., Хехт К. Сон человека. Физиология и пато-логия. М.: Медицина, 1989, 272с.
2. Джафарова Н.М. Влияние гаммалона на обмен ГАМК в ЦНС при воздействии неионизирующего дециметрового ЭМИ высокой интенсивности // Соврем. достижен. Азерб. мед., 2009, № 1, с. 84-89
3. Лакин Г.Ф. Биометрия. М.: Высшая школа, 1990, 293с.
4. Сафаров М.И. Роль гамма-аминомасляной кислоты (ГАМК) в центральных механизмах адаптации на экстремальные воздействия // Известия АН Азерб. ССР. Серия биол. наук,1987, №2, с.116-122.
5.
5. Сафаров М.И. Обмен гамма-аминомасляной кислоты в постнатальном развитии мозга при экстремальнхых состояниях организма. Баку: Азернешр, 2008, 220с.
6. Элиава М.И., Аристакесян Е.А. Эффекты шестичасовой то-тальной депривации сна на цикл бодрствование-сон крыс в разные сроки онтогенеза // Ж. эвол. биохим. и физиол., 1998, т. 34, № 2, с. 202-211
7. Feinberg I., Campbell I.G. Cerebral metabolism and sleep homeostasis: A comment on Vyazovskiy et al. // Brain Res. Bull., 2010, v. 81, N 1, p. 1-2
8. Samuels C.M. Sleep, Recovery, and Performance: The New Frontier in High-Performance Athletics // Neurol. Clin., 2008. v. 26, N 1, p.169-180.

РЕЗЮМЕ

ИЗМЕНЕНИЯ УЛТРАСТРУКТУРЫ НЕЙРОНОВ И СИНАПСОВ И ПОВЕДЕНЧЕСКИХ РЕАКЦИЙ ПРИ ТОТАЛНОЙ ДЕПРИВАЦИИ СНА У КРЫС НЕПОЛУЧАВШИХ И ПОЛУЧАВШИХ ГАММАЛОНА

В.М.Абушов

Статья посвящена сравнительному анализу морфофункциональных изменений поля CA_1 гиппокампа у животных получавших и неполучавших гаммалон на фоне 96-часовой тотальной депривации сна (ТДС). Установлено, что гаммалон в нейронах и синапсах ускоряя репаративные процессы предотвращает развитие дистрофических процессов в ходе действия мощного стрессорного фактора - ТДС и этим тормозит генерацию функциональных нарушений. На основании этих фактов,

можно гаммалон рекомендовать как препарат против развития морфофункциональных нарушений при различных формах бессонницы.

SUMMARY

MORPHOFUNCTIONAL CHANGEZ IN CA_1 FIELD OF HIPPOCAMPUS OF GAMMALONE-TREATED AND GAMMALON-UNTREATED WHIT RATS UNDER TOTAL SLEEP DEPRIVAION

B.M.Abushov

The present paper is concerned comparative analysis of morphofunctional changes in CA_1 field of hippocampus of qammalone-treated and qammalone-untreated animals under 96-hour total sleep deprivation (TSD). It has been revealed that gammalone elevating reparative processes in the neurons prevents the course of strong stress factor influence – TSD and this way inhibits the generation of functional disturbances. On the basis of the data gammalone can be recommend as a preparate against development of morphofunctional disturbances under various forms of sleeplessness.

Daxil olub:05.05.2011

ПРИРОДНЫЙ ЦЕОЛИТ И ЕГО ИЗБИРАТЕЛЬНЫЕ АДСОРБЦИОННЫЕ ВОЗМОЖНОСТИ ОТНОСИТЕЛЬНО БАКТЕРИАЛЬНОЙ ФЛОРЫ

Л.Ф.Рзаева, Т.Ш.Халилова, Ф.Э.Садыхова

Азербайджанский Государственный институт усовершенствования врачей им.А.А. Алиева;
Научно- производственная компания ООО "Yem tex"

Одной из актуальных проблем инфекционной патологии человека является нарушения нормальной флоры различных биоценозов организма. Среди них, безусловно превалируют поражения микрофлоры кишечника.

Стойкие нарушения микробных ценозов называют дисбактериозами (дисмикробиоценозами) или дисбиозами, что обусловливается длительно протекающими инфекциями, дисфункции желудочно- кишечного тракта (ЖКТ) на фоне или после проведенной антибиотикотерапии [1].

претерпевала особых сдвигов в течение всего послеоперационного периода, а ионов хлора было сниженным по сравнению с исходными данными. Представленные результаты наблюдений за состоянием электролитного обмена у больных в послеоперационном периоде позволяют сделать заключение, что наибольшие и серьезные изменения касались концентраций калия и натрия.




Рис.2. Динамика содержания калия в плазме крови (ммоль/л)



Рис.3. Динамика содержания натрия в плазме крови (ммоль/л)

В основном группе содержание калия в плазме крови через сутки (II этап) имело лишь тенденцию к снижению с исходных 3,49±0,04 до 3,35±0,08 ммоль/л (p >0,05). В дальнейшем послеоперационном периоде концентрация калия и натрия не претерпевала особых изменений (рис.2-3.). Стабильными оставались такие параметры ионов кальция и хлора, хотя последний был снижен к моменту выписки больных из стационара (по сравнению с исходными данными), но его концентрация (102,47±1,62 ммоль/л) не выходила за пределы нормы.

Изучение воздействия интрасосудистой озонооксигенации на течение послеоперационного периода показало достоверные различия в частоте развития послеоперационных осложнений. В основной группе ранние послеоперационные осложнения были выявлены у 5 (7%) больных: 2 (2,8%) – краевой некроз аутотрансплантата, у одного (1,4%) – лигатурный свищ в области послеоперационного рубца на передней стенке животе, у 2 (2,8%) – нагноение раны. В группе сравнения ранние послеоперационные осложнения возникли у 14 (17,5%) больных: у 11 (13,7%) некроз аутотрансплантата, у 3 (3,75%) – нагноение раны на 80 операций.

Полученные результаты указывают на то, что эффект озонооксигенации в профилактике послеоперационных осложнений реализовался преимущественно за счёт уменьшения случаев необратимых нарушений кровоснабжения в пересаженных тканях в 5 раз.

ЛИТЕРАТУРЫ

1. Алекберов Д.Г. Новые технологии в программе коррекции кроволимфообращения при пластической хирургии молочной железы: Автореф. Дис… канд. … мед. наук. Казань., 2009, 25 с.

2. Альбертон И.Н. Лимфовенозные анастамозы при лимфэдеме нижних конечностей: Автореф. Дис. … канд. мед. наук. М., 1981, 22 с.

3. Головин Г.В. Нарушения реологических свойств крови и микроциркуляции у хирургических больных / Г. В. Головин // Вестник хирургии, 2007, №12, с. 95-99.

XÜLASƏ

SÜD VƏZİSİNİN PLASTİK CƏRRAHİYYƏSİ ZAMANI QANIN MAYE TƏRKİBİNİN KORREKSİYASINDA YENİ TEXNOLOJİ PROQRAM

C.H. Ələkbərov, V.P.Potanin

Mammoplastika olunmuş xəstələrdə əzələ loskutların nekrozu kimi ağırlaşmaların əmələ gəlmə tezliyi 30% - ə qədər təşkil edir ki, bununda əsas səbəbi hemoreoloji pozğunluqlardır. Aparılan işin məqsədi süd vəzilərdə aparılmış plastik əməliyyatların nəticələrini (151 xəstədə) qanın maye tərkibini korreksiya etməklə yaxşılaşdırmaqdır. Mammoplastika olunmuş 71 xəstəyə əməliyyatdan sonra venadaxili ozonoterapiya tetbiq edilmiş və qanın reoloji xüsusiyyətləri öyrənilmişdir. Alınmış nəticələrin analizindən aydın olur ki, əməliyyatdan sonra ozonoterapiya almış xəstələrdə qanın maye tərkibi tez bərpa olur, ağirlaşmalar isə standart müalicə almış xəstələrlə müqayisədə 2,5 dəfə, əzələ loskutların nekrozu isə 5 dəfə az rast gəlinir.

SUMMARY

NEW TECHNOLOGIES IN THE PROGRAM THE CORRECTION OF THE LIQUID STATE OF BLOOD IN PLASTIC SURGERY OF THE BREAST

J.H. Alakbarov, V.P.Potanin

Patients with complications such as necrosis of the muscle flaps forming mammoplastic frequency of 30% - are up to that of the main reason for the hemorheology disorders. The purpose of the breast with the results of plastic operations (151 patients) to improve the blood by adjusting the composition of the liquid. Of the 71 patients after operation intravenous ozonotherapy mammoplastic rheology features have been applied and blood was studied. It is clear from the fluid content of blood after operation in patients who received ozonotherapy is restored quickly, the standard treatment for complications compared with patients who for received 2,5 times, flaps muscle necrosis can be less than 5 times.

Daxil olub:17.03.2011

CİVƏ KATODLU XLOR VƏ SODA İSTEHSALINDA ƏMƏK ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI VƏ PEŞƏ YÖNÜMLÜ XƏSTƏLİKLƏRİN PROFİLAKTİKASI

R.H.Əliyeva, S.Ə.Xəlilova

Azərbaycan Tibb Universiteti, V.Axundov adına Milli Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu, Bakı

Respublikanın əmək qabiliyyətli əhalisinin sağlamlağının mühafizəsi və möhkəmləndirilməsi əhalinin sağlamlığının mühafizəsi istiqamətində dövlətin pritoritetlər məsələlərindən biridir. İşçilərin səhhətinə təsir edən ən vacib faktorlar əməyin təşkili, əmək şəraiti və əmək rejimindən ibarətdir.

Civə- elektroliz metodu ilə əldə olunan xlor və sodanın istehsalı sahəsi təkcə Respublikanın tələbatını təmin etmir, həm də xarici ölkələrə ixrac olunur. İstahsalat mühitinin və əmək prosesləri faktorlarının öyranilməsi zamanı orqanizmə kompleks təsirin imkanlarını hərtərəfli nəzərə almaq mümkün olmur. Bununla əlaqədar olaraq peşə xəstəliklərin və ya peşə zərərləri ilə şərtlənən xəstəliklərin öyrənilməsi aktual problem olaraq qalmaqdadır [5,1,4].

Belə ki, qeyd olunan müəlliflər tərəfindən peşə yönümlü xəstəliklərin profilaktikası üçün fərdi rezistentlik, ərazinin iqlim- coğrafi xüsusiyyətləri, ekzogen və endogen faktorların təsir riskinin xarakteri, peşə zərərlərinin təsir dərəcəsi nəzərə alınmaqla yeni ekoloji- genetik sistem təklif olunur.

Aparıcı Rusiya alimləri [4,1] və başqaları peşə risklərinin orqanizmə təsirini və peşə xəstəliklərinin inkişafını qiymətləndirərək qeyd edirlər ki, təkcə peşə xəstəlikləri deyil, həm də peşə yönümlü xəstəliklərin yaranmasıda istehsalat faktorları ilə yanaşı ətraf mühit faktorunun da az "əməyi" olmamışdır.

Yuxarıdakıları nəzərə alaraq bu tədqiqat işində işçilərin xəstələnmə dərəcəsinin azaldılmasına və sağlam əmək şəraitinin yaradılmasına yönələn adekvat tibbi- profilaktik tədbirlərin elmi cəhətdən əsaslandıdırlması qarşıya MƏQSƏD qoyulmuşdur.

TƏDQIQATIN MATERAIL VƏ METODLARI. Tədqiqatın obyekti qismində işçi kontingenti- öyrənilən istehsalat sahəsinin müxtəlif sexlərində işləyən kişilər seçilmişdir. Nəzarət qrupunu istilik elektrik mərkəzində işləyən işçilər təşkil etmişdir. əmək prosesinin faktor şəraitinin gigiyenik qiymətləndirilməsi P 2.2.755-99 Rəhbərliyinə əsasən aparılmaşdır, xüsusi formul üzrə kimyəvi maddələrin gigiyenik təhlükəsinin inteqral indeksi hesablanmışdır [4].

Səhhətin vəziyyəti 2003-2005- ci illərdə aparılan dövrü tibbi baxışların göstəriciləri əsasında öyrənilmişdir.

Materialların statistik emalı unifakasiya edilmiş proqram və "Statistika" proqramları üzrə İBM tipli personal kompüterdə aparılmışdır.

NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. Yuarıda qeyd olunan istehsalat sahəsində işçi kontingentinə istehsalat zərərlərinin və peşə təhlükəsinin çoxfaktorlu kompleks təsiri baş verir. Bu zaman patologiyaların formalaşması üsulları cənub iqlimdə yaşayanlarla sərt iqlimi olan şimal iqlimdə yaşayan işçi kontingentində fərqli olur.

Tərəfimizdən sözügedən istehsalat sahəsində əmək şəraitinə tətbiq olunan professional risk sxeminə uyğun olaraq [4] daha çox əhəmiyyət kəsb edən faktorların (mikroiqlim, küy, buxar-aerozol-qazyaradıcı toksik maddələrin vibrasiyası, ağırlıq, əmək gərginliyi) gigiyenik tədqiqi aparılmış, istehsalat baxımından şərtlənən xəstəliklərin mənzərəsi verilmişdir. Istilik elektrik mərkəzinin işçiləri müqayisə qrupu qismində istifadə olunmuşdur.

Işçi yerlərin hava mühitinin inteqral qiymətləndirilməsi üçün kimyəvi maddələrin real gigiyenik təhlükə inteqral indeksindən (MGTİ) istifadə olunmuşdur, bu indeks aşağıdakı formul üzrə hesablanmışdır [2].

MGTİ= K_{max}.P.K.

K_{Ma}- faktiki konsentrasiyanın PRK artımının maksimal dərəcəsi

P- həmin maddənin tərkibinin təyin olunması üzrə analizlərin ümumi sayının artan yol verilən konsentrasiya həddinin analız payı,%

K- maddələrin təhlükəli sinfinə gətirib çıxaran koefisienti

Müxtəlif kimyəvi maddələrin tərkibi üzrə (metallik civə, süleymani, xlorid turşusu, sulfat turşusu, qələvi natrium, oksid natrium hidratı, xörək duzu, qazabənzər xlor, xlorlu hidrogen, ammiak və s.) işçi yerlərin hava mühitinin təhlilindən məlum olmuşdur ki, birinci sinif maddələri üçün K = 2,6; ikinci sinif maddələri üçün K = 1,5; üçüncü sinif maddələri üçün K = 1; dördüncü sinif maddələri üçün K = 0,85 olmuşdur. Ümumilikdə bütün maddələrin summar təhlükəsi müqayisə qrupundan fərqli olaraq 2 dəfə artıq olmuşdur ki, bu da həmin istehsalat sahəsində çalışan işçilərin müəyyən kimyəvi yüklənməyə məruz qaldığını və onların səhhətinə mənfi təsir etdiyni göstərir.

Xlor və sodanın təhlükə və zərərinin dərəcəsi üzrə işçilərin əmək şəraitinin ümumi qiymətləndirilməsi üçün [6] "Əmək prosesinin istehsalat mühiti, ağırlıq və gərginliyi faktorlarının təhlükə və zərərlilik göstəriciləri üzrə əmək şəraitinin gigiyenik meyarların"dan istifadə olunmuşdur (P 2.2.755-99). Istehsalat faktorlarının kombinəolunmuş və qarışıq təsirləri nəzərə alınmaqla apparatçılar əmək şəraitinin 3- cü dərəcəsi 3- cü sinfinə aid edilmişlər, bu zaman peşə xəstəliklərinin qabarıq formalarının baş verə biləcəyi hesab olunur və xronik patologiyarın nəzərəçarpacaq dərəcədə artması və müvəqqəti olaraq əmək qabiliyyətinin itirilməsi ilə yüksək xəstələnmə dərəcəsi qeydə alınır.

Əmək şəraitinin 2- ci dərəcəsi 3- cü sinfinə operatorlar, çilingər- təmirçilər, maşinistlər aid edilmişlər, belə əmək şəraitində əmək fəaliyyəti zamanı professional patologiyanın yüngül forması inkişaf edə bilər, xronik ümumi somatik xəstəliklərin və xronik yorğunluq ilə xəstəlilklərin artması mümkündür.

2003- 2005- ci illərdə tibbi baxışların nəticələrinə əsasən məlum olmuşdur ki, aparıcı peşələrin əmək fəaliyyəti təkcə professional intoksikasiya deyil, həm də müxtəlif orqan və sistemlərdə xronik qeyri- spesifik xəstəliklərin yaranması ilə də müşayiət olunur. Belə xəstəliklər içərisində tənəffüs sistemi xəstəlikləri, sinir sistemi və lamisə orqanlarının xronik xəstəlikləri, qan- damar sistemi, əzələ-sümük sistemi, həzm sistemi və sidik- cinsiyyət üzvü xəstəlikləri aparıcı yerdədir. Xronik patologiyanın inkişafına istehsalat faktorlarının təsir payı 23,2 ± 25,0% təşkil edir. Işçilər arasında xronik xəstəliklərin yayılma dərəcəsi öyrənildikdə təyin olunmuşdur ki, daha çox rast gəlinən patologiyalar tənəffüs sistemi (100 işçiyə 19,5 ± 1,3); sinir sistemi xəstəlikləri, eləcə də xronik bel-sarğı radikuliti, vegetativ pozuntulu radikulitopatiya və s. (100 işçiyə 20,1 ± 1,5); qan- damar sistemi xəstəlikləri (100 işçiyə 16,1 ± 1,2); əzələ- sümük sistemi xəstəlikləri (100 işçiyə 15,8 ± 1,2; həzm sistemi xəstəlikləri (100 işçiyə 13,6 ± 1,0). Istilik elektrik mərkəzində işləyən müqayisə qrupunda bu və ya digər formalı patologiyalar əsas "risk faktorolar" – rejim, əmək şəraiti və xarakteri təsiri altında olan daha yüksək ağırlıq dərəcəsi ilə xarakterizə olunan işçilər arasında baş verir. Müqayisə olunan qruplarda xəstəlik strukturu fərqli xüsusiyyətlərə malikdir, təcrübəçi işçilərdə "sətəlcəm" xəstəliklərinin, əzələ- sümük sistemi xəstəliklərinin yüksək səviyyəsi diqqəti cəlb edir ki, bu da əldə olunan göstəricilərlə üst- üstə düşür [3]. Sosialoji sorğular zamanı bu peşə nümayəndələri səhhətləri ilə əlaqədar olaraq bir çox şikayətlərini bildirmişlər, iş stajı artdıqca xəstəliklərin sayı da artmışdır; şikayətlərin xarakteri müntəzəm tibbi baxışlar zamanı aşkar olunan xəstəliklərlə ust- üstə düşür və iş

yerlərində olan əmək prosesi və kompleks zərərli faktorların (fiziki, kimyəvi) mənfi təsirinin nəticəsi kimi nəzərdən keçirilə bilər. Peşə xəstəliklərinin inkişafında zərərli istehsalat faktorlarının etioloji payının qeyd olunan xəstəliklr arasında 32-73% təşkil etməsi diqqətəlayıq məsələdir.

Tədqiq olunan istehsalat sahəsində gigiyenik- epidemiololji materialların və tibbi statistik metodlar əsasında əldə olunan göstəricilərin əsasında aşağıdakı sağlamlıq tədbirlətinin tətbiq olunması tövsiyə olunur. Əmək potensialının mühafizə olunması üçün əməyin tam mexanikləşdirilməsi və avtomatlaşdırılması hesabına həmin istehsalat sahəsinin işçilərinin əmək şəraitinin yaxşılaşdırılması, ventilyasiyanın yaxşılaşdırılması və tibbi- profilaktik tədbirlərin, eləcə də işə götürüldükdə (ciddi şəkildə peşə seçimi ilə) və müntəzəm aparılan tibbi baxışların təkmilləşdirilməsi; orqanizmin müqavimətini artıran vasitələrin istifadə olunması (vitaminləşdirmə, az dozada biostimulyatorlar), antioksidant mühafizənin həyata keçirilməsi. Işçilərin peşə yönümlü xəstəlikləri riskindən mühafizəsi üçün pul ödənişləri, iş gününün qısaldılması, gücləndirilmiş reabilitasiya, rasional əmək və istirahət rejimlərinin əsaslandırılması, müalicəvi proqramlar əsasında əmək şəraiti və səhhətlərinin vəziyyətinin sosial- gigiyenik monitorinqinin həyata keçirilməsi və təkmilləşdirilməsi qismində sosial müdafiə zəmanətinin yüksəldilmsəsi.

Istehsalat mühitində və əmək prosesində zərərli faktorlatın olması istehsalatın təşkilinin xüsusiyyətləri, texnoloji proseslər, profilaktik tədbirlərin yerinə yetirilməsi üçün təhlükəsiz qaydalarının təmin olunması da daxil olmaqla mədəni istehsalatın dərəcəsi ilə təyin olunur. Işçilərin təlimatı- sanitar norma və qaydalarına əsasən yol verilən konsentraisyalara və yol verilən səviyyəyə riayət olunması, fərdi mühafizə üçün effektiv vasitələrin istifadə olunmasıdır.

YEKUN. Civə katodlu xlor və soda istehsalında istehsalat- peşə faktorları və əmək prosesləri müxtəlif sexlərin qeyri- bərabər kimyəvi yüklənməsinə səbəb olur və fiziki faktorlarla yanaşı işçilərin orqanizminə mənfi təsir göstərir ki, bu da peşə yönümlü xəstəliklərin strukturunda əks olunur və kompleks mexniki və tibbi- profilaktika tədbirlərin aparılmasını tələb edir.

ƏDƏBIYYAT

1. Артамонова В.Г. Актуальные проблемы диагностики и профилактика
2. профессиональных заболеваний // Медицина труда и промышленная экология, 1996, № 5, с.4-6
3. Галимов Р.Ш.Современные аспекты социально-гигиенического мони
4. торинга условий труда / Материалы I Всероссийского конгресса «Профессия и здоровье». М., 2002, с.53-54
5. Захаренков В.В., Панауотти Е.А. Оценка условий труда и риска для здоровья работников в основных цехах тепловых электростанций / Материалы I Всероссийского конгресса «Профессия и здоровье». М., 2006, с.151-152
6. Измеров Н.Ф., Денисов Э.И. Профессиональный риск для здоровья работников (руководство). М., 2003, с.214-227
7. Покровский В.И. Современные проблемы экологически и профессионально обусловленных заболеваний / Медицина труда и промышленная экология. М., 2003, № 1, с.2-6
8. Руководство Р 2.2.755-99.Гигиенические критерии оценки и классификация условий труда по показателям вредности и опасности факторов производственно среды, тяжести и напряженности трудового процесса. М.: Минздрав России, 1999
9. Федорова И.В. Дозо-эффективная зависимость распространенности хронических заболеваний у работающих как критерий оценки риска воздействия химических веществ // Материалы I Всероссийского конгресса «Профессия и здоровье». М., 2002, с.53-54

РЕЗЮМЕ

ОЗДОРОВЛЕНИЕ УСЛОВИЙ ТРУДА И ПРОФИЛАКТИКА ПРОФЕССИОНАЛЬНО-ОБУСЛОВЛЕННЫХ ЗАБОЛЕВАНИЙ В ПРОИЗВОДСТВЕ ХЛОРА И СОДЫ С РТУТНЫМ КАТОДОМ

Р.Х.Алиева, С.А.Халилова

В статье приводятся гигиено-эпидемиологические,медико-статистические исследования у работающих на производстве хлора и соды при южных климатических условиях. Результатами анализа проведенных исследований показано, что в отличие от контрольной группы, работающие на данном производстве, подвергаются химической нагрузке; при их сочетанном и комбинированном воздействии с этиологической долей влияния вредных производственных факторов (32-73%), приводит к развитию и росту хронической патологии различных органов и систем организма. Рекомендованы медико-профилактические мероприятия.

SUMMARY

IMPROVEMENT OF HEALTH AND PREVENTION OF PROFESSIONAL-RELATED DISEASES IN PRODUCTION OF CHLORINE AND SODA WITH A MERCURY CATHODE

R.Kh.Aliyeva, S.Y.Khaliova

The article presents the hygiene-epidemiological, medical and statistical studies have employed in the production of chlorine and sodium in the southern climates. Analysis results of the investigations showed that in contrast to the control group, working on this production, subjected to chemical stress, when combined, and the combined action of the etiologic fraction of harmful factors of production (32-73%), leads to the growth and development of various chronic diseases organs and body systems. Recommended by medical and preventive measures.

Daxil olub:11.04.2011

AÇIQ-ƏNƏNƏVİ ÜSULLA XOLESİSTEKTOMİYA ƏMƏLİYYATINA MƏRUZ QALMIŞ XƏSTƏLƏRİN KLİNİKİ MÜŞAHİDƏLƏRİNİN NƏTİCƏLƏRİ

Z.T. Şirinov, F.S. Idrisov

Akad. M.A. Topçubaşov dаına Elmi Cərrahiyyə Mərkəzi, Bakı

Öddaşı xəstəliy son zamanlar bütün dünyada, o cümlədən Azərbaycanda geniş yayılmış, dünya əhalisinin orta hesabla 10 % bu xəstəlikdən əziyyət çəkir. Hər 10 ildə bu xəstəlikdən əziyyət çəkən insanların sayı 2 dəfə artır, həmçinin yaşla əlaqədar olaraq öddaşı xəstəliyinin rastgəlmə tezliyi artır [1,2,3].

İlk dəfə 1867-ci ildə Bobs tərəfindən İndianapolisdə müalicə məqsədi ilə xolesistostomiya icra olunmuşdur. 15 iyun 1882-ci ildə Alman cərrahı Karl Langenbux dünyada ilk xolesistektomiya əməliyyatını icra etmişdir. Rusya Federasiyasında ilk xolesistektomiya əməliyyatı 1889-cu ildə İ.F. Kosinski tərəfindən icra olunmuşdur [4].

Xolesistektomiya əməliyyatları əksərən iki üsulla: açıq-ənənəvi və laporaskopik olmaqla yerinə yetirilir. Artıq bütün dünyada xolesistektomiya əməliyyatları 90% laparoskopik, 10 % hallarda isə açıq üsulla icra olunur. Azərbaycan Respublikasında o cümlədən bizim klinikada xolesistektomiya əksinə, 10-20 % hallarda laparoskopik üsulla icra olunur [1, 5, 6].

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Açıq-ənənəvi və laparoskopik üsulların müqayisəli təhlili məqsədi ilə 2006-2011-ci illər ərzində akad.M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin qaraciyər, öd kisəsi və mədəaltı vəzin xəstəliklərinin cərrahlığı şöbəsində xolesistektamiya əməliyyatına məruz qalmış 500 xəstənin nəticələri öyrənilmişdir. Bu xəstələr randomizə olunmuş 3 qrupa bölünmüşlər. I qrupa açıq-ənənəvi üsulla xolesistektamiya əməliyyatına məruz qalmış-200 (40%) xəstə, II qrupa laparoskopik üsulla xolesistektamiya əməliyyatına məruz qalmış- 200 (40%) xəstə və III qrupa "mini" kəsiklə açıq xolesistektamiya əməliyyatına məruz qalmış-100 (20%) xəstə daxil edilmişdir.

I qrupa açıq-ənənəvi üsulla xolesistektamiya əməliyyatına məruz qalmış 200 xəstənin daxil edilmişdir. Aşağıdakı 1 saylı cədvəldə xəstələrin cinsə və yaşa görə bölünməsi qeyd olunmuşdur.

Cədvəl 1

Xəstələrin cinsə və yaşa görə bölünməsi

Yaş / Cins	<20	21-40	41-60	61-75	>75	Cəmi
Kişi	-	8	23	8	1	40 (20%)
Qadın	2	41	86	26	5	160 (80%)
Cəmi	2 (11%)	49(24,5%)	109(54,5%)	34 (17%)	6 (3%)	200

Cədvəldən göründüyü kimi 40 xəstə - 20% kişilər, 160 xəstə - 80% qadınlar olmuşdur. Bu bir daha onu təsdiq edir ki, qadınlar kişilərə nisbətən öddaşı xəstəliyindən daha çox əziyyət çəkirlər. Bizim kliniki müşahidəmizdə öddaşı xəstəliyinin kişi və qadınlar arasında rast gəlmə tezliyi 1/4 nisbətində olmuşdur. Xəstələrin böyük əksəriyyəti 160 (80%) cavan və orta yaşlı fiziki və zehni əmək qabiliyyətli nəslin nümayəndələridir. Bu isə öddaşı xəstəliyinin sosial bir problem olmasına dəlalət edir.

Xəstələrin klinikaya müraciəti araşdırılmışdır. Məlum olmuşdur ki, xəstələr 11% hallarda təcili yardım briqadası tərəfindən gətirilmiş, 16% hallarda poliklinikaların göndərişi ilə, böyük əksəriyyəti isə 73% özləri müraciət etmişlər. Bu fakt bir daha öddaşı xəstəliyindən əziyyət çəkən xəstələrə poliklinik yardım və dispanserizasiya işinin qənaətbəxş olmamasına dəlalət edir.
Xəstələrin anamnezinə əsaslanaraq xəstəliyin davam etmə müddəti öyrənilmişdir. Aşağıdakı 2 saylı cədvəldə bu göstərici öz əksini tapmışdır.

Cədvəl 2

Xəstələrin anamnezinə əsaslanaraq xəstəliyin davam etmə müddəti

Müddət	1 ilə qədər		2-5 ilə qədər		5 ildən çox		
Xəstələrin sayı	n	%	n	%	n	%	Cəmi
	82	41	65	32,5	53	26,5	200

2 saylı cədvəldən göründüyü kimi 82 xəstə (41%) bir il müddətində, 65 xəstə (32,5%) 5 ilə qədər və 53 xəstə (26,5%) isə 5 ildən çox müddətdir ki, öddaşı xəstəliyindən əziyyət çəkir. Ümumilikdə götürsək 118 xəstədə 59% hallarda cərrahi müalicə üsulunun seçilməsi qərarı gecikmiş hesab olunmalıdır.

Cədvəl 3

Yanaşı olan xəstəliklər

№	Xəstəliyin adı	Sayı	%
1	Ürəyin xroniki işemik xəstəliyi	13	6,5
2	Aterosklerotik kardioskleroz	14	7
3	Hipertomiya xəstəliyi II B.	18	9
4	Miokardiodistrofiya	8	4
5	Aterokardioskleroz- seyrəci aritmiya	5	2,5
6	Mitral qapaq protezləşməsindən sonra vəziyyət: ürək- ağciyər çatmamazlığı II dər.	1	0,5
7	Serebral ateroskleroz. Dissirkulyator və hipoksik ensefalopatiya III dər.	4	2
8	Neyrosirkulyator distoniya	6	3
9	Anemiya	10	5
10	Şəkərli diabet	4	2
11	Sağ tərəfli pnevmoniya	1	0,5
12	Bronxial astma	2	1
13	Xroniki bronxit	4	2
14	Talassemiya-splenektomiyadan sonrakı vəziyyət	1	0,5
15	Hepatit C virus daşıyıcısı	1	0,5
16	Xroniki persistəedən hepatit	2	1
17	DQBD yırtığı, Reflüks-ezofagit	31	15,5
18	Eroziv qastroduodenit	15	7,5
19	Mədə rezeksiyasından sonrakı vəziyyət	3	1,5
20	12b.b-xorası, bulbodeformasiya	1	0,5
21	Biliar pankreatit	8	4
22	Parapankreatik absesləşmə	1	0,5
23	Öd kisəsinin polipozu	1	0,5
24	Öd kisəsinin divertikulu	1	0,5
25	Xroniki kolit, dolixosiqma (dolixokolon)	6	3
26	Göbək yırtığı	1	0,5
27	Uşaqlığın fibromioması	1	0,5
28	Sol yumurtalığın sisti	1	0,5
29	Böyrək daşı xəstəliyi, Hidronefroz II dər.	2	1
30	Sol xayalığın hidropsu	1	0,5
31	Prostat vəzinin hipertrofiyası	1	0,5
32	Piylənmə III-IV dərəcə	4	2
	Cəmi	172	

Aparılan sorğu anamnestik məlumatlara əsasən, xəstələrin 108-i (54%) stasionar və ya ambulator olaraq həkim nəzarətində olmuş, lakin 92 xəstə (46%) heç bir həkim nəzarətində olmamışdır. Bu fakt həmçinin cəmiyyətdə- insanlar arasında, kütləvi informasiya vasitələrində öddaşı xəstəliyi barədə təbliğat və təsfiqat işlərinin kifayət dərəcədə olmağına dəlalət edir.

Bütün xəstələrə (200xəstə-100%) qarın boşluğu orqanlarının ultrasəs müayinəsi (USM), 4 xəstədə (2%) xoledoxun ölçüləri və öd kisəsi barədə məlumatın kifayət qədər olmadığı üçün kompüter tomoqrafiya (KT) müayinəsi, rentgen-televizion qurğunun köməyi ilə 195 xəstəyə (97,5%) döş qəfəsinin Rentgenosnopik müayinəsi, (100%) elektrokardioqrafiya (EKQ) müayinəsi, bəzi xəstələrə (16%) hallarında EXO kardioqrafiya müayinəsi, 120 xəstəyə (60%) qida borusu, mədə və onikibarmaq bağırsağın kontrast Rentgen- televizion müayinəsi və 24 saat sonra təkrar yoğun bağırsaqın Rentgen müayinəsi, 36 xəstəyə (18%) endoskopik müayinə, mədə turşuluğunun öyrənilməsi üçün Rusiya Federasiyası istehsalı olan "АГМ-03- Ацидогастрометр"-dən istifadə olunmaqla PH- metriya instrumental müayinələri aparılmışdır.

Bütün xəstələrə akademik M.A. Topçubaşov adına ECM-nin kliniki laboratoriyasında müasir qan analizatorlarının vasitəsi ilə laborator müayinələr aparılmış: qanın ümumi analizi, biokimyəvi analizlər, RW, QİÇS, HCvAg və HBsAg antigenləri təyin olunmuşdur. Bu zaman qan qrupu, Rh faktoru, Hb, eritrosit, leykosit, EÇS, bilirubin və onun fraksiyaları, AlAT, AsAT, QQT, qələvi fosfotaza, Sial turşusu və s. öyrənilmişdir.

NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. Bütün müayinələrin nəticələrinə əsaslanaraq 72 xəstəyə (36%) xroniki daşlı xolisistit, 128 xəstəyə (64%) isə kəskin daşlı xolisistit diaqnozu qoyulmuşdur.

3 saylı cədvəldən göründüyü kimi 172 sayda müxtəlif ağırlaşmalar- yanaşı gedən xəstəliklər rast gəlinmişdir. Bəzən elə xəstə olmuşdur ki, bir xəstədə 4 və ya 5 yanaşı gedən xəstəliyə eyni halda rast gəlinmişdir. Bütün bunlar bir daha onu sübut edir ki, biz kliniki materialın yığılmasında heç bir seçmə üsulundan istifadə etməyərək, ucdantutma yanaşılmaqla analiz aparmışıq. Bu isə alınan nəticələrin dürüst olacağına zəmanət verir. Yanaşı gedən xəstəliklər müvafiq mütəxəsislər tərəfindən konsultasiya olunaraq, əməliyyat önü və əməliyyatdan sonrakı dövrdə korreksiya olunmuşdur.

Əməliyyat önü dövrdə 152 xəstə 76% müayinələrlə yanaşı medikamentoz müalicə, infuzion, kardiotonik, hepatotrop, vitaminoterapiya, spazmolitiklə müalicə, 119 xəstə (59,5%) isə antibiotikoterapiya almışdır. Antibiotikoterapiya zamanı, nefrotoksik, hepatotoksik təsiri az olan və ədəbiyyatdan bəlli öd yolları infeksiyalarına daha yaxşı təsir edən ampisillin+sulbaktam qrupu antibiotiklərinə və metronidazol infuziyasına üstünlük verilmişdir.

Bütün xəstələrə əməliyyat ümumi ağrısızlaşdırma: intubasion – endotraxeal narkozun tətbiqi ilə açıq-ənənəvi üsulla "böyük cərrah-böyük kəsik" prinsipinə uyğun olaraq 20-22 sm uzunluğda geniş kəsik aparılmaqla icra olunmuşdur.

Cədvəl 4

Xəstələrin sayının kəsiyin formasına gör kəmiyyət göstəriciləri

№	Kəsiyin adı	Xəstələrin sayı	%
1	Transrektal	2	1
2	Yuxarı orta laparotomiya	12	6
3	Fedorov kəsiyi	2	1
4	Koxer kəsiyi	184	92
	Cəmi	200	100

4 saylı cədvəldən göründüyü kimi ən çox üstünlük Koxer kəsiyinə (92%) verilmişdir. Bütün hallarda kəsiklər aparılarkən müasir bipolyar və monopolyar elektrokoaqulyasiya avadanlıqlardan istifadə olunmuşdur, hansı ki, işi texniki cəhətdən asanlaşdırır, tezləşdirir və qanitirməsini minimuma endirir.

Əməliyyat zamanı taktiki və texniki yanaşma: Xroniki daşlı xolesistitlə olan xəstələrdə mütləq öd kisəsi boynu əldə edilir, Kalo üçbucağı nahiyyəsi və hepatoduodenal bağ elementləri təftiş olunur, kisənin arteriyası və axacağı ayrı-ayrılıqda tutulub kəsilib-iki liqatura ilə bağlandıqdan sonra kisə yatağından subseroz çıxarılır – retroqrad xolesistektomiya. Kisə yatağı əksər hallarda elektrokoaqulyasiya ilə hemostaz olunur və tikişsiz saxlanılır.

Əsasən kəskin daşlı xolesistitlə olan xəstələrdə əməliyyat taktikasında müəyyən dəyişikliklər və fərqli-fərdi yanaşmalar olmuşdur. Belə ki, öd kisəsi kəskin fleqmanoz ya qanqrenoz dəyişikliyə uğradıqda və kisə axarında daş abturasiya olduqda, öd kisəsinin empieması zamanı, kisə həddən artıq gəngirdirsə və əməliyyat sahəsini tutur, manipulyasiya etməyə çətinlik törədərsə, onda kisə dibi nahiyyəsindən punksiya olunur, elektrosorucuya qoşulur və içərisində olan möhtəviyyat (öd ya qatı irin) sorulur, sonra isə öd kisəsinin boynu Kalo üçbucağı nahiyyəsi və hepatoduodenal bağ elementləti - xoledox təftiş olunur.

Kəskin daşlı xolesistitlə olan 76 xəstədə 38% göstərilən üsulla öd kisəsi punksiya olunmuş, boşaldıldıqdan sonra - boyun nahiyəsi əldə olunmuş retroqrad xolesistentomiya icra olunmuşdur. Lakin kəskin qanqrenoz dəyişikliyə uğramış və hepatoduodenal bağ elementlərini iltihabi infiltrasiya hesabına identifikasiya etmək mümkün olmadığı 14 xəstədə (7%) Pribram üsulundan istifadə olunmuşdur. Belə ki, öd kisəsi punksiya olunduqdan sonra dibi nahiyyəsindən olmaqla mənfəzi açılmış içərisindən möhtəviyyat, daşlar və detritlər evakuasiya olunmuş və içəridən duktus sistikus identifikasiya olmaqla heç bir yatrogen zədələnmə olmadan anteqrat üsulla xolesistektomiya icra olunmuşdur. Bu qrupdan olan xəstələrdə kisə yatağından qanaxmalar olmuş-elektrokoaqulyasiyanın köməyi ilə dayanıqlı hemostaz əldə olunmadığı 26 xəstədə (13%) kisə yatağı fasiləsiz atrovmatik ketqut 2.0 saplarla tikilmişdir. Ümumiyyətlə biz bütün hallarda xolesistektomiyadan sonra öd kisəsi yatağının tikilməsinin əleyhinəyik.

5 saylı cədvəldə kəskin qanqrenoz daşlı xolesistitlə olan xəstələrin əməliyyatı zamanı rast gəlinən bəzi ağırlaşmalar verilmişdir.

Cədvəl 5

Kəskin qanqrenoz daşlı xolesistitlə olan xəstələrin əməliyyatı zamanı rast gəlinən bəzi ağırlaşmalar

№	Ağırlaşmanın adı	n	%
1	Öd kisəsi yatağından qanaxma	5	2,5
2	Texniki çətinlik	3	1,5
3	Arteriya sistikadan qanaxma	2	1
4	Parapankreatik abseslər	1	0,5
	Cəmi:	11	5,5%

Cədvəldən göründüyü kimi 5 xəstədə (2,5%) öd kisəsi yatağından qanaxma qeyd olunmuşdur. Bu hal həm anteqrat üsulla xolesistektomiya olunduqda öd kisəsi arteriyasının bağlanmadığı üçün, həm də, perivezikuliyar sahədə kəskin infiltratın əmələ gəlməsi-həmin sahədə qaraciyər toxumasının kövrəkləşməsi və mexaniki təsirdən cırılması ilə izah olunur.

3 xəstədə (1,5%) texniki çətinliklər olmuşdur, yəni kisə axarına daş pərçim olunduğu üçün hətta kisənin içərisindən belə kisə axarını tapmaq və identifikasiya etmək çətinlik törətmişdir. Belə hallarda kisə ehtiyatla tamamilə mobilizə olunaraq duktus sistikusdan asılı qalır və ondan sonra duktus sistikus tutulub kəsilir, bağlanır.

2 xəstədə duktus sistikus və arteriya sistika ətrafında manipulyasiya edərkən kisə arteriyası qopmuş və kəskin qanaxma qeyd olunmuşdur. Əsasən yatrogen zədələnməyə səbəb olan bu ağırlaşma zamanı ümumi qəbul olunmuş və bizim də, tətbiq etdiyimiz üsulu yada salmaq istərdim. Kisə arteriyası qoparaq içəriyə doğru qaçır və güclü qanaxma baş verir. Belə halda təcrübəli cərrah özünü itirməməli, hepatoduodenal bağ elementlərini Vinslov dəliyindən keçməklə elastik sıxıcıya - asılqana götürməli. Bu zaman qanaxma dayanır və asılqanda gərginliyi azaldan kimi qanaxmanın haradan olduğu tapılır. Kisə arteriyası tutulur və liqatura alınaraq hemostaz əldə edilir. Elastik sıxıcı açılır. Bu zaman kisə arteriyasına ancaq liqatura qoyulur. Biz belə hallarda tikiş qoyulmasının əleyhinəyik, çünki tikişə ətraf elementlər götürülə bilər və sonradan ağırlaşmalar ola bilər. Rast gəlinən yatrogen zədələnmələrin əksəriyyəti kisə arteriyasından qanaxmalar zamanı hemostaz məqsədi ilə arteriya ilə yanaşı qaraciyrdənxaric öd yollarının tikilərək liqaturaya alınmasından baş verir.

1 xəstədə isə, yanaşı parapankreatik abseslər olduğu üçün, abses boşluqları açılıb boylama drenləşdirilmiş və dekompressiya məqsədi ilə xolesistektomiyadan sonra duktus sistikusdan olmaqla Pikovski üsulu ilə xoledoxostomiya icra olunmuşdur.

Bütün xəstələrin hamısıda xolesistektomiyadan sonra kiçik piylik kisəsi bir drenaj vasitəsi ilə əlavə kəsiklə xaricə drenləşdrilmişdir.

Bütün xəstələrin narkoz kartlarındakı qeydiyyata əsasən cərrahi əməliyyatın icra olunması müddəti öyrənilmişdir. 6 saylı cədvəldə əməliyyat müddətinin nəticələri dəqiqə ilə verilmişdir.

Cədvəl 6

Əməliyyat müddətinin nəticələri (dəqiqə ilə)

Vaxt. dəq.	50	60	70	80	90	100	110	120
Xəstə N	6	38	24	22	26	16	11	22

Vaxt. dəq.	130	140	150	160	180	210	240	360	
Xəstə N	7	6	3	6	8	3	1	1	200

Cədvəldən görüldüyü kimi əksər xəstələr 1-2 saat ərzində əməliyyata məruz qalmışlar. Lakin əməliyyatın 3-4 hətda 6 saat belə davam etdiyi hallar qeyd olmuşdur. Biz 200 xəstə üçün xolesistektomiya əməliyyatına sərf olunan orta əməliyyat vaxtını hesablamışıq. Bunun üçün hər bir vaxt göstəricisinin ona uyğun xəstələrin sayına vurub alınan bütün rəqəmlər toplanılır və 200-ə bölünür: 19640/200=98,2 dəqiqə (orta hesabla bir əməliyyata sərf olunan vaxt)

Beləliklə orta hesabla bir əməliyyata sərf olunan vaxt 98,2 dəqiqə və ya, təqribən 1saat 40 dəqiqə olmuşdur.

7 saylı cədvəldə əməliyyatdan sonrakı ilkin dövürdə meydana çıxan ağırlaşmalar öz əksini tapmışdır.

Cədvəl 7

Əməliyyatdan sonrakı ilkin dövürdə meydana çıxan ağırlaşmalar

№	Ağırlaşmalar	N	%
1	Yaranın irinləməsi, II-cili sağalması	39	15,5
2	Leykoplastra dərinin alergik reaksiyası	5	2,6
3	Xroniki bronxitin kəsginləşməsi	3	1,5
4	Kubital venaların flebiti	10	5
5	Sağ tərəfli reaktiv eksudativ plevrit	6	3
	Cəmi	63	31,5

Cədvəldən görüldüyü kimi əməliyyatdan sonrakı ilkin dövürdə 63 xəstədə (31,5%) müxtəlif ağırlaşmalar meydana çıxmışdır. Bunlarda ən çox rast gəlinən yaraların irinlənməsi 39 xəstədə (19,5%) qeyd olunmuşdur. Sağ tərəfli reaktiv eksudativ plevrit kimi ağırlaşmalar daha çox kəskin qanqrenoz daşlı xolisistit, perivezikulyar abseslaşmə ilə olan xəstələrdə rast gəlinmişdir. Aparılan konsentativ müalicə tədbirləri ilə bütün ağırlaşmalar aradan qaldırılmışdır. Cədvəldə 8- də çarpayı günlərinin sayı verilmişdir.

Cədvəl 8

Çarpayı günlərinin sayı

Çar. günləri	6	7	8	9	10	11	12	13	14	15	16
Xəstələr	2	10	14	15	27	25	16	9	22	21	8

Çar. günləri	17	18	19	20	21	22	24	25	26	32	39
Xəstələr	2	5	6	8	3	1	1	2	1	1	1

Cədvəldən göründüyü kimi çarpayı günlərinin sayı ən az 6 gündən başlayaraq 39 günə qədər davam etmişdir.

Açıq - ənənəvi üsulla xolesistektromiya əməliyyatına məruz qalmış xəstə qrupu üçün orta çarpayı günü öyrənilmişdir. Bunun üçün hər günü müvafiq xəstə sayına vurub, alınan nəticələri toplayaraq ümumi xəstə sayına (200) bölürük 2588/200=12,94≈13 gün

Beləliklə açıq-ənənəvi üsulla xolesistektomiya əməliyyatına məruz qalmış xəstələr üçün orta çarpayı günü 12,94 təqribən 13 gün olmuşdur.

YEKUN. Açıq-ənənəvi üsulla xolesistektomiya əməliyyatına məruz qalmış 200 xəstədən 40 xəstə - 20% kişilər, 160 xəstə - 80% qadınlar olmuşdur. 118 xəstədə 59% hallarda cərrahi müalicə üsulunun seçilməsi qərarı gecikmiş hesab olunmalıdır. Bütün müayinələrin nəticələrinə əsaslanaraq 72 xəstəyə (36%) xroniki daşlı xolisistit, 128 xəstəyə (64%) isə kəskin daşlı xolisistit diaqnozu qoyulmuşdur.

Əməliyyat önü dövrdə 152 xəstə 76% medikamentoz müalicə, 119 xəstə (59,5%) isə antibiotikoterapiya almışdır. 172 sayda (86%) müxtəlif ağırlaşmalar- yanaşı gedən xəstəliklər rast gəlinmişdir. Bəzən bir xəstədə 4 və ya 5 yanaşı gedən xəstəliyə eyni halda rast gəlinmişdir. Əməliyyat zamanı ən çox üstünlük Koxer kəsiyinə (92%) verilmişdir. 11 xəstədə (5,5%) əməliyyat daxili ağırlaşmalar olmuşdur. Orta hesabla bir əməliyyata sərf olunan vaxt 98,2 dəqiqə və ya, təqribən 1saat 40 dəqiqə olmuşdur. Əməliyyatdan sonrakı ilkin dövürdə 63 xəstədə (31,5%) müxtəlif ağırlaşmalar meydana çıxmışdır. Bu qrup xəstələr üçün orta çarpayı günü 12,94 təqribən 13 gün olmuşdur. Bu qrupdan olan xəstələrimizdə letallıq qeyd olunmamışdır.

ƏDƏBIYYAT

1. Ağayev B.A. Cərrahi xəstəliklər. B., 2008.
2. Ветшев П.С., Шулутко А.М. и др. Хирургическое лечение холелитаза: незыблемые принципы, щадящие технологии // Хирургия, 2005, №8, 2005.
3. Гальперин Э.И., Ветшев П.С. Руководство по хирургии желчных путей. М., 2006.
4. Ермолов А.С., Упырев А.В., Иванов П.А. Хирургия желчнокаменной болезни: от пройденного к настоящему // Хирургия, 2004, №5
5. Нестеренко Ю.А., Михайлусов С.В., Бурова В.А. и др. Лечение калькулезного холецистита и его осложений // Хирургия, 2003, №10
6. Afdhal N. Diseases of the gallbladder and bile ducts / Goldman L, Ausiello D, eds. Cecil Medicine. *23rd* ed. Philadelphia: Pa: Saunders Elsevier, 2007, chap 159

РЕЗЮМЕ

РЕЗУЛЬТАТЫ КЛИНИЧЕСКИХ НАБЛЮДЕНИЯ ЗА БОЛЬНЫХ, КОТОРЫМ БЫЛА ПРОВЕДЕНА ОТКРЫТАЯ ТРАДИЦИОННАЯ ХОЛЕЦИСТЭКТОМИЯ

З.Т.Ширинов, Ф.С.Идрисов

Были изучены рузльтаты 500 пациентов, подвергающихся воздействию холецистэктомия в печени, желчевыводящих путей и поджелудочной железы в НЦХ им М.А,Топчибашева в 2006-2011 года. Пациенты были разделены на 3 группы: в первой группе были проведены открытые традиционной холецистэктомии - 200 (40%) больных, 2-я группа - лапароскопическая холецистэктомия - 200 (40%) пациентов и 3-й группы "мини" открытая операция резекции-100 холецистэктомия (20%) пациентов. Данная статья посвящена результатам клинического наблюдения за больными которым была проведена открытая традиционная холецистэктомия

SUMMARY

THE RESULTS OF CLINICIAL OBSERVATION Of PATIENTS WERE PERFORMED OPEN-TRADITIONAL CHOLECYSTECTOMY

Z.T.Shirinov, F.S.Idrisov

Results of 500 patients exposed to cholecystectomy at the hepatic, biliary and pancreas surgery at the SSC named after M.A.Topchubashov within 2006-2011 were studied. The patients were divided onto 3 random groups. The 1st group were performed open-traditional cholecystectomy – 200 (40 %) patients, 2nd group – laparoscopic cholecystectomy – 200 (40%) patients and 3rd group "mini" resection open cholecystectomy operation-100 (20%) patients. This article is devoted to the results of clinical observation of patients were performed open-traditional cholecystectomy.

Daxil olub:11.04.2011

PRAKTİK HƏKİMƏ KÖMƏK - ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ВРАЧУ

BAKTERIAL VAGINOZUN MÜASIR MÜALICƏSI

E.Q.Sarıyeva
Azərbaycan Tibb Universiteti, Bakı

Son illər cinsi yolla keçən xəstəliklərin sayının artması, əsaslandırılmamış antibiotik istifadəsi uşaqlıq yolu mikroflorasının kəskin disbalansına səbəb olmuşdur. Uşaqlıq yolunun normal mikrobiosenozu müxtəlif yaş dövrlərində qadın sağlamlığını təmin edir. Uşaqlıq yolunun mikrobiosenozu indigen (avtoxton) və tranzitor (alloxton) mikrofloradan ibarətdir. Uşaqlıq yolunun normal mikroflorası cinsiyyət yolunun kolonizasiya rezistentliyini şərtləndirir. Kolonizasiya rezistentliyi dedikdə normal mikrofloranın keyfiyyət və kəmiyyət tərkibinin daimiliyi nəzərdə tutulur. Nəticədə uşaqlıq yolunda nəinki patogen mikroorqanizmlərin çoxalmasının, həmçinin şərti-patogen floranın replikasiyasının qarşısı alınmış olur [6]. Qeyd etmək lazımdır ki, sağlam qadınlarda uşaqlıq yolunda 95-98% hallarda lactobacillus spp. (mikroaerofil bakteriyalar) rast gəlinir. Ən çox aşağıdakı laktobasil növləri tapılır: lactobacillus acidophilus, lactobacillus brevis, lactobacillus jensenii, lactobacillus casei, lactobacillus leishmanii, lactobacillus plantarum. Nadir hallarda lactobacillus buchneri, lactobacillus crispatus, lactobacillus fermentum, lactobacillus gasseri, lactobacillus johnsonii, lactobacillus reuteri, lactobacillus rhamnosus, lactobacillus ruminis, lactobacillus salivarius, lactobacillus vaginalis aşkar olunur. Klinik təcrübədə xroniki vulvavaginitlərin uzun-müddətli müalicəsi uşaqlıq yolundakı anaerob floranın (qardnerella, fuzobakteriyalar, pepptokokklar və s.) kolonizasiyasının üstünlüyünə gətirib çıxarır, nəticədə uşaqlıq yolunun disbiozu –bakterial vaginoz (BV) inkişaf edir [1,3]. BV ginekoloji xəstəliklər arasında ən geniş yayılan patologiyadır. Vulvo-vaginal infeksiyaların 1/2 hissəsi BV-in payına düşür. BV zöhrəvi xəstəlik deyil. Lakin, bu patoloji vəziyyətin müalicə olunmaması uşaqlığın, uşaqlıq artımlarının iltihabi xəstəliklərinin riskini artırmaqla, gələcəkdə vaxtından qabaq doğuşlara, doğuş ağırlaşmalarına səbəb olur [2,5]. Klinik qabarıq BV qadınların 50-75% rast gəlinir, 24-50% halda simptomsuz BV-yə laborator üsullarla diaqnoz qoyulur [7].

Biz BV-in müalicə üsullarının səmərililiyini qiymətləndirmək üçün müasir diaqnostika metodlarının köməyilə klinik təcrübələr aparmışıq. Bu məqsədlə reproduktiv yaşda olan BV-li 50 qadın klinik- mikrobioloji müayinələrdən keçirilmişdir. Müəyyən olunmuşdur ki, BV-li xəstələrin anamnezində kolit, psevdoeroziya, uşaqlıq artımlarının iltihabi, aybaşı pozulmaları, həmçinin bağırsaq disbakteriozu üstünlük təşkil etmişdir. Xəstələrin 75%-i cinsiyyət yolundan "balıq iyli" xoşagəlməz qoxuya malik ağ rəngli ifrazatın gəlməsindən, uşaqlıq yolunda yanğı hissindən şikayətlənmişlər. Xəstələrin 25%-də xəstəlik simptomsuz keçmişdir. Tədqiqat obyektini təşkil edən qadınlarda müasir laborator üsulların köməyilə cinsi yolla keçən infeksiyalar istisna olunmuşdur. BV-li xəstələrin nativ uşaqlıq yolu yaxmalarında laktobakteriyaların olmaması, çoxlu polimorf qrammüsbət və qrammənfi çöplər, kokk florası, "açar hüceyrələr" aşkar olunmuşdur. Əlavə laborator diaqnostika metodlarından Qramm üsulu ilə rənglənmə, uşaqlıq yolunun pH-metriyası (pH 4,5-dən yuxarı olmuşdur), müsbət amin testi, birbaşa immunofluoressensiya sınağı, bakterioloji sınaqlardan istifadə olunmuşdur. Klinisistlər BV-in müalicəsində antianaerob dərman preparatlarına üstünlük verirlər (4). Beynəlxalq ekspertlər qrupu (Xəstəliklərin profilaktikası və nəzarət üzrə Amerika mərkəzi) BV-in terapiyasına aid 52 elmi işi təhlil edərkən metronidazol, yaxud klindamisinin tətbiqinin 88-94% halda effektiv olduğunu təsdiq etmişdir [8,9]. Bizim tərəfdən BV-in müalicəsi məqsədilə metronidazol 500 mq dozada gündə 2 dəfə 7 gün daxilə təyin edilmişdir. Alternativ müalicə qismində klindamisin (klindamisin fosfat 100 mq) şam şəklində gündə 1 dəfə 3 gün müddətində uşaqlıq yoluna təyin edilmişdir. Xəstələrə turş qidaların (biokefir, yoqurt və s.) qəbulu məsləhət görülmüşdür. BV-in cinsi yolla ötürülmədiyini nəzərə alaraq cinsi partnyora müalicə təyin olunmamışdır. Ümumiyyətlə, çoxsaylı elmi tədqiqatlarda BV ilə klassik zöhrəvi xəstəliklər arasında birbaşa əlaqə müəyyən olunmamışdır. Müalicənin ikinci mərhələsi uşaqlıq yolu mikrobiosenozunun

normallaşdırılmasından ibarət olmuşdur. Bu məqsədlə Gynofit geli (İsveçrə) gündə 1 dəfə 6-12 gün ərzində yerli tətbiq edilmişdir. Təkrari kontrol müayinələr 4 həftədən sonra aparılmışdır. Müalicə kurslarından sonra xəstələrin 85%-də klinik əlamətlər yaxşılaşmış, uşaqlıq yolu yaxmalarında normal biosenoz bərpa edilmişdir. Xəstələrin 15%-də nativ uşaqlıq yolu yaxmalarında tək hallarda "açar hüceyrələr" tapıldığından təkrari yerli müalicə kursu təyin edilmişdir.

Alinan nəticələr yerli müalicə usulunun sistem müalicəsi qədər effektiv olduğunu sübüt etmişdir. Aparılan tədqiqat işi ikinci müalicə mərhələsi kimi uşaqlıq yolunun biosenozunun normallaşdırılmasının vacibliyini təsdiq etmişdir. İndiyədək obliqat anaerobların patogenetik amilləri və laktobasillərin antaqonist aktivliyi mexanizmləri (adgeziya reseptorları, növ tərkibi, faqların mövcudluğu və s.) kifayət qədər öyrənilmədiyindən BV-in residivlərinin profilaktikası açıq məsələ kimi qalmaqdadır.

ƏDƏBIYYAT

1. Адаскевич В.П. Инфекции, передаваемые половым путем. Рук-во для врачей. М. 2001. 436 с.
2. Багирова Л.Г. Современные аспекты проблемы бактериального вагиноза // Здоровье, Баку 2011, №3, с. 137-141
3. Захарова Т.В., Волков В.Т. Лисицина Т.В. Современные подходы к лечению бактериального вагиноза // Акушерство и гинекология,2005, №1, с. 40-42.
4. Кулаков В.И., Серов В.Н. Рациональная фармакотерапия в акушерстве и гинекологии. Руководство для практических врачей. М.:Литерра. 2005. 1152 с.
5. Прилепская В.Н. Клиническая гинекология. Избранные лекции. М., 2007, 480 с.
6. Сидорова И.С., Воробьев А.А., Борокова Е.И. Микробиоценоз половых путей женщин репродуктивного возраста // Акушерство и Гинекология, 2005, №2, с. 7-9.
7. Сметник В.П., Тумилович Л.Г. Неоперативная гинекология. М.,1998, 592 с.
8. Koumans E.N., Markowitz L.E., Hogan V. //J. Clin. Inf. Dis., 2002, v.35, suppl.2 p. 152-172/
9. Paavonen J., Mangioni C., Martin M.A., Wajszczuk C.P. //Obstet.Gynec. 2000, v.96. p. 256-260

РЕЗЮМЕ

СОВРЕМЕННОЕ ЛЕЧЕНИЕ БАКТЕРИАЛЬНОГО ВАГИНОЗА

Э.Г.Сарыева

Целью исследования явилось изучение эффективности методов лечения бактериального вагиноза (БВ). Работа была проведена на кафедре акушерства –гинекологии II АМУ. Объектом исследования явилось 50 женщин репродуктивного возраста. Больные были подвергнуты клинико-микробиологическим исследованиям. Результаты исследования показали, что у 75% женщин БВ сопровождался яркими клиническими проявлениями как неприятный «рыбий» запах, патологические выделения, жжение во влагалище. У 25% женщин заболевание было подтверждено лабораторными методами. С целью лечения БВ был назначен метронидазол 500 мг в течении 7 дней. Альтернативное лечение составил клиндамицин местно во влагалище в течении 3 дней. Для нормализации микробиоценоза влагалища был назначен Gynofit (гель) в течении 6-12 дней. Повторные контрольные исследования проводились через 4 недели. У 85% больных улучшились клинические симптомы, был восстановлен нормальный биоценоз влагалища. У 15% случаях обнаружены единичные «ключевые клетки», по поводу чего был назначен повторный курс лечения. Полученные данные подтвердили не только эффективность данного метода лечения БВ, но и важность восстановления нормального биоценоза влагалища.

SUMMARY

MODERN TREATMENT OF BACTERIAL VAGINOSIS

E.G.Sariyeva

The aim of our research was analysis of BV treatment methods` efficiency. Investigation has been spent at the department of obstetrics-gynecology II of Azerbaijan Medical University. As an object of our research 50 women in the reproductive age were selected. Patients were subjected for the clinical and microbiological analysis. Results of the researches demonstrated that, BV accompanied with a bright clinic implications at 75% women: unpleasant "fish" smell, pathological secretion, burning sensation in the vagina. Diagnoze was confirmed with different laboratory tests in the 25% women. For the treatment of BV metronidazolium 500 mg within 7 days was prescribed. The alternative treatment included Clindamycin vaginally within 3 days. For the normalization of vaginal microbiocenosis Gynofit for 6-12 days was prescribed. The repeated control was conducted after 4 weeks. At the 85% patients the clinic symptoms have improved, normal vaginal biocenosis were restored. Only in current 15% cases "key cells" were found, which was indication for the repetitive course of treatment. The obtained data confirmed not only efficiency of this treatment method, but importance of vaginal biocenosis restoration.

Daxil olub:31.04.2011

QISA MƏLUMATLAR- КОРОТКИЕ СВЕДЕНИЯ

MİKROORQANIZMLƏRIN YETIŞDIRILMƏSINDƏ YENI QIDALƏ MÜHITIN EFFEKTIVLIYININ ÖYRƏNILMƏSI

R.F.Axundov, H.A.Rəhimova, Ə.Ə.Alıyev, F.R.Gülalıyeva
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Elmi- tədqiqat Baytarlıq Institut, Bakı

Mikrobioloji tədqiqatlar aparılarkən mikrobların identifikasıyasında müayinələrin düzgünlüyünü təmin edən amillər sırasında keyfiyyətli qida mühitlərinin böyük əhəmiyyəiti vardır [1].

Müxtəlif xəstəlik törədən mikroorqanizmləri tez bir zamanda aşkara çıxarmaq və beləliklə, düzgün diaqnoz qoyub xəstəliyin müalicəsinə başlamaq üçün səmərəli qida mühitlərinin rolu əvəzsizdir. Xəstəliklərin diaqnostikası və bakterioloji preparatların hazırlanması çox vaxt istifadə olunan qida mühitlərinin keyfiyyətindən bilavasitə asılı olur. Qida mühitlərinin keyfiyyətli olması üçün isə hüceyrələrin zülalla təmin olunmasına lazım olan azot, karbon, hidrogen və oksigen elementlərinin mövcudluğu çox vacibdir. Bu elementlər qida mühitində elə formada olmalıdır ki, müxtəlif növ mikroorqanizmlər onlardan qida mənbəyi kimi istifadə edə bilsin, yəni qida mühiti daha yaxşı mənimsənilsin [2,3].

